


№ 450 May 2025

# KHAZAR REVIEW

AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

# XƏZƏR







# XƏBƏR






## *XƏZƏR UNİVERSİTETİNDƏ KARYERA SƏRGİSİ –2025*

Mayın 23-də Xəzər Universitetinin Neftçilər kampusunun həyətində Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə "Karyera Sərgisi – 2025" keçirildi.

Sərgidə 50-yə yaxın aparıcı şirkət və təşkilat, nüfuzlu hotellər və turizm şirkətləri, tanınmış təhsil kompleksləri, tədris və tərcümə mərkəzləri, banklar və maliyyə qurumları, psixoloji xidmət və inkişaf mərkəzləri, dizayn və arxitektura sahəsində fəaliyyət göstərən kreativ studiyalar, layihə büroları və s. iştirak etdilər.

Sərgidə təmsil olunan qurumlar arasında SOCAR, SOCAR Polymer, KPMG, "Norm" ASC, Fish Farm, ABAD, ACCESS BANK, ABB BANK, Azər Türk Bank ASC, Yelo Bank, Pasha Sığorta, Dunya School, Landau School, AIESEC, Şəms Tərcümə Mərkəzi, EFE Kursları, Unidestin Təhsil şirkəti, Strateji Düşüncə Tələbə Diplomatiya Mərkəzi, Konsis Group (Tərcümə Mərkəzi), Birgə Sağlam İctimai Birliyi, Hiss Psixoloji Sağlamlıq Mərkəzi, Kashalata café (Azərbaycanın ilk inklüziv kafesi), Four Seasons Hotel Baku, Mercure Baku City, Ulu Hospitality Group, TABIA Group (Badamdar Hotel, Excelsior Hotel&SPA, Hilton Garden İnn Baku, Paulaner), Resant Group Hotel, Yeni Baki Hotel və s. yer almışdı.




Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva öz çıxışında qeyd etdi ki, bu cür təşəbbüslər tələbə və məzunların əmək bazarına inteqrasiyasını dəstəkləməklə yanaşı, universitetin iş dünyası ilə əlaqələrini daha da möhkəmləndirir.



Şirkətlərin nümayəndələri tərəfindən tələbə və məzunlara iş və təcrübə, ilkin müsahibələr, CV-lərin qəbulu və şəbəkələşmə imkanları təklif olundu.

Sərgidə "Xəzər"in işsiz məzunları da fəal iştirak edərək, öz bacarıq və potensiallarını nümayiş etdirmək və iş dünyası ilə birbaşa əlaqə qurmaq imkanı əldə etdilər. Həmçinin, sərgidə digər universitetlərin nümayəndələri də iştirak edərək, tədbirin əhatə dairəsini daha da genişləndirdilər.




# CAREER FAIR – 2025 AT KHAZAR UNIVERSITY

On May 23, the "Career Fair – 2025" was held in the courtyard of Khazar University's Neftchilar campus, organized by the Career and Alumni Center.

Nearly 50 leading companies and organizations, prestigious hotels and tourism companies, renowned educational complexes, training and translation centers, banks and financial institutions, psychological service and development centers, creative studios operating in design and architecture, project offices, and others participated in the fair.



Among the institutions represented at the fair were SOCAR, SOCAR Polymer, KPMG, "Norm" JSC, Fish Farm, ABAD, ACCESS BANK, ABB BANK, Azer Turk Bank JSC, Yelo Bank, Pasha Insurance, Dunya School, Landau School, AIESEC, Shams Translation Center, EFE Courses, Unidestin Education Company, Strategic Thinking Student Diplomacy Center, Konsis Group (Translation Center), Together Healthy Public Union, Hiss Psychological Health Center, Kashalata café (Azerbaijan's first inclusive café), Four Seasons Hotel Baku, Mercure Baku City, Ulu Hospitality Group, TABIA Group (Badamdar Hotel, Excelsior Hotel&SPA, Hilton Garden Inn Baku, Paulaner), Resant Group Hotel, Yeni Baki Hotel, and others.



Director of the Career and Alumni Center, Zarifa Aliyeva, noted in her remarks that such initiatives not only support the integration of students and graduates into the labor market but also further strengthen the university's ties with the business world.

Representatives of companies offered students and graduates employment and internship opportunities, preliminary interviews, CV acceptance, and networking possibilities.

Unemployed graduates of "Khazar" also actively participated in the fair, gaining the opportunity to showcase their skills and potential and establish direct contact with the business world. Additionally, representatives from other universities also participated in the fair, further expanding the scope of the event.

# İÇİNDƏKİLƏR


Xəzər Universitetində Karyera Sərgisi – 2025 ....................2
"Xəzər"in fəal və nümunəvi məzunu Çində ....................6
Xəzər Universiteti nümayəndə heyətinin Çinə işgüzar səfəri....................8
Xəzər Universiteti və Anhui Universiteti akademik əməkdaşlığı gücləndirmək üçün Anlaşma Memorandumu imzaladı....................8
Xəzər Universiteti və Şanxay Beynəlxalq Araşdırmalar Universitetinin birgə beynəlxalq konfransı ....................11
Şanxay Beynəlxalq Araşdırmalar Universiteti Xəzər Universiteti ilə Anlaşma memorandumları imzalayıb ....................13
Prof.Akad. Hamlet İsaxanlı Azərbaycan Texniki Universitetində "Universitet-Sənaye Əməkdaşlığı: İstiqamətlər, Nümunələr və Süni intellekt" adlı Beynəlxalq Forumda ....................14
"Spaghetti Bridge 2025" yarışmasının qalibi – "Fettuccine" ....................15
"Xəzər"in məzunu AMB-də yeni vəzifəyə təyin olunub....................16
"Xəzər"in məzunu "Azərbaycan Respublikasının Medalı" ilə təltif olunub ....................17
Litva Respublikasının Azərbaycandakı səfiri "Xəzər"də....................19
"23 Aprel-Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" münasibətilə tədbir ....................20
"Azerbaycan edebiyatında tarihi roman" kitabının təqdimatı ....................22
Xəzər Universitetində Azərbaycan IX Beynəlxalq Psixologiya Konfransı....................26
"Xəzər"də "Şekspir Günü - 2025" ....................30
"Xəzər" tələbələrinin Tələbə Elmi Konfransında fəallığı....................36
"B. Pasternak, İ. Brodski: Rus şeirində iki səs, bir əks-səda..." mövzusunda seminar ....................38
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri....................40
Xəzər Universiteti Səudiyyə Ərəbistanında keçirilən "Education Global Exhibition (EDGEx 2025)" beynəlxalq təhsil sərgisində uğurla təmsil olunub....................42
Xəzər Universiteti Səudiyyə Ərəbistanındakı beynəlxalq məktəblərdə təqdim olunub ....................43
Üsküdar Universitetinin nümayəndə heyəti "Xəzər"də....................44
Miçiqan Dövlət Universiteti və Boğaziçi Universitetinin professorları ilə görüş ....................45
Miçiqan və Boğaziçi universitetlərinin professorlarının iştirakı ilə seminar ....................46
İslamabad Vəqf Universitetinin (FUI) nümayəndə heyəti "Xəzər"də....................47
*Mənsurə Əhmədova*. Ülvi Babasoy: Heç bir bədii mətni insan həyatından üstün görmürəm ....................48
II Beynəlxalq Opera Festivalının növbəti konserti Xəzər Universitetində ....................54
"Mühit və şəhər ərazisinin abadlaşdırılması" mövzusunda seminar ....................56
*Aydan Əliyeva, Nigar Ələsgərli*."Töhmətdən-töhmətə" bir nəzər ....................58
Biznes-Sənaye Klubunun (KUBIC) nümayəndələri ilə tələbələrin görüşü ....................60
Hasvet Anonim Şirkəti ilə əməkdaşlığa dair müqavilə imzalanıb....................68
*Xankişi Məmmədov*. "Qara" rəng fenomeninin leksik-etimoloji dərki və el deyimlərinin fəlsəfəsi.70
TESIAD və TESAM başqanı "Xəzər"də ....................74



1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000



**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan



**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

Career Fair – 2025 at Khazar University ....................2
Active and Exemplary Student of Khazar is in China....................6
Academic Visit of Khazar delegation to China ....................8
Khazar University and Anhui University Sign Memorandum of Understanding to Strengthen Academic Collaboration ....................8
Joint Conference of Khazar University and Shanghai International Studies University ....................11
Shanghai International Studies University Signs Mou with Khazar University ....................13
Prof. Acad. Hamlet Isakhanli at Azerbaijan Technical University's International Forum on "University-Industry Collaboration, Directions, Examples and Artificial Intelligence"....................14
"Fettuccine" Team Wins "Spaghetti Bridge 2025" Competition....................15
Khazar University Alumna Appointed to New Position at CBA....................16
Khazar University Graduate Awarded Medal of Republic of Azerbaijan....................17
Ambassador of Republic of Lithuania Visits "Khazar" ....................19
Event Held on Occasion of "23 April – World Book and Copyright Day"....................20
Presentation of Book "Historical Novel in Azerbaijani Literature"....................22
9th Azerbaijan International Psychology Conference at Khazar University....................26
"Shakespeare Day – 2025" at Khazar University....................30
Active Participation of "Khazar" Students in Student Scientific Conference....................36
Seminar titled "B. Pasternak, I. Brodsky: Two Voices, One Echo in Russian Poetry…" ....................38
News of Institute of ANAS Named after Nizami (*in Azerbaijani*)....................40
Khazar University Successfully Represented at "Education Global Exhibition (EDGEx 2025)" International Education Exhibition in Saudi Arabia....................42
Khazar University Presented at International Schools in Saudi Arabia ....................43
Delegation from Üsküdar University Visits "Khazar" ....................44
Meeting with Professors from Michigan State University and Boğaziçi University....................45
Seminar Held with Participation of Professors from Michigan and Boğaziçi Universities ....................46
Delegation from Federal University of Islamabad (FUI) at Khazar University....................47
*Mansura Ahmadova*. Ulvi Babasoy: I do not prefer literary text to any human life (*in Azerbaijani*) ....48
II International Opera Festival's Next Concert at Khazar University ....................54
Seminar on "Environment and Urban Area Improvement" ....................56
*Aydan Aliyev, Nigar Alasgarli*. A view to "From Reprimand To Reprimand" (*in Azerbaijani*) ....................58
Meeting Between Business-Industry Club (KUBIC) Representatives and Students ....................60
Cooperation Contract Signed With Hasvet Anonymous Company ....................68
*Khankishi Mammadov*. Lexicological-Ethimological Understanding of "Black" color and Philosophy of Idioms (*in Azerbaijani*)....................70
TESIAD and TESAM President at Khazar....................74
Khazar University Employee Participates in 28th Eurasian Economic Summit ....................75
Next Meeting of Scientific Council....................76

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Photo**: Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Circulation: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli
**Computer graphics:**
Gunel Akbarova

# "XƏZƏR"İN FƏAL VƏ NÜMUNƏVİ MƏZUNU ÇİNDƏ




*Tağı Məmmədov*

***Müsahibimiz Xəzər Universitetinin bakalavr pilləsini bitirmiş, hazırda Çində doktorantura təhsili alan Tağı Məmmədovdur. O, yalnız tədris uğurları ilə deyil, həm də Azərbaycanı layiqincə təmsil etməsi ilə seçilir.***

***Məhz bu uğurlar sayəsində Pekində Çinin CGTN (China Global Television Network) telekanalının müxbiri Lyu Sin Azərbaycan Respublikasının Prezidenti ilə müsahibəsi zamanı onun haqqında danışmışdır. Müsahibə aprelin 25-də həmin televiziya kanalında yayımlanıb.***

**– Sizi tanıyaq, özünüzü təqdim edin.**

Bildiyiniz kimi, bakalavr təhsilimi 2017-2021-ci illərdə bu gün də özümə doğma bildiyim Xəzər Universitetində Marketinq ixtisası üzrə tamamladıqdan sonra akademik və şəxsi inkişafımı davam etdirmək məqsədilə Çinə üz tutdum. Hazırda burada doktorantura (PhD) təhsili alıram və eyni zamanda elmi araşdırmalarla məşğulam. Çin mənim üçün yalnız peşəkar bilikləri dərinləşdirmək deyil, həm də mədəniyyətlərarası təcrübə qazanmaq baxımından dəyərli bir imkan oldu.

**– Təhsilinizin davamına və karyera yolunuza necə başladınız? Xəzər Universitetindəki bakalavr təhsili sizi necə hazırladı?**

Xəzər Universiteti dünyagörüşümün formalaşmasında, analitik düşüncə və tənqidi yanaşma bacarıqlarımın inkişafında mühüm rol oynayıb. Xəzər Universiteti beynəlxalq perspektivli bir mühit təqdim edərək, mənə öz potensialımı kəşf etməyə və böyük hədəflər qoymağa imkan verdi. Ən önəmlisi isə odur ki, Xəzər Universitetinin beynəlxalq nüfuzu sayəsində Çində magistratura və doktorantura təhsili alma prosesim daha əlverişli keçdi. Bu gün əldə etdiyim akademik uğurların təməli məhz Xəzərdə atılıb.

**– Öncədən Çin dilini bilirdinizmi?**

Çin dili ilə ilk tanışlığım Xəzər Universitetində baş verib. İkinci kursda ikinci xarici dil seçimləri arasında mən məhz Çin dilini seçdim. Onun mürəkkəb yazı sistemi və qədim mədəniyyəti marağımı cəlb etdi. 2018-ci ildə bu dili öyrənməyə başlayanda sinifdə cəmi 8 nəfər idik. Bu seçim mənim sonrakı akademik yolumu və maraqlarımı formalaşdırdı.

**– Çində magistr təhsili almaq necə bir təcrübə idi? Qarşılaşdığınız ən böyük çətinliklər nələr oldu?**

Çindəki ilk təcrübəm yay məktəbi proqramı ilə olmuşdu və bu məndə müsbət təəssürat yaratmışdı. Lakin magistr təhsili üçün qayıtdıqda daha dərin çətinliklərlə qarşılaşdım. Ən böyük çətinliklərdən biri mətbəx fərqləri və ilkin mərhələdə dil baryeri oldu. Düzdür, əvvəlcədən Çin dili üzrə nəzəri biliklərim vardı, amma gündəlik ünsiyyətdə və dərslərdə bu kifayət etmirdi. Lakin zamanla bu çətinliklər mənim inkişafım üçün katalizator rolunu oynadı. Çindəki təcrübəm mənə təkcə akademik deyil, həm də şəxsi inkişaf baxımından çox şey qazandırdı.

**– Doktorantura təhsili almağa qərar verməyinizin səbəbi nə idi? Çinin təhsil sistemində sizi ən çox nə cəlbetdi?**

Mən daim öyrənməyə meyilli bir insanam. Doktorantura təhsilinə başlamaq qərarım da bu motivasiyadan qaynaqlandı. Çin idarəetmə və innovasiya sahələrində son illərdə böyük irəliləyişlər əldə edib. Bu səbəbdən burada təhsil almaq həm şəxsi, həm də peşəkar inkişafım üçün önəmli idi. Çinin təhsil sistemində məni ən çox təsirləndirən cəhət praktiki yanaşma, intizam və elmi tədqiqatlara verdiyi yüksək önəm oldu. Burada tələbələr yalnız bilik toplayan deyil, həm də onu tətbiq edən, beynəlxalq düşünən fərdlər kimi yetişdirilir.

**– Azərbaycan və Çin təhsil sistemləri arasında hansı əsas fərqləri qeyd edə bilərsiniz?**

Xəzər Universiteti beynəlxalq standartlara yaxın bir təhsil mühiti təqdim etdiyindən, mən Çində ciddi bir fərq hiss etmədim. Hətta bəzi fənlərdə əvvəlcədən əldə etdiyim biliklər mənə üstünlük qazandırdı. Lakin ümumi baxışda Çin təhsil sistemi daha çox praktiki təcrübəyə və tədqiqat fəaliyyətinə əsaslanır. Dərslər layihələr, texnologiya və komanda işləri üzərində qurulub. Burada tələbələrarası rəqabət yüksəkdir, bu isə motivasiyaedici bir mühit yaradır. Eyni zamanda, müxtəlif ölkələrdən olan tələbələrlə qarşılıqlı təcrübə mübadiləsi beynəlxalq düşüncə tərzini inkişaf etdirir.

**– Çində Prezident İlham Əliyevlə  müsahibəsi zamanı müxbirin sizdən danışması barədə nə düşünürsünüz?**

Bu hadisə mənim üçün böyük sürpriz və qürur anı oldu. Lyu Sin xanımın Prezident İlham Əliyevlə müsahibəsi zamanı məndən bəhs etməsi mənə böyük motivasiya verdi. Həmin müsahibəni canlı izləyirdim və bir anda məndən danışdığını eşitdim – bu hissləri sözlə ifadə etmək çətindir. Lyu Sin xanımla tanışlığımız Çin iqtisadiyyatı mövzusunda keçirilən bir tədbir zamanı olmuşdu. Görüşdəki iştirakım və fəallığım onun diqqətini cəlb etmişdi. Mənim üçün bu, təkcə şəxsi uğur deyil, həm də Azərbaycan gənclərinin beynəlxalq səviyyədə tanına biləcəyinin bir göstəricisidir.

**– Çində yaşamaq və təhsil almaqla bağlı ən yaddaqalan xatirəniz hansıdır?**

Ən yaddaqalan xatirəm Mədəniyyət Günü tədbiri ilə bağlıdır. Bu tədbirlər xarici tələbələrə öz ölkələrinin mədəniyyətini tanıtmaq üçün yaradılmış çox gözəl bir platformadır. Biz azərbaycanlı tələbələr birlikdə milli mətbəximizdən yeməklər hazırlayır, musiqimizi və geyimlərimizi təqdim edirdik. Həmin tədbirdə ilk dəfə Azərbaycan yeməklərini özüm bişirdim. Bu, mənim üçün sadəcə bir tədbir deyil, həm də milli kimliyimi yaşatmaq və təbliğ etmək baxımından dəyərli bir təcrübə idi.

**– Ən böyük arzunuz və məqsədiniz nədir?**

Ən böyük arzum gələcəkdə məsuliyyətli və uğurlu bir idarəçi kimi formalaşmaqdır. Elə bir lider olmaq istəyirəm ki, təkcə şəxsi nailiyyətlərimlə deyil, həm də başqalarına ilham verməklə fərqlənim. Məqsədim Azərbaycanı beynəlxalq miqyasda innovativ və inkişaf etmiş bir ölkə kimi tanıtmaqda iştirak etməkdir. İnanıram ki, gənc nəsil olaraq biz bu missiyanı uğurla həyata keçirə bilərik və mən də bu yolda öz töhfəmi verməyə hazıram.

**– Son olaraq, Xəzər Universitetində təhsil alan gənclərə nə tövsiyə edərdiniz?**

Xəzər Universitetinin məzunu olmaq mənim üçün qürurverici bir kimlikdir. Tələbəlik dövründə çətin görünən tələblərin, əslində, bizə verilən dəyərin təzahürü olduğunu sonradan anladım. Mövcud imkanları dəyərləndirmək, çətinliklərdən çəkinməmək və yalnız dərslərlə kifayətlənməyib, əlavə bacarıqlar və təcrübə qazanmaq tələbəlik illərini daha səmərəli edəcək. Mən də tələbəlik illərində universitetin Multimedia Mərkəzində könüllü fəaliyyət göstərmişdim və bu, mənim üçün dəyərli bir təcrübə oldu. Universitet yalnız diplom əldə etmək yeri deyil, həm də şəxsiyyətin formalaşdığı bir mərhələdir – hər günü dəyərləndirmək və daim öz üzərində işləmək bu mərhələnin əsas məqsədi olmalıdır.

**Karyera və Məzunlar Mərkəzi**

# XƏZƏR UNİVERSİTETİ NÜMAYƏNDƏ HEYƏTİNİN ÇİNƏ İŞGÜZAR SƏFƏRİ

## *XƏZƏR UNİVERSİTETİ VƏ ANHUI UNİVERSİTETİ AKADEMİK ƏMƏKDAŞLIĞI GÜCLƏNDİRMƏK ÜÇÜN ANLAŞMA MEMORANDUMU İMZALADI*

## *KHAZAR UNIVERSITY AND ANHUI UNIVERSITY SIGN MEMORANDUM OF UNDERSTANDING TO STRENGTHEN ACADEMIC COLLABORATION*

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı və İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova mayın 6-7- də Çin Xalq Respublikasının Hefey şəhərində yerləşən Anhui Universitetinə rəsmi səfər ediblər.

Rəsmi proqram Anhui Universitetinin Partiya Komitəsinin katibi, Prof. Yu Baotao`nun qonaqları səmimi salamlaması ilə başladı. O, iki təhsil müəssisəsi arasında elmi və təhsil əlaqələrinin gücləndirilməsinin əhəmiyyətini vurğuladı. Çı-



*Yu Baotao, Hamlet İsaxanlı*

A Founder of Khazar and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, and the Head of the Department of English Language and Literature, Dr. Milana Abbasova, paid an official visit to Anhui University in Hefei, People's Republic of China, from May 6 to 7.

The official program commenced with a warm welcome by Prof. Yu Baotao, Secretary of the Party Committee of Anhui University, who underscored the significance of strengthening scientific and educational ties between the two

# ACADEMIC VISIT OF KHAZAR DELEGATION TO CHINA



xışında sazişin akademik mübadilə və birgə tədqiqatlar vasitəsilə regional əməkdaşlığı inkişaf etdirmək potensialını qeyd etdi.

Prof. Akad.Hamlet İsaxanlı açılış nitqi ilə çıxış edərək, Anhui Universitetinin qonaqpərvərliyinə görə təşəkkürünü bildirdi və Xəzər Universitetinin qlobal akademik dialoq və innovasiyanı təşviq etmək öhdəliyini təsdiqlədi. Proqramın bir hissəsi olaraq, Dr. Milana Abbasova Xəzər Universiteti, universitetin tədqiqat üstünlükləri və beynəlxalq əlaqələri haqqında qısa məlumat verdi.

Məhsuldar müzakirələr sessiyasından sonra iki universitet Anlaşma Memorandumunu rəsmi olaraq imzaladı. İmzalanma mərasimindən sonra qrup şəkli çəkildi və Anhui Universitetinin kampusuna tur təşkil edildi ki, bu da Xəzər Universitetinin nümayəndə heyətini qəbul edən təhsil müəssisəsinin akademik atmosferi və tədqiqat

(*Ardı səh.10-da*)

institutions. In his remarks, he emphasized the potential of the agreement to foster regional cooperation through academic exchange and collaborative research.

Prof.Acad. Hamlet Isakhanli delivered the opening remarks, expressing gratitude for Anhui University's hospitality and reaffirming Khazar University's commitment to promoting global academic dialogue and innovation. As part of the program, Dr. Milana Abbasova provided a brief overview of Khazar University, introducing its research strengths and international vision.

Following a productive session of discussions, the two universities officially signed the Memorandum of Understanding. The signing ceremony was followed by a group photo and a tour of the Anhui University campus, allowing the Khazar University delegation to gain deeper insight into the host institution's academic atmosphere and

(*To be continued page 10*)

imkanları haqqında daha dərin məlumat əldə etməyə imkan verdi.

Səfərin ikinci günündə nümayəndə heyəti Anhui Universitetinin bir sıra əsas akademik və tədqiqat bölmələri ilə, o cümlədən Süni İntellekt Məktəbi, İnteqral Sxemlər üçün Qabaqcıl Materiallar və Texnologiyaların Sənaye-Təhsil-Tədqiqat İnstitutu, Kompüter Elmləri və Texnologiyaları Məktəbi və Elektron və İnformasiya Mühəndisliyi Məktəbi ilə tanış oldu. Bu, Anhui Universitetinin qabaqcıl tədqiqat və texnoloji təşəbbüsləri ilə tanış olmaq üçün dəyərli imkan yaratdı.

Səfər vida naharı və nümayəndə heyətinin Hefeydən yola salınması ilə başa çatdı.

research capabilities.

On the second day of the visit, the delegation explored several key academic and research units at Anhui University, including the School of Artificial Intelligence, the Industry-Education-Research Institute of Advanced Materials and Technology for Integrated Circuits, the School of Computer Science and Technology, and the School of Electronic and Information Engineering. These visits provided valuable exposure to Anhui University's cutting-edge research and technological initiatives.

The visit concluded with a farewell lunch and the delegation's departure from Hefei.



## XƏZƏR UNİVERSİTETİ VƏ ŞANXAY BEYNƏLXALQ ARAŞDIRMALAR UNİVERSİTETİNİN BİRGƏ BEYNƏLXALQ KONFRANSI

Mayın 8-10-da Xəzər Universiteti və Şanxay Beynəlxalq araşdırmalar Universitetinin (ŞBAU) birgə təşkilatçılığı ilə Çinin Şanxay şəhərində Dil, Ədəbiyyat və Dilçiliyin Fəlsəfəsi üzrə 5-ci Beynəlxalq Konfrans keçirilib. Hibrid formatda baş tutan üçgünlük akademik tədbir dünyanın müxtəlif ölkələrindən tanınmış alim və tədqiqatçıları dil, ədəbiyyat və dilçiliyin qovşağında duran mühüm məsələləri müzakirə etmək üçün bir araya gətirib.

Konfransda Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin bir qrup əməkdaşı da iştirak etmişdir.

Konfransın açılış mərasimi tanınmış alimlərin nitqləri ilə başlayıb.

ŞBAU-nun Dil Elmləri İnstitutunun prorektoru Prof. Xu Kaybao beynəlxalq əməkdaşlıqların dilçilik və fəlsəfi tədqiqatların inkişafında oynadığı rolu vurğulayıb. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı çıxışında dil və ədəbiyyatın insan dərkini və mədəni kimliyinin formalaşdırmasındakı əhəmiyyətinə dair vizioner fikirlərini bölüşüb. Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova isə davamlı elmi mübadilənin vacibliyini diqqətə çatdırıb.

Konfransın ilk iki günü ərzində altı akademik sessiya keçirilib. Hər gün üç sessiyanın baş tutduğu tədbirdə həm əyani, həm də onlayn təqdimatlar təqdim olunub. Bu format tədbirin geniş auditoriyaya əlçatanlığını və beynəlxalq iştirakını təmin edib.

Konfransın əsas məruzəçiləri və dəvətli spikerləri arasında aşağıdakı alimlər yer alıb: Prof.Akad. Hamlet İsaxanlı (Xəzər Universiteti), Prof. Deçao Li (Honq Konq Politexnik Universiteti), Prof. David Maçin (Korpus Tədqiqatları və Tətbiqləri İnstitutu - SISU), Dos. Məhəmməd Əfzəl (ŞBAU), Dr. Muhammed İmran (Prins Sultan Universiteti və

*(Ardı səh.12-də)*

## JOINT CONFERENCE OF KHAZAR UNIVERSITY AND SHANGHAI INTERNATIONAL STUDIES UNIVERSITY



*Milana Abbasova, Hamlet İsaxanlı*

On May 8-10, Khazar University, in collaboration with Shanghai International Studies University (SISU), proudly inaugurated the 5th International Conference on the Philosophy of Language, Literature and Linguistics - a three-day hybrid academic event hosted in Shanghai, China. The conference has brought together distinguished scholars and researchers from across the world to explore critical issues at the intersection of language, literature and linguistics.

Conference was attended by a group of faculty members of English Language and Literature department of Khazar University.

The Opening Ceremony started with welcoming speeches from esteemed academicians.

Prof. Hu Kaibao, Assistant President of the Institute of Language Sciences at SISU, emphasized the significance of international partnerships in advan-

*(To be continued page 12)*

Xəzər Universiteti), Dr. Bəhman Əmani (İranın Elm, Tədqiqat və Texnologiya Nazirliyi).

Tədbirin üçüncü günü sosial və mədəni proqramlara həsr olunub. Bu proqram iştirakçılara qeyri-rəsmi mühitdə ünsiyyət qurmaq və yerli mədəni mühiti yaxından tanımaq imkanı yaradaraq, konfransın akademik mübadilə sərhədlərini aşan beynəlxalq ruhunu daha da dərinləşdirib.

Dil, Ədəbiyyat və Dilçiliyin Fəlsəfəsi üzrə 5-ci Beynəlxalq Konfrans Xəzər Universiteti və ŞBAU arasında mövcud olan güclü akademik tərəfdaşlığın bariz nümunəsidir.




cing linguistic and philosophical inquiry. Prof. Acad. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, addressed the audience with a visionary message about the role of language and literature in shaping human understanding and cultural identity. Dr. Milana Abbasova, Head of the Department of English Language and Literature at Khazar University, offered a heartfelt welcome and underscored the importance of sustained scholarly exchange.

The conference featured six academic sessions over the first two days, with two sessions held each day in a hybrid format - combining in-person presentations and online participation to ensure broad accessibility and international engagement.

Keynote and featured speakers included the academicians from various institutions: Prof. Acad. Hamlet Isakhanli, (Khazar University), Prof. Dechao Li (The Hong Kong Polytechnic University), Prof. David Machin (Institute of Corpus Studies and Applications, SISU), Assoc. Prof. Muhammad Afzaal (SISU), Dr. Muhammad Imran (Prince Sultan University & Khazar University), and Dr. Bahman Amani (Ministry of Science, Research, and Technology, Iran).

The third day of the event was dedicated to a social and cultural program, allowing participants to connect informally and explore the local cultural environment, deepening the international spirit of the conference beyond academic exchange.

The 5th International Conference on the Philosophy of Language, Literature and Linguistics highlights the strong academic partnership between Khazar University and SISU.

# ŞANXAY BEYNƏLXALQ ARAŞDIRMALAR UNİVERSİTETİ XƏZƏR UNİVERSİTETİ İLƏ ANLAŞMA MEMORANDUMLARI İMZALAYIB




*Afzaal Muhammad (ŞBAU Beynəlxalq Dil Arashdirmlari İnstitutu), Hamlet İsaxanlı, Hu Kaibao, Milana Abbasova*

# SHANGHAI INTERNATIONAL STUDIES UNIVERSITY SIGNS MOU WITH KHAZAR UNIVERSITY

Mayın 10-da Çinin Şanxay şəhərində yerləşən Şanxay Beynəlxalq Araşdırmalar Universiteti (ŞBAU) və Xəzər Universiteti akademik mükəmməlliyi, elmi mübadilə və peşəkar inkişafı təşviq etmək məqsədilə güclü tərəfdaşlıq qurmaq üçün Anlaşma memorandumları imzalayıb.

Tərəfdaşlığı rəsmiləşdirmək üçün iki Anlaşma Memorandumu imzalanıb: birincisi Xəzər Universitetinin təsisçisi və Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof. Akad Hamlet İsaxanlı və Şanxay Beynəlxalq Araşdırmalar Universitetinin prezidenti Prof Li Yansong tərəfindən; ikincisi isə Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasının müdiri Dr. Milana Abbasova və Şanxay Beynəlxalq Araşdırmalar Universitetinin Dilçilik Elmləri İnstitutunun rektor köməkçisi Prof Hu Kaibao tərəfindən imzalanıb. Razılaşma əsas akademik və tədqiqat sahələrində əməkdaşlıq, birgə interdissiplinar tədqiqat layihələri və nəşrlər, tədqiqat əməkdaşlığını təşviq etmək üçün müəllim və doktorantura tələbələrinin mübadiləsi, beynəlxalq konfransların, simpoziumların və seminarların birgə təşkili, ikili dərəcə və birgə rəhbərlik proqramlarının hazırlanması, qrant müraciətləri və tədqiqat maliyyələşdirmə təşəbbüsləri üzrə əməkdaşlıq, birgə tədqiqat mərkəzlərinin yaradılması üçün hərtərəfli çərçivəni əhatə edir.

Bu tərəfdaşlıq tədqiqat yönümlü əməkdaşlığa üstünlük verməklə akademik mükəmməlliyi təşviq etməyi, qlobal elmi inkişaf etdirməyi və birgə bilik və innovasiya vasitəsilə institutların potensialını gücləndirməyi hədəfləyir.

On May 10, Shanghai International Studies University (SISU), Shanghai, China, and Khazar University, Baku, Azerbaijan, signed a Memorandums of Understanding (MoU) to establish a robust partnership aimed at fostering academic excellence, research exchange, and professional development.

Two Memorandums of Understanding were signed to formalize the partnership: one signed by Prof. Acad. Hamlet Isakhanli, Founder and Chairman of the Board of Directors and Trustees of Khazar University, and Prof. Li Yansong, President of Shanghai International Studies University; the other one by Dr. Milana Abbasova, Head of the Department of English Language and Literature, Khazar University and Prof. Hu Kaibao, Assistant President, Institute of Language Science, Shanghai International Studies University.

The agreement outlines a comprehensive framework for cooperation in key academic and research areas, joint interdisciplinary research projects and publication, faculty and doctoral student exchanges to promote research collaboration, co-hosting of international conferences, symposia, and workshops, development of dual-degree and joint supervision programs, collaboration on grant applications and research funding initiatives, establishment of joint research centers.

By prioritizing research-driven collaboration, this partnership aims to foster academic excellence, advance global scholarship, and strengthen institutional capacity through shared knowledge and innovation.

## PROF.AKAD. HAMLET İSAXANLI AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİNDƏ "UNİVERSİTET-SƏNAYE ƏMƏKDAŞLIĞI: İSTİQAMƏTLƏR, NÜMUNƏLƏR VƏ SÜNİ İNTELLEKT" ADLI BEYNƏLXALQ FORUMDA

## PROF. ACAD. HAMLET ISAKHANLI AT AZERBAIJAN TECHNICAL UNIVERSITY'S INTERNATIONAL FORUM ON "UNIVERSITY-INDUSTRY COLLABORATION: DIRECTIONS, EXAMPLES AND ARTIFICIAL INTELLIGENCE"




*Hamlet İsaxanlı*

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı mayın 15-də Azərbaycan Texniki Universitetində "Universitet-Sənaye Əməkdaşlığı: İstiqamətlər, Nümunələr və Süni İntellekt" adlı Beynəlxalq Forumun açılışında "Araşdırma Unversiteti və Sənaye: Tarix və Bugün; Dünyanı dəyişdirən Zəka və Süni İntellekt" mövzusunda geniş çıxış etmiş, fikirlərini bölüşmüşdür.

Tədbir Azərbaycan Texniki Unversitetinin (ATU) ev sahibliyində Türkiyə - Azərbaycan Universiteti, Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə keçirilib. Açılışda ATU-nun rektoru Prof. Dr.Vilayət Vəliyev, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının prezidentinin Baş məsləhətçisi Fərid Vəlizadə, İzmir Yüksək Texnologiya İnstitutunun professoru Prof.Dr. Mustafa Güdən, TÜBİTAK sədr müavini Prof.Dr. Mesut Güneri və başqaları çıxış etmişdir.

The founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, delivered a comprehensive presentation on "Research University and Industry: History and Today; Intelligence and Artificial Intelligence that Change the World" at the opening of the International Forum titled "University-Industry Collaboration, Directions, Examples and Artificial Intelligence" at Azerbaijan Technical University on May 15.

The event was hosted by Azerbaijan Technical University (ATU) with the support of the Turkish-Azerbaijani University and the National Confederation of Entrepreneurs Organizations of Azerbaijan. The opening featured speeches by Prof. Dr. Vilayat Valiyev, Rector of ATU; Orkhan Mammadov, Chairman of the Board of the Small and Medium Business Development Agency of the Republic of Azerbaijan; Farid Valizadeh, Chief Advisor to the President of the National Confederation of Entrepreneurs Organizations of Azerbaijan; Prof. Dr. Mustafa Güden, Professor at Izmir Institute of High Technology; Prof. Dr. Mesut Güneri, Deputy Chairman of TÜBİTAK; and others.

## "SPAGHETTI BRIDGE 2025" YARIŞMASININ QALİBİ – "FETTUCCINE"

## FETTUCCINE TEAM WINS "SPAGHETTI BRIDGE 2025" "COMPETITION"




*Əminə Əliyeva, Səriyə İsmayılova, Vəfa Aslanova, Ayan Həsənzadə, Leyla Yusifova*

Mayın 15-də Xəzər Universitetində ənənəvi "Spaghetti Bridge 2025" tələbə yaradıcılıq və texniki müsabiqəsi keçirildi. Yarışma çərçivəsində iştirakçı komandalar yalnız spagetti və yapışqan materiallardan istifadə etməklə daşıyıcı körpü modelləri hazırladılar və bu modellər xüsusi test mexanizmləri ilə sınaqdan keçirildi.

Tədbirdə SOCAR Downstream şirkətinin əməkdaşları qonaq və münsif qismində iştirak etdilər.

Münsiflər heyəti – Elvin Aslanov (SOCAR Downstream Management Şirkətinin mütəxəssisi), Yusif Sadiqov (Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin müəllimi) və Vəfa Aslanova (Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin dekan müavini) tərəfindən qiymətləndirmə meyarları kimi körpülərin daşıya bildiyi maksimal yük, konstruktiv sabitlik, estetik görünüş və təqdimat bacarığı əsas götürüldü.

Münsiflər heyətinin qərarına əsasən I yer "Fettuccine" (Əminə Əliyeva, Səriyə İsmayılova, Ayan Həsənzadə, Leyla Yusifova), II yer "Civil Squad" (Jalə Əsgərova, Səriyyə Abışova, İlhamə Salmanova, Firidun Paşalı) və III yer "Bridghetti" İlayda Murtazayeva, Nigar Kazımzadə, Baba Aslanov, Binnət Binnətov, Elmir Nəbiyev) komandalarına verildi.

Yarışmanın qaliblərinə pul mukafatı, sertifikat və SOCAR Downstream Şirkəti tərəfindən hədiyyələr, digər iştirakçılara isə təşəkkürnamələr təqdim olundu.

On May 15, the traditional "Spaghetti Bridge 2025" student creativity and technical competition was held at Khazar University. The main objective of the event was to reveal students' engineering knowledge, analytical thinking and creative capabilities, as well as to develop their teamwork skills.

Within the framework of the competition, participating teams prepared load-bearing bridge models using only spaghetti and adhesive materials, and these models were tested with special testing mechanisms.

SOCAR Downstream company employees participated in the event as guests and judges.

The jury panel - Elvin Aslanov (SOCAR Downstream Management Company specialist), Yusif Sadiqov (Khazar University School of Science and Engineering lecturer) and Vafa Aslanova (Khazar University School of Science and Engineering deputy dean) - used the maximum load the bridges could carry, structural stability, aesthetic appearance and presentation skills as evaluation criteria.

Based on the jury panel's decision, first place was awarded to "Fettuccine" (Amine Aliyeva, Sariya Ismayilova, Ayan Hasanzade, Leyla Yusifova), second place to "Civil Squad" (Jale Asgarova, Sariyya Abishova, Ilhame Salmanova, Firidun Pashali) and third place to "Bridghetti" (İlayda Murtazayeva, Nigar Kazimzade, Baba Aslanov, Binnat Binnatov, Elmir Nabiyev) teams.

The competition winners were presented with cash prizes, certificates and gifts from SOCAR Downstream Company, while other participants received certificates of appreciation.



## "XƏZƏR"İN MƏZUNU AMB-DƏ YENİ VƏZİFƏYƏ TƏYİN OLUNUB

## KHAZAR UNIVERSITY ALUMNA APPOINTED TO NEW POSITION AT CBA

Xəzər Universitetinin məzunu Əlili Rəxşəndə Mübariz qızı Azərbaycan Mərkəzi Bankının (AMB) Maliyyə bazarlarında əməliyyatlar departamentinin direktoru təyin edilib. O, 2014-ci ildə Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin Maliyyə ixtisası üzrə bakalavr pilləsini bitirib.

Rəxşəndə Əlili yeni təyinata qədər AMB-də Pul əməliyyatları şöbəsinin müdiri olub

Bəzi saytlar bu barədə xəbər yayımlayıb:

Khazar University alumna Rakhshanda Alili Mübariz gizi, has been appointed Director of the Financial Markets Operations Department at the Central Bank of Azerbaijan (CBA). She graduated in 2014 with a bachelor's degree in finance from the School of Economics and Management at Khazar University.

Prior to her new appointment, Rakhshanda Alili served as the Head of the Monetary Operations Division at the CBA. Several news outlets have reported on this development.

*https://banker.az/az%C9%99rbaycan-m%C9%99rk%C9%99zi-bankinda-yeni-t%C9%99yinat-3/*
*https://pravda.az/news/181940*

## PROF.AKAD. HAMLET İSAXANLI BAKI MUSİQİ AKADEMİYASI NƏZDİNDƏ OPERA STUDİYASINDA BƏSTƏKAR TAHİR ƏKBƏRİN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ "NOSTALJİ AXŞAM" ADLI KONSERTDƏ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı 2025-ci il mayın 19-də Bakı Musiqi Akademiyası nəzdində Opera Studiyasında keçirilən, bəstəkar Tahir Əkbərin xatirəsinə həsr olunmuş "Nostalji Axşam" adlı konsertdə iştirak edib. Konsertdə tanınmış musiqiçilər xalq artistləri Azər Zeynalov, Gülyanaq Məmmədova və əməkdar artist Firuzə İbadova Tahir Əkbərin Hamlet İsaxanlının sözlərinə bəstələdiyi dörd mahnını ifa ediblər.

## PROF.ACAD. HAMLET ISAKHANLI AT "NOSTALGIA EVENING" CONCERT DEDICATED TO COMPOSER TAHIR AKBAR'S MEMORY AT OPERA STUDIO OF BAKU MUSIC ACADEMY

The founder of Khazar University and Chairman of the Board of Directors and Trustees Prof.Acad. Hamlet Isakhanli participated in the "Nostalgia Evening" concert dedicated to the memory of composer Tahir Akbar, held on May 19, 2025 at the Opera Studio of Baku Music Academy. During the concert, renowned musicians People's Artists Azer Zeynalov, Gulyanag Mammadova and Honored Artist Firuza Ibadova performed four songs composed by Tahir Akbar to lyrics by Hamlet Isakhanli.





*Aygül İsayeva*

## "XƏZƏR"İN MƏZUNU "AZƏRBAYCAN RESPUBLİKASININ MEDALI" İLƏ TƏLTİF OLUNUB

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin Beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə 2006-cı il məzunu Aygül İsayeva Gürcüstanda yaşayan azərbaycanlı icması arasında göstərdiyi fəallığa və milli-mədəni dəyərlərin təşviqinə verdiyi töhfələrə görə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən "Diaspor fəaliyyətində xidmətə görə" "Azərbaycan Respublikasının Medalı" ilə təltif olunub.

Bu mükafat Aygül İsayevanın xaricdə yaşayan azərbaycanlıların birliyi, vətənə bağlılığı və milli mənsubiyyətinin gücləndirilməsi istiqamətində göstərdiyi ardıcıl və təsirli fəaliyyətinin nəticəsi kimi qiymətləndirilməlidir. Onun icmalararası dialoq, mədəniyyətlərarası münasibətlərin inkişafı və Azərbaycanın milli irsinin beynəlxalq müstəvidə təbliği sahəsindəki fəaliyyəti yüksək təqdir olunmuşdur.

Xəzər Universiteti olaraq məzunumuz Aygül İsayevanı bu əlamətdar nailiyyəti münasibətilə təbrik edir, ona gələcək fəaliyyətində uğurlar arzu edirik.

## KHAZAR UNIVERSITY GRADUATE AWARDED MEDAL OF REPUBLIC OF AZERBAIJAN

Aygul Isayeva, a 2006 graduate of Khazar University's School of Economics and Management with a specialization in International Economic Relations, has been awarded the Medal of the Republic of Azerbaijan "For Service in Diaspora Activities" by the State Committee of the Republic of Azerbaijan on Work with Diaspora for her active involvement among the Azerbaijani community living in Georgia and her contributions to promoting national and cultural values.

This award should be regarded as a result of Aygul Isayeva's consistent and effective activities aimed at strengthening the unity of Azerbaijanis living abroad, their loyalty to the homeland, and their national identity. Her work in intercommunity dialogue, development of intercultural relations, and promotion of Azerbaijan's national heritage on the international level has been highly appreciated.

As Khazar University, we congratulate our graduate Aygul Isayeva on this significant achievement and wish her success in her future endeavors.

## TƏLƏBƏLƏR "TƏMİZ ŞƏHƏR" ASC-NİN TƏSƏRRÜFAT SAHƏLƏRİNDƏ



Kimya və kimya mühəndisliyi departamentinin Kimya mühəndisliyi ixtisası üzrə təhsil alan 2-ci kurs tələbələri aprelin 11-də "Təmiz Şəhər" ASC-nin təsərrüfat sahələrində ekskursiyada olublar. Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodunda, Balaxanı Sənaye Parkı və Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda tələbələrə tullantıların çeşidlənməsi və zərərsizləşdirilməsi ilə bağlı ətraflı məlumat verilib.

Tullantıların çeşidlənməsi, yandırılması və təkrar emalı prosesini əyani şəkildə müşahidə edən tələbələrə bildirilib ki, Bakı şəhərində əmələ gələn bərk məişət tullantıları "Təmiz Şəhər" ASC-nin təsərrüfat sahələrində müasir üsullarla idarə edilir. Təsərrüfat sahələrində fəaliyyətin daha da səmərəli olması üçün tullantıların evlərdə ilkin çeşidlənərək, tullantı qutularına atılmasının üstünlüklərindən danışılıb və tələbələri maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparılıb.

## STUDENTS VISIT "TEMIZ SHAHAR" JSC'S OPERATIONAL FACILITIES

On April 11, second-year students of the Chemical Engineering program at the Department of Chemistry and Chemical Engineering visited the operational facilities of "Temiz Shahar" JSC. During the excursion, students were informed in detail about the processes of waste sorting and neutralization at the Balakhani Solid Household Waste Sorting Plant, Balakhani Industrial Park, and the Baku Solid Household Waste Incineration Plant.

While observing the processes of sorting, incinerating, and recycling waste on-site, students were told that solid household waste generated in Baku is managed using modern methods at the operational facilities of "Temiz Shahar" JSC. The advantages of pre-sorting waste at home before placing it into bins were discussed, and an exchange of ideas took place around questions that interested the students.

## LİTVA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ "XƏZƏR"DƏ

## AMBASSADOR OF REPUBLIC OF LITHUANIA VISITS "KHAZAR"

Aprelin 22-də Litva Respublikasının Azərbaycandakı səfiri və səfirliyin əməkdaşı Xəzər Universitetinə səfər ediblər.

Görüş Xəzər Universitetinin rektor vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev, departament müdirləri və Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşlarının iştirakı ilə keçib.



*Kęstutis Vaškelevičius*

Görüş zamanı Litva Respublikasının Azərbaycandakı səfiri Kęstutis Vaškelevičius və səfirliyin müşaviri, missiya rəhbərinin müavini Viktoras Dagilis ilə Xəzər Universitetinin nümayəndələri arasında tərəfdaşlıq və əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olunmuş, növbəti addımlarla bağlı fikir mübadiləsi aparılmışdır. Bundan əlavə, Xəzər Universiteti ilə Litva universitetləri arasında akademik mübadilə, birgə tədqiqat layihələri və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq imkanları nəzərdən keçirilmişdir.

Görüşün sonunda hədiyyələr təqdim edilib.

On April 22, the Ambassador of the Republic of Lithuania to Azerbaijan and an embassy staff member paid a visit to Khazar University.

The meeting was held with the participation of Prof. Muhammad Nuriyev, Acting Rector of Khazar University, department heads, and staff from the International Relations Department.

During the meeting, Ambassador Kęstutis Vaškelevičius of the Republic of Lithuania to Azerbaijan and Embassy Counselor, Deputy Head of Mission Viktoras Dagilis discussed matters of strengthening partnership and cooperation with representatives of Khazar University, and exchanged views on next steps. Additionally, opportunities for academic exchange between Khazar University and Lithuanian universities, joint research projects, and collaboration in areas of mutual interest were reviewed. At the conclusion of the meeting, gifts were presented.



## "23 APREL-ÜMUMDÜNYA KİTAB VƏ MÜƏLLİFLİK HÜQUQU GÜNÜ" MÜNASİBƏTİLƏ TƏDBİR



*Aytac Misgərli*



Aprelin 23-də Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzinin təşkilatçılığı ilə "23 Aprel-Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" münasibətilə tədbir keçirildi.

Tədbiri giriş sözü ilə Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli açaraq, bu günün tarixi, yaranması, əhəmiyyəti haqqında məlumat verdi. Qeyd etdi ki, bu barədə qərar 1995-ci ildə Parisdə UNESCO-nun Baş konfransında qəbul edilib. 1996-cı ildən etibarən isə bu əlamətdar gün bütün dünyada qeyd olunur.

Tədbirdə tələbələr və kitabxana əməkdaşlarının iştirakı ilə kitabın yaranma tarixi, keçdiyi yol, kitabın müasir dövrdə vacibliyi, xususən tələbələrin həyatında rolu haqqında geniş müzakirə aparıldı.



## EVENT HELD ON OCCASION OF "23 APRIL – WORLD BOOK AND COPYRIGHT DAY"

On April 23, Khazar University Library and Information Center held an event dedicated to "23 April – World Book and Copyright Day."

The event was opened by the Deputy Director of the Library and Information Center, Aytaj Misgarli, who



provided information about the history, origin, and significance of this day. She noted that the decision regarding this celebration was adopted at the UNESCO General Conference held in Paris in 1995. Since 1996, this remarkable day has been observed worldwide.

During the event, students and library staff engaged in a broad discussion about the history of the book, its development over time, the importance of books in the modern era, and particularly their role in the lives of students.

## DOS. TELMAN NÜSRƏTOĞLUNUN DAİMİ ŞƏRHÇİSİ OLDUĞU “*HƏDƏF*” ANALİTİK PROQRAMININ NÖVBƏTİ XÜSUSİ BURAXILIŞI

## ANOTHER SPECIAL EDITION OF ANALYTICAL PROGRAM “*TARGET*” FEATURING ASSOCIATE PROFESSOR TELMAN NUSRATOGHLU

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlunun daimi şərhçi kimi çıxış etdiyi Azərbaycan Dövlət Televizyasında “*Hədəf*” analitik proqramının növbəti xüsusi buraxılışı aprelin 24-də yayımlanıb.

Proqramda departament müdiri qədim İpək Yolunun tarixi, tarixdən günümüzə Çin-Azərbaycan münasibətlərinin müxtəlif aspektləri ilə bağlı mülahizələrini geniş şəkildə tamaşaçılarla paylaşmışdır.

The next special edition of the analytical program “*Target*,” where Head of the Department of History and Archaeology at Khazar University, Associate Professor Telman Nusratoghlu, regularly appears as a commentator, was broadcast on Azerbaijan State Television on April 24.

In the program, the department head shared his extensive insights with the audience on the historical Silk Road, as well as various aspects of China-Azerbaijan relations from a historical perspective to the present day. Link to the broadcast:

***https://www.facebook.com/share/v/16G6C8AVkS/***

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ *BAKU TV*-DƏ

## HEAD OF THE DEPARTMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY ON *BAKU TV*

Aprelin 25-də Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev *Baku TV* internet televiziyasının “Yeni bir səhər” proqramında qonaq olmuşdur. Dos. Vəliyev proqramda Çinlə əməkdaşlığın Azərbaycan üçün strateji əhəmiyyəti və gələcəkdə bu əlaqələrin ölkəmizə gətirəcəyi imkanlar barədə fikirlərini bölüşmüşdür.

On April 25, Associate Professor Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy at Khazar University, was a guest on the *Baku TV* online television program “A New Morning.” During the program, Assoc. Prof. Valiyev shared his thoughts on the strategic importance of cooperation with China for Azerbaijan and the opportunities this partnership may bring to our country in the future.

*Link: Ukrayna üçün kritik an | Çinlə əməkdaşlığın Bakı üçün önəmi | Qəzzada son durum - YENİ BİR SƏHƏR*

## DEPARTAMENT MÜDİRİNİN MƏQALƏSİ *FÜYUZAT.AZ*- DA

## AN ARTICLE BY HEAD OF DEPARTMENT IS IN *FUYUZAT.AZ*

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin “Din və siyasət" adlı məqaləsi *Füyuzat.az*-da dərc edilmişdir.

Dos. Vəliyev məqalədə Roma Papasının dəfni fonunda dinin Qərbdə və dünyada ictimai-siyasi səhnəyə yenidən qayıtması, sekulyarizmin əvvəlki təsirini itirməsi və bu prosesin Azərbaycanda da artan maraqla müşahidə edilməsi haqqında yazmışdır.

Məqaləyə keçid: *Din və siyasət - Füyuzat Jurnalı*

An article by Assoc. Prof. Orkhan Valiyev, Head of Political Science and Philosophy Department at Khazar University, titled “Religion and politics”, has been published in *Fuyuzat.az*. Assoc. Prof. Valiyev wrote in the article about the return of religion to the socio-political scene in the West and the world against the backdrop of the funeral of the Pope of Rome, the loss of secularism's previous influence, and the fact that this process is being observed with increasing interest in Azerbaijan. Link to the article: *Din və siyasət - Füyuzat Jurnalı*



## "DƏSTƏK DİZAYNI" LAYİHƏSİ İLƏ ƏLAQƏDAR GÖRÜŞ

Aprelin 23-də "Greenwood Interior" şirkətinin rəhbəri Fuad Nəcəfov "Dəstək Dizaynı" layihəsi ilə əlaqədar Memarlıq və dizayn departamentinin "Dizayn" ixtisasında təhsil alan 3-cü kurs tələbələri ilə Xəzər Universitetində görüşmüş və məsləhətlərini vermişdir.

## MEETING RELATING "SUPPORT DESIGN" PROJECT

On April 23, Fuad Najafov, head of the "Greenwood Interior" company, met with third-year students majoring in Design at Khazar University's Department of Architecture and Design within the framework of the "Support Design" project and shared his advice with them.

## "AZERBAYCAN EDEBİYATINDA TARİHİ ROMAN" KİTABININ TƏQDİMATI

## PRESENTATION OF BOOK "HISTORICAL NOVEL IN AZERBAIJANI LITERATURE"



*Könül Qulusoy*



Aprelin 24-də Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə Kafkas Universitetinin (Türkiyə, Kars) müəllimi Dr. Könül Qulusoyun Türkiyədə çap olunmuş "Azerbaycan edebiyatında tarihi roman" kitabının təqdimatı keçirildi. Tədbirdə Dillər və ədəbiyyatlar departamentinin əməkdaşları, filologiya, tarix müəllimliyi ixtisaslarının tələbələri, AMEA Ədəbiyyat İnstitutunun professoru Bədirxan. Əhmədli, Folklor İnstitundan Əli Şamil, görkəmli yazıçı, ədəbiyyatşünas Əzizə Cəfərzadənin oğlu Turan İbrahimov və digər universitetlərdən gələn qonaqlar iştirak edirdilər.

On April 24, the Department of Languages and Literatures at Khazar University hosted the presentation of the book "Historical Novel in Azerbaijani Literature", authored by Dr. Konul Gulusoy, a faculty member at Kafkas University (Kars, Türkiye), and published in Türkiye. The event brought together faculty members of the Department of Languages and Literatures, students of philology and history education, Professor B. Ahmadov from the Institute of Literature of ANAS, Ali Shamil from the Institute of Folklore, Turan Ibrahimov - son of the prominent writer and literary scholar Aziza Jafarzade- as well as guests from other universities.

Tədbiri Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova açaraq, kitabını filologiya və tarix ixtisaslarının tələbələri üçün əhəmiyyətli olduğumu qeyd etdi. Dr. Könül Qulusoy apardığı geniş tədqiqatın nəticəsi olan kitabının hansı zərurətdən yazılması haqqında fikirlərini bildirərək, məzmunu və fəsilləri haqqında geniş məlumat verdi. Sonra Prof. Bədirxan Əhmədli, Turan İbrahimov, Dos. Zivər Hüseynli Baylan və digər qonaqlar sözügedən kitabın Azərbaycanda və Türkiyədə faydalı olacağını qeyd etdilər.

Prof. Bədirxan Əhmədli özünün üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi" kitabını Kafkas Universitetinə hədiyyə göndərmişdir. Sonda müəllif Dr. Könül Qulusoy "Azerbaycan edebiyatında tarihi roman" kitabını Xəzər Universitetinin kitabxanasına hədiyyə etdi.


*Bədirxan Əhmədli*


*Dilbər Zeynalova, Turan İbrahimov*

The head of the Department of Languages and Literatures, Associate Professor Dilbar Zeynalova, opened the event, emphasizing the significance of the book for students of philology and history. Dr. Konul Gulusoy spoke about the necessity that led her to write this work, which is the result of extensive research, and provided detailed information on the book's content and chapters. Following her speech, Professor Badirkhan Ahmadov, Turan Ibrahimov, Associate Professor Ziver Huseynli Baylan, and other guests noted that the book would be beneficial both in Azerbaijan and Türkiye.

Prof. Badirkhan Ahmadli gifted his three-volumed "History of Azerbaijani Literature" book to the Khazar. At the end of the event, the author Dr. Konul Gulusoy donated a copy of "Historical Novel in Azerbaijani Literature" to the Khazar University library.



# TƏLƏBƏLƏR MÜTƏXƏSSİS DƏRSİNDƏ

# STUDENTS ATTEND A SPECIALIST LECTURE

Aprelin 24-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin II kurs Tarix və coğrafiya müəllimliyi ixtisaslarının tələbələri Tarix və arxeologiya departamentinin koordinatoru Dr. Söhrab Mustafayevin və həmin departamentin müəllimi, arxeoloq Orxan Zamanovun təşkilatçılığı ilə AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, arxeoloq Dr. Pərviz Qasımovun qədim sivilizasiyalar ilə bağlı problemə həsr olunmuş Etruskların mənşəyi barədə mühazirəsində iştirak etdilər.

Mühazirəçi Roma (latın) sivilizasiyasının formalaşmasında yunanlardan heç də geri qalmayan etrusk mədəni təsirinin oynadığı mühüm roldan söz açdı, tarixi Etruriyanın şəhər-dövlətlərinin siyasi-ictimai quruluşu, iqtisadi modeli, texniki, memarlıq, elmi nailiyyətləri, təsviri incəsənəti, ənənələri, dini görüşləri barədə məlumat verdi.

Mühazirədə etruskların etnogenezi barədə tarixi və müasir konsepsiyaları məsələsinə xüsusi olaraq toxunuldu. Bildirildi ki, arxeoloji tədqiqatların yekunlarına görə, etrusklar Cənubi Avropanın və həmçinin, Apennin yarımadasının Neolit dövrü mədəniyyətlərinin genetik davamı idi. Etrusk mədəniyyəti, yunan mədəniyyəti kimi Aralıq dənizi mədəniyyətləri (Anadolu, Levant, Qədim Misir, Krit-Miken) arasında dayanmadan qarşılıqlı təsir nəticəsində formalaşmışdı.

Etruskların dili aqqlütinativ olsa da, tam deşifrə edilməyib. Avropa akademik elmində arxeoloji və arxeogenetik tədqiqatların nəticələrini nəzərə alaraq belə ehtimal edilir ki, etrusk dili itmiş hər hansı paleo-

Maraqla qarşılanan mühazirənin sonunda geniş diskussiya aparılmışdır. Tələbələrlə xatirə fotosu çəkdirilmiş və gələcəkdə bənzər dərslərin keçirilməsi arzu edilmişdir.

On April 24, second-year students majoring in History and Geography Teaching at the School of Humanities, Education and Social Sciences of Khazar University attended a lecture on the origin of the Etruscans, dedicated to issues related to ancient civilizations. The event was organized by Dr. Sohrab Mustafayev, coordinator of the Department of History and Archaeology, and archaeologist Orkhan Zamanov, a lecturer of the same department. The lecture was delivered by Dr. Parviz Gasimov, a leading researcher at the Institute of Archaeology and Anthropology of ANAS.

The lecturer spoke about the significant influence of Etruscan culture—which was no less impactful than that of the Greeks—on the formation of Roman (Latin) civilization. He provided information about the political and social structure, economic model, technical and architectural achievements, visual arts, traditions, and religious beliefs of the city-states of historical Etruria.

The lecture placed particular emphasis on historical and modern concepts regarding the ethnogenesis of the Etruscans. It was noted that according to the results of archaeological research, the Etruscans were a genetic continuation of the Neolithic cultures of Southern Europe and the Apennine Peninsula. Like Greek culture, Etruscan culture was formed through continuous mutual interaction among the cultures of the Mediterranean region (Anatolia, the Levant, Ancient Egypt, and the Crete-Mycenaean world).

Although the Etruscan language is agglutinative, it has not been fully deciphered. Based on the results of archaeological and archaeogenetic studies, European academic scholarship assumes that the Etruscan language may have belonged to a now-lost paleolanguage group.

At the end of the lecture, which drew great interest, an engaging discussion was held. A commemorative photo was taken with the students, and the wish was expressed to organize similar classes in the future.

## DEPARTAMENT MÜDİRİNİN MƏQALƏSİ “*FÜYUZAT*” JURNALINDA

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri dos. Orxan Vəliyevin "Türk Dövlətləri Təşkilatı və milli birlik" adlı məqaləsi “*Füyuzat*” Jurnalında dərc edilmişdir. (№1/(141), 2024).

Qeyd edək ki, 1906-1907-ci illərdə böyük Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadənin redaktorluğu və Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə nəşr olunan “Füyuzat” jurnalı mətbuat tariximizdə özünəməxsus yer tutur.

## ARTICLE BY HEAD OF THE DEPARTMENT IN *FUYUZAT* JOURNAL

An article by Assoc. Prof. Orkhan Valiyev, Head of Political Science and Philosophy Department at Khazar University, titled “Organization of Turkic States and National Unity”, has been published in *Fuyuzat* Journal (Füyuzat Dərgisi). ((№1/(141), 2024), p. 6-16) It is important to note that the journal 'Fuyuzat,' published between 1906 and 1907 under the editorship of the great Azerbaijani thinker Ali bey Huseynzade and with the financial support of Haji Zeynalabdin Taghiyev, holds a distinguished place in the history of our press.

## PSİXOLOGİYA DEPARTAMENTİ ƏMƏKDAŞLARININ MƏQALƏSİ “*AZƏRBAYCAN MƏKTƏBİ*” JURNALINDA

Xəzər Universiteti Psixologiya departamentinin əməkdaşları Mələk Kərimova və Mirsadiq Muxtarovun “Birinci kurs universitet tələbələrinin psixoloji simptom göstəricilərinin gender əsaslı təhlili” adlı məqaləsi Ali Attestasiya Komissiyasının siyahısında olan “*Azərbaycan Məktəbi*” jurnalında dərc olunmuşdur (№ 1, 2025). Məqalədə universitetə yeni qəbul olunan tələbələrin psixoloji simptom göstəriciləri araşdırılmışdır. Araşdırma 2024-2025-ci tədris ili ərzində Xəzər Universitetində təhsil alan və təsadüfi seçilmiş 204 tələbə ilə aparılıb. Tədqiqatda "Qısa Simptom Şkalası" istifadə olunmuşdur. Birinci kurs tələbələrinin "Qısa Simptom Şkalası"nin üç əsas göstəricisi (Narahatlıq Ciddiyəti İndeksi, Simptomların Ümumi İndeksi, Simptom-Narahatlıq İndeksi) və doqquz alt şkala (somatizasiya, obsesif-kompulsiv, insanlarla münasibətə həssaslıq, depressiya, təşviş, aqressiya, fobik təşviş, paranoid düşüncələr və psixotik simptomlar) üzrə statistik təhlillər aparılmışdır. Araşdırmadan əldə olunan nəticələr məqalədə əksini tapmışdır.




## PSYCHOLOGY DEPARTMENT STAFF’S ARTICLE IN “*AZƏRBAYCAN MƏKTƏBİ*” JOURNAL

An article by Khazar University Psychology Department members, Malak Karimova and Mirsadiq Mukhtarov, has been published in the journal “*Azərbaycan Məktəbi*” (“Azerbaijani School”) (Issue No. 1, 2025), which is included in the list approved by the Higher Attestation Commission.

The article delves into the psychological landscape of students embarking on their university journey. Conducted during the 2024–2025 academic year at Khazar University, the research draws on data from 204 randomly selected first-year students. Utilizing the well-known “Brief Symptom Inventory”, the study presents a detailed statistical analysis across three core indices-Global Severity Index, Positive Symptom Total, and Positive Symptom Distress Index-alongside nine subscales: somatization, obsessive-compulsive tendencies, interpersonal sensitivity, depression, anxiety, hostility, phobic anxiety, paranoid ideation, and psychoticism.

The results of the research are reflected in the article.

*https://as-journal.edu.az/az%C6%8Frbaycan-m%C6%8Fkt%C6%8Fbi-2025-1*

## XƏZƏR UNİVERSİTETİNDƏ AZƏRBAYCAN IX BEYNƏLXALQ PSİXOLOGİYA KONFRANSI: ELM, TƏCRÜBƏ VƏ ƏMƏKDAŞLIQ BİR ARADA



*Hamlet İsaxanlı*



## 9TH AZERBAIJAN INTERNATIONAL PSYCHOLOGY CONFERENCE AT KHAZAR UNIVERSITY: SCIENCE, PRACTICE, AND COLLABORATION UNITED

Aprelin 25-26-da Xəzər Universitetində Psixologiya Departamenti və Xəzər Psixoloji Xidmət Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan IX Beynəlxalq Psixologiya Konfransı keçirildi. Konfrans elm adamlarını və praktikləri bir araya gətirərək, psixologiyanın aktual mövzularını müzakirə etməyə imkan yaratdı.

Konfrans Xəzər Universiteti Kamera orkestrinin ifası ilə açıldı. Ardınca Xəzər Multimedia Mərkəzinin hazırladığı, əvvəlki illərin konfranslarını əks etdirən videomaterial nümayiş etdirildi.

On April 25–26, the 9th Azerbaijan International Psychology Conference was held at Khazar University, organized by the Department of Psychology and the Khazar Psychological Service Center. The event brought together researchers and practitioners, offering a platform to discuss current topics in the field of psychology.

The conference opened with a performance by the Khazar University Chamber Orchestra, followed by a video presentation prepared by the Khazar Multimedia Center showcasing highlights from previous years' conferences.





*Mələk Kərimova*

Açılış nitqi ilə çıxış edən Psixologiya departamentinin koordinatoru Mələk Kərimova departamentin və Xəzər Psixoloji Xidmət Mərkəzinin fəaliyyəti barədə məlumat verdi və sözü Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad, Hamlet İsaxanlıya verdi. H. İsaxanlı konfransın artıq bir ənənəyə çevrildiyini vurğuladı və psixologiyanın elm sahəsi kimi inkişafını qeyd edərək, tədbirə uğurlar arzuladı.

Konfransda Türkiyə və İrandan dəvət olunmuş aparıcı tədqiqatçılar əsas spiker qismində iştirak et-



*Ahmet Özaslan*

dilər. Mələk Kərimova qonaqlar haqqında ətraflı məlumat verərək bildirdi ki, tədbirə Türkiyədə psixologiya sahəsində ilk 10-luqda yer alan və 6-cı sırada göstərilən tədqiqatçı Dos. Dr. Murat Yıldırım,

*(Ardı səh.28-də)*

In her opening speech, Melek Karimova, Coordinator of the Department of Psychology, introduced the department's activities and those of the Khazar Psychological Service Center, then passed the floor to Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees. In his address, Prof. Isakhanli emphasized the conference's establishment as a tradition and expressed his wishes for its continued success, highlighting the significance of psychology as a scientific discipline.

The conference welcomed leading researchers from Türkiye and Iran as keynote speakers. Melek Karimova provided detailed information about the guests, noting that the list included Assoc. Prof. Dr. Murat Yıldırım-ranked among the top ten psychology researchers in Türkiye-Prof. Dr. Ebru Şalcıoğlu, head of the Center for Behavioral Research and The-




*Shahram Vahedi*

rapies (DATEM), Prof. Dr. Shahram Vahedi of Tabriz University, Assoc. Prof. Dr. Ahmet Özaslan from Gazi University's Faculty of Medicine (Child and Adolescent Psychiatry), and Assoc. Prof. Dr. Sevginar Vatan from the Department of Psychology at Hacettepe University.

The two-day event opened with Assoc. Prof. Dr. Murat Yıldırım's presentation titled "Positive Psychology: Development, Evaluation, and Future Perspectives." This was followed by Prof. Dr. Shahram Vahedi's presentation on "Positive Cognitive Behavioral Therapy: Overcoming Academic Difficulties and the Path to Success." Assoc. Prof. Dr. Ahmet Özaslan then shared his experience in a session titled "Working with

*(To be continued page 28)*

Davranış Araşdırmaları və Terapiyaları Mərkəzinin (DATEM) rəhbəri Prof. Dr. Ebru Şalcıoğlu, Təbriz Universitetinin professoru Dr. Shahram Vahedi, Gazi Universitetinin Tibb Fakültəsinin Uşaq və Yeniyetmə Psixiatriya üzrə mütəxəssisi Dos. Dr. Ahmet Özaslan və Hacettepe Universitetinin psixologiya kafedrasının müəllimi Dos. Dr. Sevginar Vatan dəvət olunmuşdur.

İki gün davam edən konfrans Dos. Dr. Murat Yıldırımın "Pozitiv Psixologiya: İnkişafı, Dəyərləndirməsi və Gələcək Perspektivləri" adlı çıxışı ilə açıldı. Sonra Prof. Dr. Shahram Vahedi "Pozitiv Koqnitiv Davranış Terapiyası: Akademik Çətinliklərin Aradan Qaldırılması və Uğura Gedən Yol" mövzusunda təqdimatla çıxış etdi. Ardınca Dos. Dr. Ahmet Özaslan "DƏHP-li Uşaqlarla və Onların Ailələri ilə İş: Davranış İdarəetməsi və Valideyn Təlimi" mövzusunda öz təcrübəsini bölüşdü. Səhər sessiyası Dos. Dr. Sevginar Vatanın "Psixoterapiyada Emosiyaların Rolu və Önəmi" mövzusundakı çıxışı ilə başa çatdı.



*Sevginar Vatan*

Nahar fasiləsindən sonra konfrans Prof. Dr. Ebru Şalcıoğlunun "Keys Formulasiyası və Terapiya Planlaması: Koqnitiv Davranış Terapiyası Perspektivindən Yanaşma" mövzusundakı təqdimatı ilə davam etdi. Sonra Prof. Şalcıoğlunun rəhbərliyi ilə "Real Keyslər Üzərindən Konseptuallaşdırma və Terapiya Planlaşdırılmasının Nümayişi" adlı praktiki seminar keçirildi.

Konfransın ikinci günü Prof. Dr. Shahram Vahedinin "Akademik Stresi Azaltmaq və Uğur Qazanmaq üçün Pozitiv KDT ilə Praktik Metodların Tətbiqi" adlı interaktiv təlimi ilə başladı. Ardınca Dos. Dr. Murat Yıldırım "Stress və Təşviqi Azaltmaq üçün Mindfulness Strategiyaları" mövzusunda çıxış etdi.

Children with ADHD and Their Families: Behavioral Management and Parent Training." The morning session concluded with Assoc. Prof. Dr. Sevginar Vatan's presentation on "The Role and Importance of Emotions in Psychotherapy."

After a lunch break, the afternoon program continued with Prof. Dr. Ebru Şalcıoğlu's session on "Case Formulation and Therapy Planning: A CBT Approach," followed by a practical workshop she led, titled "Demonstrating Conceptualization and Therapy Planning Using Real Cases."



*Murat Yıldırım*

The second day began with an interactive training session led by Prof. Dr. Shahram Vahedi on "Applying Practical Methods of Positive CBT to Reduce Academic Stress and Achieve Success." Assoc. Prof. Dr. Murat Yıldırım then presented on "Mindfulness Stra-



Günün ikinci yarısında Dos. Dr. Ahmet Özaslan "DƏHP-li Uşaqların Davranışını Yönləndirmək və Ünsiyyət Bacarıqlarını İnkişaf Etdirmək: Valideynlər üçün Praktik Təlim" mövzusunda faydalı tövsiyələrini iştirakçılarla paylaşdı. Günün son sessiyasında isə Dos. Dr. Sevginar Vatan "Emosional Tənzimləmə Strategiyaları və Gündəlik Həyatda Tətbiqi" mövzusunda ətraflı məlumat verdi.



Konfrans rəsmi bağlanış mərasimi və iştirakçılara sertifikatların təqdim olunması ilə başa çatdı. Tədbirdən sonra dəvətli spikerlərlə şam yeməyi təşkil olundu və gələcək əməkdaşlıq imkanları müzakirə edildi. Sonda iştirakçılara hədiyyələr təqdim olundu.



tegies to Reduce Stress and Anxiety."

In the afternoon, Assoc. Prof. Dr. Ahmet Özaslan delivered valuable guidance in a session titled "Guiding the Behavior of Children with ADHD and Deve-



*Ebru Şalcıoğlu*

loping Communication Skills: Practical Training for Parents." The final session of the conference featured Assoc. Prof. Dr. Sevginar Vatan, who provided in-depth insight on "Emotional Regulation Strategies and Their Application in Daily Life."

The conference concluded with a formal closing ceremony and the distribution of certificates to participants. A dinner was organized for the invited speakers, during which opportunities for future collaboration were discussed. At the end of the evening, gifts were presented to the participants.



## "XƏZƏR"DƏ "ŞEKSPİR GÜNÜ– 2025"

Aprelin 28-də Xəzər Universitetinin Mərmər zalında İngilis dili və ədəbiyyatı departamentinin təşkilatçılığı ilə



*Milana Abbasova*

Vilyam Şekspirin yaradıcılığına həsr olunmuş tədbir keçirildi.

İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova açılış nitqi ilə çıxış etdi. Departamentin müəllimi, amerikalı mütəxəssis Michael Collins Şekspir sonetləri üslubunda yazdığı iki şeirini və əlavə olaraq Xəzər Univer-



*Nailə Qasımova*

## "SHAKESPEARE DAY – 2025" AT KHAZAR UNIVERSITY

On April 28, a literary event dedicated to the works of William Shakespeare was held in the Marble Hall of Khazar University, organized by the Department of English Language and Literature.

The event opened with a speech by Dr. Milana Abbasova, Head of the Department of English Language and Literature. Michael Collins, an American specialist and faculty member of the department, recited two original poems written in the style of Shakespearean sonnets, along with an acrostic poem dedicated to Khazar University.



*Firəngiz Nəsirova*

He also discussed parallels and contrasts between Shakespeare's works and F. Scott Fitzgerald's novel The Great Gatsby. Senior lecturer Firangiz Nasirova shared well-known quotations from Shakespeare in her speech, while fellow senior lecturer Naile Gasimova recited a poem of her own composition.

Student actors from the Khazar University Arts Club, under the guidance of third-year English Philology students Shayeste Malekan and Ramala Hasanova, performed a scene from Shakespeare's tragedy "Hamlet". Their performance was met




*Hamlet İsaxanlı*

sitetinə həsr etdiyi akrostik şeir parçasını səsləndirdi. Əlavə olaraq, Şekspirin əsərləri ilə F. S. Fitsceraldın romanı "Böyük Qetsbi" arasındakı bənzərlik və təzadlardan danışdı. Departamentin baş müəllimi Firəngiz Nəsirova çıxışında Şekspirin məşhur sitatlarından nümunələr söylədi. De-

*(Ardı səh.32-də)*

with great appreciation from the audience. Second-year Psychology students from the School of Humanities, Education and Social Sciences-Sadagat Majidli, Dunya Abbasova, and Jala Javadova-also took the stage to recite selected Shakespearean sonnets.

The event welcomed a special guest, Leyli Salayeva, a member of both the Azerbaijan Writers' Union and the British Poetry Society, who addressed the audience. Students from the

*(To be continued page 32)*



*Aybəniz Rəsulova*



*Michael Collins*



*Leyli Salayeva*

partamentin digər baş müəllimi Nailə Qasımova özümün müəllifi olduğu şeir parçası ilə çıxış etdi.

3-cü kurs ingilis dili filologiya ixtisasının tələbələri Şayeste Mələkan və Ramalə Həsənovanın rəhbərliyi ilə Xəzər Universitetinin İncəsənət Klubunun tələbə aktyorları Şekspirin Hamlet tragediyasından bir səhnəciyi canlandırdılar. Onların bu ifası tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılandı. Humanitar, təhsil və sosial elmlər fakültəsi Psixologiya ixtisasının 2-ci kurs tələbələri Sədaqət Məcidli, Dünya Abbasova və Jalə Cavadova Şekspirin sonetlərini səsləndirdilər.

Azərbaycan Yazıçılar Birliyinin və Britaniya Poeziya Cəmiyyətinin üzvü Leyli Salayeva günün xüsusi qonağı qismində tədbirdə çıxış etdi. Pişəvəri adına Respublika humanitar fənlər gimnaziyasının tələbələri də tamaşaçılar sırasında idi.

Tədbirin sonunda Prof. Akad. Hamlet İsaxanlı çıxış etdi və istedadlı iştirakçı tələbələrin canlı ifalarını yüksək qiymətləndirdi və onların bədii ruhunun, istedadlarının yeni məkanlarda daha böyük tamaşaçı kütləsinə çatacağına ümid etdiyini bildirdi.

Pishavari Republican Gymnasium of Humanities were also present among the audience. The event concluded with a speech by Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees. He praised the students' live performances, emphasizing their artistic spirit and expressing hope that their talent would one day reach broader audiences on larger stages.












**Michael Collins**

## 14 LINES FOR A LEGEND

Students, instructors, administrators, in one place,
Were united by a common wish: to honor the Bard.
Their treasured Khazar University learning space
Became the scene of a gathering not to disregard.

Bravely did the several presenters stand,
Saluting Stratford-upon-Avon's famed son.
In Marble Hall — nothing short of grand —
What's typically "work" actually looked "fun."

A visitor from afar displayed his poetic skills.
Khazar stalwarts found another way to teach.
Young actors served up some dramatic thrills.
The founder and chairman gave a fine speech.

What a wonderful event last April the 28th saw,
For those respecting Shakespeare's word as law.





## PSİXOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ UDEMKO KONFRANSINDA

Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi Kəmalə Əliyeva 2025-ci il aprelin 24-27-də Anadolu Universitetində (Türkiyə) keçirilən UDEMKO (Ulusal Disiplinlerarası Erken çocuklukta Müdahile) konfransında "Yaş dövrlərindəki əsas fəaliyyətlərin Fərdi Təhsil Proqramına daxil edilməsinin əhəmiyyəti " mövzusunda məruzəçi olaraq çıxış etmişdir.

Məruzə onun iki il ərzində 25 uşaq üzərində apardığı araşdırmanın əsasında hazırlanmışdır. Öyrənmə çətinliyi, inkişaf ləngiməsi olan uşaqların təlim prosesi zamanı tərtib edilmiş Fərdi Təlim Proqramı şərh olunmuşdur.

Konfransda bir çox nüfuzlu universitetlərin professor - müəllim heyəti çıxış etmişdir.

## PSYCHOLOGY DEPARTMENT LECTURER AT UDEMKO CONFERENCE

Kamala Aliyeva, a lecturer at the Department of Psychology at Khazar University, participated as a speaker at the UDEMKO (National Interdisciplinary Early Childhood Intervention) Conference held at Anadolu University (Türkiye) from April 24 to 27.

Her presentation, titled "The Importance of Integrating Core Age-Specific Activities into Individual Education Programs," was based on a two-year study conducted with 25 children. The presentation focused on individualized educational strategies designed for children experiencing learning difficulties and developmental delays.

The conference brought together professors and lecturers from many prestigious universities.

## DİLLƏR BÖLMƏSİNİN KOORDİNATORU "I. ULUSLARARASI BALKAN TÜRKLERİNİN DİLİ, EDEBİYATI VE KÜLTÜRÜ SEMPOZYUMU"NDA MƏRUZƏ ETMİŞDİR

Aprelin 28-də Xəzər Universitetinin Dillər bölməsinin koordinatoru Dr. Sevinc Qəmbərova Türkiyənin Çağ Universitetinin təşkil etdiyi "I. Uluslararası Balkan Türklerinin Dili, Edebiyatı ve Kültürü Sempozyumu"nda "Azərbaycan dilinin şivələri və qazax dilində ortaq xüsusiyyətlər (Azerbaycan Dili Ağızları ve Kazak Dilinde Ortak Özellikler)" mövzusunda onlayn olaraq məruzə etmişdir.

Məruzədə türk dilləri ailəsinin oğuz qrupuna daxil olmasına baxmayaraq, oğuz-qıpçaq əsaslı olan Azərbaycan dilinin şivələri ilə qazax dilinin səs sistemi, həmçinin lüğət tərkibi arasında olan ortaq xüsusiyyətlər barədə danışılmış və bu tipli araşdırmaların aktuallığından və türkologiya üçün əhəmiyyətindən bəhs edilmişdir.

## COORDINATOR OF DEPARTMENT OF LANGUAGES PRESENTS AT "1ST INTERNATIONAL SYMPOSIUM ON THE LANGUAGE, LITERATURE, AND CULTURE OF BALKAN TURKS"

On April 28, Dr. Sevinc Gambarova, the coordinator of the Department of Languages at Khazar University, delivered an online presentation on the topic "Dialects of the Azerbaijani Language and Common Features in the Kazakh Language (Azerbaycan Dili Ağızları ve Kazak Dilinde Ortak Özellikler)" at the "1st International Symposium on the Language, Literature, and Culture of Balkan Turks" organized by Çağ University in Türkiye. The presentation discussed the common features between the sound system and vocabulary of the Kazakh language and the dialects of the Azerbaijani language, which, despite belonging to the Oghuz branch of the Turkic language family, are based on Oghuz-Kipchak features. It also emphasized the relevance and importance of such studies for the field of Turkology.

Füyuzat

## DEPARTAMENT MÜDİRİNİN MƏQALƏSİ FÜYUZAT.AZ - DA

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin "Elm!" adlı məqaləsi 2025-ci il aprelin 30-da *Füyuzat.az*-da dərc edilmişdir.

Dos. Vəliyev məqaləsində Azərbaycanda gənc professorların sayının azlığını vurğulayır, elmin inkişafını təmin etmək üçün təhsil sistemindəki maneələrin aradan qaldırılmasının vacibliyini qeyd edir. Eyni zamanda, müəllif elmi adların verilməsi sistemində islahatların həyata keçirilməsini və daha çevik bir strukturun yaradılmasını təklif edir.

## ARTICLE BY HEAD OF DEPARTMENT IS IN FUYUZAT.AZ

An article by Assoc. Prof. Orkhan Valiyev, Head of Political Science and Philosophy Department at Khazar University, titled "Science! (Elm!)", has been published in *Fuyuzat.az*.

Assoc. Prof. Valiyev emphasizes in his article the small number of young professors in Azerbaijan, and notes the importance of eliminating obstacles in the education system to ensure the development of science. At the same time, the author proposes implementing reforms in the system of granting scientific titles and creating a more flexible structure.

*Məqaləyə keçid: Elm! - Füyuzat Jurnalı*

xəzər

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ *XƏZƏR TV*-DƏ

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev 2025-ci il mayın 16-da *Xəzər TV*-də "Xəbər ertəsi" verilişinin "İstanbulda Türkiyə-Rusiya-Ukrayna görüşü" mövzusundakı yayımında iştirak etmişdir. Dos. Orxan Vəliyev görüşün strateji əhəmiyyəti, məkan olaraq Türkiyənin seçilməsi, iştirak edən nümayəndələrin təyinatı və digər məsələlərə toxunmuşdur.

## DEPARTMENT HEAD OF POLITICAL SCIENCE AND PHILOSOPHY ON *KHAZAR TV*

On May 16, 2025, the head of the Department of Political Sciences and Philosophy, Assoc. Prof. Orkhan Valiyev, participated in the "After the news" program of *Khazar TV* about "Türkiye-Russia-Ukraine meeting in Istanbul". Assoc. Prof. Orkhan Valiyev touched upon, the strategic importance of the meeting, the choice of Türkiye as the venue, the appointment of the participating representatives, and other related issues.

***https://www.youtube.com/watch?v=wuJTUxXejYo&t=7s***

## *"XƏZƏR" TƏLƏBƏLƏRİNİN TƏLƏBƏ ELMİ KONFRANSINDA FƏALLIĞI*

Aprelin 28-də Bakı Avrasiya Universiteti Nəzəri dilçilik və türk dilləri kafedrasının təşkilatçılığı ilə "Qloballaşan dünyada milli dillər gənc filoloqların araşdırmalarında" mövzusunda Tələbə Elmi Konfransı keçirilmişdir. Konfransda ölkənin müxtəlif ali təhsil müəssisələrinin tələbə və müəllim heyəti iştirak etmişdir.




*Kamilə Səfərbəyova, Nigar Ələsgərli, İnci Məmmədova, Aynur Qəzənfərqızı, Pəri Nəsibova, Aydan Əliyeva, Günel Abuşova, Şənay Mirzə*

Tədbirin açılış mərasimində Bakı Avrasiya Universitetinin elmi işlər üzrə prorektoru, siyasi elmlər üzrə elmlər doktoru Prof. Gülzar İbrahimova, Tədrisin təşkili departamentinin müdiri Dos. Natella Quliyeva, Nəzəri dilçilik və türk dilləri kafedrasının müdiri, filolofiya üzrə fəlsəfə doktoru Dos. Zəminə Rüstəmbəyli, Nəzəri dilçilik və türk kafedrasının professoru Ədalət Tahirzadə, Azərbaycan və dünya ədəbiyyatı kafedrasının müdiri Prof. Elmira Kekeç, Xəzər Universitetinin müəllimi və Xəzər Mədəni Antropologiya və Folklor İnstitutunun (Xəzər MAFİ) koordinatoru, filologiya üzrə fəlsəfə doktoru Dos. Aynur Qəzənfərqızı və digər mütəxəssislər çıxış ediblər. Çıxışlarda milli dillərin qorunmasının

## *ACTIVE PARTICIPATION OF "KHAZAR" STUDENTS IN STUDENT SCIENTIFIC CONFERENCE*

On April 28, a Student Scientific Conference titled "National Languages in the Research of Young Philologists in a Globalized World" was held, organized by the Department of Theoretical Linguistics and Turkic Languages of Baku Eurasian University. The event was attended by students and faculty from various higher education institutions across the country.

At the opening ceremony, speeches were delivered by Vice-Rector for Scientific Affairs of Baku Eurasian University, Doctor of Political Sciences, Prof. Gulzar Ibrahimova; Head of the Department of Academic Affairs, Assoc. Prof. Natella Guliyeva; Head of the Department of Theoretical Linguistics and Turkic Languages, PhD in Philology, Assoc. Prof. Zamina Rustambayli; Professor of the Department of Theoretical Linguistics and Turkic Studies, Adalat Tahirzada; Head of the Department of Azerbaijani and World Literature, Prof. Elmira Kekech; lecturer at Khazar University and coordinator of the Khazar Institute of Cultural Anthropology and Folklore Studies (Khazar ICAF), Assoc. Prof. Aynur Gazanfarqizi, and others. The speakers emphasized the importance of

vacibliyi, qloballaşma dövründə dil kimliyinin saxlanılması, gənc tədqiqatçıların elmi fəaliyyətə cəlb olunmasının əhəmiyyəti xüsusi vurğulanmışdır.

Konfrans plenar iclasla işə başlamış və iclasa Dos. Zəminə Rüstəmbəyli sədrlik etmişdir. Plenar iclasda dilçilik, qloballaşma, sosial media və milli dillərin qorunması kimi mövzularda tələbə məruzələri dinlənilmiş, elmi müzakirələr aparılmışdır. Sonra bölmə iclasları keçirilmişdir. Bölmələrdə Azərbaycan dili, türkologiya və ingilis dili sahələri üzrə aparılan tədqiqatlar əsasında tələbə çıxışları təqdim olunmuşdur.

Xəzər Universitetinin tələbələri də Azərbaycan dili və türkologiya sahələrində apardıqları elmi araşdırmalarla bölmə iclaslarında fəallıq göstərmişlər. Xəzər Universitetindən konfransda Xəzər MAFİ-nin koordinatoru dos. Aynur Qəzənfərqızının elmi rəhbərliyi ilə Pəri Nəsibova (Filologiya ixtisası, 1-ci kurs) "Azərbaycan və Qırğız mətbəxində yeməklərin adlandırılması"; Kamilə Səfərbəyova (Filologiya ixtisası, 1-ci kurs) "Qırğız manasçısı Sayakbay Karalayev ilə Azərbaycan aşığı Stal Süleymaniski yaradıcılığında dil-üslub xüsusiyyətləri"; Nigar Ələsgərli (Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası, 1-ci kurs) "Toktoğul və S.Ə.Şirvani yaradıcılığında dil-üslub xüsusiyyətləri"; Aydan Əliyeva (Filologiya ixtisası, 1-ci kurs) "Sovet dövrü folklorşünaslığında toplanmış materialların dil və üslub xüsusiyyətləri"; İnci Məmmədova (Filologiya (ingilis dili və ədəbiyyatı) ixtisası, 2-ci kurs) "Süni intellekt və dilin gələcəyi: tərcümə, dil öyrənmə və linqvistik inkişafa təsirləri", həmçinin Dillər bölməsinin koordinatoru Dr. Sevinc Qəmbərlinin elmi rəhbərliyi ilə Günel Abuşova (İbtidai sinif müəllimliyi ixtisası, 2-ci kurs) "Azərbaycan dilinin Kürdəmir şivəsinin leksikası"; Şənay Mirzə (İbtidai sinif müəllimliyi ixtisası, 1-ci kurs) "Azərbaycan və Özbək dillərində ortaq leksika" mövzularında çıxış etmişlər.

Konfransın sonunda təşkilatçılar tədbirin həyata keçirilməsinə dəstək göstərən universitetlərə və iştirakçılara təşəkkür etmiş, gələcəkdə də bu cür elmi tədbirlərin davam etdiriləcəyi və gənc filoloqların elmi fəaliyyətlərinə hərtərəfli dəstək veriləcəyi bildirilmişdir.

Belə tədbirlər milli dillərin qorunmasına, gənc tədqiqatçıların elmi potensialının inkişafına və elmi fikir mübadiləsinin genişlənməsinə mühüm töhfə verir.

**Ələsgərli Nigar**
*Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası (1-ci kurs), Xəzər MAFİ könüllüsü*

preserving national languages, maintaining linguistic identity in the era of globalization, and engaging young researchers in scientific activities.

The conference commenced with a plenary session chaired by Assoc. Prof. Zamina Rustambayli. During this session, student presentations were delivered on topics such as linguistics, globalization, social media, and the protection of national languages, followed by scientific discussions. The conference then proceeded with panel sessions, where student presentations were made based on research in the fields of the Azerbaijani language, Turkology, and English studies.

Students from Khazar University also demonstrated active participation in the sessions, presenting their research in Azerbaijani language and Turkology. Under the academic supervision of Assoc. Prof. Aynur Gazanfarqizi, coordinator of Khazar ICAF, the following students took part in the conference: Pəri Nəsibova (Philology, 1st year): "Regional Features of Azerbaijani and Kyrgyz Cuisine"; Kamilə Səfərbəyova (Philology, 1st year): "Linguistic and Stylistic Features of Kyrgyz Epic Singer Sayakbay Karalayev and Azerbaijani Ashiq Suleyman Stalski"; Nigar Ələsgərli (Azerbaijani Language and Literature Teaching, 1st year): "Linguistic and Stylistic Features of the Works of Toktogul and S.E. Shirvani"; Aydan Əliyeva (Philology, 1st year): "Linguistic and Stylistic Features of Materials Collected in Soviet-Era Folklore Studies"; İnci Məmmədova (Philology – English Language and Literature, 2nd year): "Artificial Intelligence and the Future of Language: Impact on Translation, Language Learning, and Linguistic Development". Under the academic supervision of Dr. Sevinc Qemberli, coordinator of the Department of Languages: Günel Abuşova (Primary Education Teaching, 2nd year): "Lexicon of the Kurdamir Dialect of the Azerbaijani Language"; Şənay Mirzə (Primary Education Teaching, 1st year): "Shared Lexicon in Azerbaijani and Uzbek Languages"

At the end of the conference, the organizers expressed their gratitude to the participating universities and contributors, affirming that such scientific events would continue in the future and that comprehensive support would be provided to young philologists in their research endeavors. These initiatives make a valuable contribution to the preservation of national languages, the development of young researchers' scientific potential, and the expansion of scholarly dialogue.

**Alasgarli Nigar**
*First-year student in Azerbaijani Language and Literature Teaching, Volunteer at Khazar ICAF*

## "B. PASTERNAK, İ. BRODSKİ: RUS ŞEİRİNDƏ İKİ SƏS, BİR ƏKS-SƏDA..." MÖVZUSUNDA SEMİNAR



*Qardaşxan Əzizxanlı*

Aprelin 30-da Xəzər Universitetində Dünya ədəbiyyatı fənni çərçivəsində AYB-nin beynəlxalq əlaqələr və tərcümə məsələləri üzrə katibi, şair, tərcüməçi, esseist Səlim Babullaoğlu "B. Pasternak, İ. Brodski: Rus şeirində iki səs, bir əks-səda..." adlı seminar keçirib.

Dillər və ədəbiyyatlar departamentinin müəllimləri - filologiya üzrə fəlsəfə doktorları Ülvi Babasoy və Qardaşxan Əzizxanlının açılış nitqləri ilə başlayan seminar S. Babullaoğlunun B. Pasternak və İ. Brodski poeziyasından nümunələrin təhlilləri ilə müşayiət olunub.

Ü. Babasoy tədbirin qonağı S.Babullaoğlunun ədəbi, ictimai fəaliyyəti haqqında müəllim və tələbə heyətini məlumatlandırıb, onun yaradıcılığındakı ikimərhələli düşünmə modelini xüsusi qeyd edib.

Q.Əzizxanlı seminarın mahiyyəti və əhəmiyyətindən danışıb, S. Babullaoğlunun B. Pasternak və İ. Brodski sənətinə müraciətini bu iki Nobel mükafatçısının onun şair ruhuna yaxınlığı ilə əlaqələndirib.

S. Babullaoğlu əvvəlcə bütövlükdə XX əsr rus poeziyasından, onun ümumi mənzərəsindən söz açıb, sonra B. Pasternak və İ. Brodski yara-

## SEMINAR TITLED "B. PASTERNAK, I. BRODSKY: TWO VOICES, ONE ECHO IN RUSSIAN POETRY..."

On April 30, within the framework of the World Literature course, Khazar University hosted a seminar titled "B. Pasternak, I. Brodsky: Two Voices, One Echo in Russian Poetry..." conducted by Salim Babullaoglu, poet, translator, essayist, and Secretary for International Relations and Translation Affairs of the Azerbaijan Writers' Union.

The seminar began with opening remarks by Ulvi Babasoy and Gardashkhan Azizkhanli, PhDs in Philology and faculty members of the Department of Languages and Literatures. S. Babullaoglu's presentation focused on an analytical reading of selected poems by B. Pasternak and I. Brodsky.



*Ülvi Babasoy*

U. Babasoy provided the audience with information about the guest's literary and public activities and highlighted the dual-phase thought model present in his creative work. G. Azizkhanli addressed the seminar's purpose and significance, linking S. Babullaoglu's engagement with the works of Pasternak and Brodsky to the affinity these two Nobel laureates share with his poetic spirit.

dıcılığındakı simvolizmə diqqəti çəkib. O, Pasternakın "Hamlet" və "Qış gecəsi" şeirlərini, Brodskinin "Otaqdan çıxmayasan, səhv də buraxmayasan" və "Söyləmişəm həmişə, tale var ha, oyundur" misraları ilə başlayan poetik nümunələrini orijinalda və öz tərcüməsində səsləndirib, bu şeirlərin vizual mahiyyətinə toxunub, onların geniş təhlilini verib. Görkəmli şair, həmçinin poetik əsərlərin tərcümə texnikasından danışıb, şeirdə öz "səs və əks-səda" obrazlı deyiminə izah verib.



*Xatirə Yusifova*

Dillər və ədəbiyyatlar departamentinin müəllimləri dosent Xatirə Yusifova və filologiya üzrə fəlsəfə doktoru Almaz Bədəlova oxunan tərcümələrin az qala orijinal qədər təsirli və poetik olduqlarını dilə gətiriblər.

Səlim Babullaoğlu tədbir iştirakçılarının istəyi ilə "Həmin qadına məktub" və "İndi sükut tez-tez kəsir mənim sözümü" misrası ilə başlayan şeirlərini oxuyub, tələbələrin suallarını cavablandırıb.

*https://azertag.az/xeber/boris_pasternak_iosif_brodski_rus_seirinde_iki_ses_bir_eks_seda___seminar-3534311*

*https://qaynarinfo.az/az/b-pasternak-i-brodski-rus-seirinde-iki-ses-bir-eks-seda-adli-seminar-kecirildi-foto*

*https://kulis.az/xeber/media/bpasternak-ibrodski-rus-seirinde-iki-ses-bir-eks-seda-adli-seminar-kecirildi-60393*



*Səlim Babullaoğlu*

S. Babullaoglu began by offering a broader perspective on 20th-century Russian poetry and later drew attention to the symbolism in the works of B. Pasternak and I. Brodsky. He recited Pasternak's poems "Hamlet" and "Winter Night" as well as Brodsky's verses "Don't leave the room, don't make a mistake" and "I've always said, fate is a game," both in the original and in his own translations, providing commentary on their visual essence and detailed interpretation. He also elaborated on the techniques of poetic translation and explained his own metaphorical expression of "voice and echo" in poetry.

Faculty members of the Department of Languages and Literatures, Associate Professor Khatira Yusifova and PhD in Philology Almaz Badalova, noted that the translated poems were nearly as impactful and poetic as the originals.

Upon the audience's request, Salim Babullaoglu concluded the seminar by reciting his poems "Letter to That Woman" and the one beginning with the line "Now silence often interrupts my words," followed by a Q&A session with students.

*https://klv.az/2025/04/30/b-pasternak-i-brodski-rus-seirinde-iki-ses-bir-eks-seda-adli-seminar-kecirilib/ və s.*

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




## DÜNYADA "ŞİRİNDİL" İMZASI QALDI...

Ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor, uzun illər AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri olmuş, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, "Tərəqqi" medalı mükafatçısı Şirindil Həsən oğlu Alışanlının vəfatının birinci ildönümü münasibəti ilə "Dünyada "Şirindil" imzası qaldı..." adlı məqalələr və xatirələr toplusu nəşr edilib.

Kitaba AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Ön söz , Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı Son söz yazıb. Toplunu filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı və XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin əməkdaşı Dilarə Adilgil tərtib edib.

240 səhifəlik kitabda ədəbi və elmi ictimaiyyətin, Şirindil müəllimi yaxından tanıyanların, doğmaların, onun xatirəsini uca tutan dostların, həmkarların, yetirmələrin xatirələri toplanıb. Xalq yazıçısı Elçin, Millət vəkilləri Elnarə Akimova, Fazil Mustafa, Aqil Abbas, şair Qulu Ağsəs, AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu, elmlər doktorları Qorxmaz Quliyev, Vaqif Yusifli, Rafiq Yusifoğlu, Sara Osmanlı, Asif Rüstəmli, Vüqar Əhməd, Bədirxan Əhmədli və başqaları Şirindil Alışanlını görkəmli alim, yorulmaz tədqiqatçı və naşir, vətənpərvər ziyalı, həqiqi dost, böyük İnsan kimi dəyərləndiriblər. Kitabda əks olunan çoxsaylı fotolar alimin AMEA-da işlədiyi 40 ildən artıq dövrü əhatə edir.

Şirindil Həsən oğlu Alışanlının unudulmaz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaqdır!

Ruhu şad olsun!

# BƏDİRXAN ƏHMƏDLİNİN KİTABLARININ TƏQDİMATI




*İsa Həbibbəyli, Bədirxan Əhmədli*

AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri professor Bədirxan Əhmədlinin "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" (3 cilddə), "Zamanın yaddaşı ədəbi diskurslar" (Seçilmiş məqalələr), "Bir ömrün missiyası" və "Rabindranat Taqor: Nobelə gedən yol" (ingilis dilində) kitablarının təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli açaraq, professor Bədirxan Əhmədlinin həyat və yaradıcılığından, çoxşaxəli elmi fəaliyyətindən, Azərbaycan ədəbiyyatşünaslıq elminə verdiyi töhfələrdən danışıb. Bildirib ki, professor Bədirxan Əhmədli XX yüzil Azərbaycan ədəbiyyatının mərhələli və sistemli şəkildə tədqiqinə yönəlmiş sanballı əsərlərin müəllifidir. O, Azərbaycanla yanaşı, türkdilli xalqların ədəbi irsinin yüz əlli ilə yaxın dövrünü səylə araşdıran, elmi-nəzəri baxımdan mükəmməl təhlil edən, bu xalqların tarixi və ədəbiyyatı ilə bağlı apardığı tədqiqatlarla ümumtürk elmi mühitinin sərhədlərini aşmağı bacaran istedadlı elm adamıdır.

Akademik İsa Həbibbəyli professor Bədirxan Əhmədlinin çoxillik böyük zəhmətinin və səmərəli axtarışlarının nəticəsi olan əsərlərinin elmi əhəmiyyətini qeyd edib. O, 70 illik yubileyi münasibətilə AMEA-nın Fəxri fərmanını alimə təqdim edib.

Sonra Ədəbiyyat İnstitutunun XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri professor Asif Rüstəmli "Bədirxan Əhmədlinin ədəbiyyatşünas alim ömrünün portret cizgiləri" adlı məruzə ilə çıxış edib. Akademik Nizami Cəfərov, millət vəkili, filologiya elmləri doktoru, Elnarə Akimova, filologiya elmləri doktorları, professorlar Məmməd Əliyev, Məhərrəm Qasımlı, Həsən Həsənov, filologiya elmləri doktoru Bəsirə Əzizəli, "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələfli və başqaları çıxış edərək, alimlə bağlı xoş xatirələrini bölüşüblər.

Daha sonra Özbəkistanın Fərqanə Dövlət Universitetinin alimi Əkbər Sadinov, Azərbaycan Ağsaqqallar Şurasının aparat rəhbəri Ramin Həsənli, Qars Qafqaz Universitetinin nümayəndəsi Könül Qulusoy, eləcə də Daşkənd Uluqbəy adına Milli Universitetin əməkdaşları ədəbiyyatşünas alimi 70 illik yubileyi münasibətilə təbrik edib, təmsil etdikləri müəssisələrin Fəxri fərmanlarını, "Xalq qəzeti"nin baş redaktoru, Mətbuat Şurası idarə heyətinin üzvü Əflatun Amaşov isə Şuranın diplomunu professor Bədirxan Əhmədliyə təqdim edib.

Tədbirdə Pakistan Ədəbiyyat Akademiyasının prezidenti, professor Nəcibə Arif, Pakistan İslam Respublikasının Müslim İnstitutunun direktoru, doktor Sahibzadə Sultan və Qırğızıstan-Türkiyə Manas Universitetinin alimi videoçarx vasitəsilə professor Bədirxan Əhmədliyə təbriklərini ünvanlayıblar.

Sonda professor Bədirxan Əhmədli çıxış edərək ona göstərilən diqqət və qayğıya görə tədbirin təşkilatçıları və iştirakçılarına təşəkkürünü bildirib.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*

## XƏZƏR UNİVERSİTETİ SƏUDİYYƏ ƏRƏBİSTANINDA KEÇİRİLƏN "EDUCATİON GLOBAL EXHİBİTİON (EDGEX 2025)" BEYNƏLXALQ TƏHSİL SƏRGİSİNDƏ UĞURLA TƏMSİL OLUNUB

## KHAZAR UNIVERSITY SUCCESSFULLY REPRESENTED AT "EDUCATION GLOBAL EXHIBITION (EDGEX 2025)" INTERNATIONAL EDUCATION EXHIBITION IN SAUDI ARABIA

Aprelin 13-16-da Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində dünyanın müxtəlif ölkələrindən gəlmiş ali təhsil müəssisələrinin iştirakı ilə "Education Global Exhibition (EDGEX 2025)" adlı beynəlxalq təhsil sərgisi təşkil edilmişdir. Bu nüfuzlu tədbirdə Azərbaycanı təmsil edən ali məktəblərdən biri də Xəzər Universiteti olmuşdur.

Tədbir çərçivəsində Xəzər Universiteti rektorunun beynəlxalq əlaqələr üzrə müşaviri Prof. Əhməd Sami Elaydi bir sıra ərəb və beynəlxalq universitetlərin nümayəndələri ilə ikitərəfli görüşlər keçirmiş, qarşılıqlı maraq doğuran elmi və akademik əməkdaşlıq imkanlarını müzakirə etmişdir. Görüşlərdə tələbə və müəllim mübadiləsi, birgə elmi konfransların təşkili, ortaq elmi tədqiqat layihələri və beynəlxalq elmi nəşrlərdə əməkdaşlıq kimi mövzular əsas diqqət mərkəzində olmuşdur.

Tədbir zamanı sərgi iştirakçılarına və maraqlı tərəflərə Xəzər Universiteti haqqında, universitetin tarixi, akademik fakültələri, ingilis dilində tədris imkanları, beynəlxalq proqramları və tələbələrə təqdim olunan təqaüd və yaşayış şəraiti barədə ətraflı məlumat verilmişdir. Eyni zamanda, universitetin beynəlxalq əlaqələri və gələcəkdə ərəb ölkələri ilə əməkdaşlıq perspektivləri də vurğulanmışdır.

EDGEX sərgisi Yaxın Şərqdə ali təhsilin gələcəyinə dair ən genişmiqyaslı və əhatəli tədbirlərdən biri sayılır. Bu ilki sərgidə 100-dən çox universitet və ali təhsil qurumu, minlərlə tələbə nümayəndələri, təhsil menecerləri, müəllimlər və beynəlxalq təhsil sahəsində çalışan mütəxəssislər iştirak etmişdir. Tədbir zamanı təhsildə innovasiyalar, rəqəmsal transformasiya, beynəlxalq əməkdaşlıq, keyfiyyətin təminatı və ali təhsilin qlobal çağırışları kimi aktual mövzularda panel müzakirələr və təlim seminarları keçirilmişdir.

Tədbir, həmçinin, ərəb dünyasında Azərbaycan təhsilinin təbliği baxımından da mühüm bir platforma olmuşdur və Xəzər Universiteti gələcəkdə də bu tip təşəbbüslərdə fəal iştirak etməyi planlaşdırır.

An international education exhibition titled "Education Global Exhibition (EDGEX 2025)" was organized in Riyadh, the capital of Saudi Arabia, from April 13 to 16, with the participation of higher education institutions from various countries around the world. Khazar University was among the higher education institutions representing Azerbaijan at this prestigious event.

Within the framework of the event, Prof. Ahmed Sami Elaydi, the Rector's Advisor for International Relations at Khazar University, held bilateral meetings with representatives of various Arab and international universities, discussing scientific and academic cooperation opportunities of mutual interest. The meetings primarily focused on topics such as student and faculty exchange, organization of joint scientific conferences, collaborative research projects, and cooperation in international scientific publications.

During the event, detailed information about Khazar University was provided to exhibition participants and interested parties, including the university's history, academic faculties, English-language instruction opportunities, international programs, and scholarship and accommodation options available to students. Additionally, the university's international relations and future cooperation prospects with Arab countries were emphasized.

The EDGEX exhibition is considered one of the most extensive and comprehensive events regarding the future of higher education in the Middle East. This year's exhibition was attended by more than 100 universities and higher education institutions, thousands of student representatives, education managers, teachers, and specialists working in the field of international education. Panel discussions and training seminars were held on current topics such as innovations in education, digital transformation, international cooperation, quality assurance, and global challenges in higher education.

The event also served as an important platform for promoting Azerbaijan's education in the Arab world, and Khazar University plans to actively participate in such initiatives in the future.

## XƏZƏR UNİVERSİTETİ SƏUDİYYƏ ƏRƏBİSTANINDAKI BEYNƏLXALQ MƏKTƏBLƏRDƏ TƏQDİM OLUNUB

Xəzər Universiteti Səudiyyə Ərəbistanında fəaliyyət göstərən bir sıra beynəlxalq məktəblərdə təqdim olunmuşdur. Universitetin beynəlxalq əlaqələr üzrə müşaviri Prof. Əhməd Sami Elaydi bu məqsədlə Səudiyyə Ərəbistanına səfər etmiş və 2025-ci il aprelin 13-16-da müxtəlif məktəblərdə təqdimatlar keçirmişdir.

Həmin məktəblər arasında Rovad əl-Farabi Beynəlxalq Məktəbləri (Rawad Al-Farabi International Schools) və Al-Elm Beynəlxalq Məktəbi (Al-Elm International School) də olmuşdur.

Səfər çərçivəsində Prof. Əhməd Sami adıçəkilən məktəblərin rəhbərliyi və müəllim heyəti ilə görüşlər keçirmiş, həmçinin şagirdlərlə də birbaşa ünsiyyət qurmuşdur. Görüşlər zamanı o, Azərbaycanın zəngin mədəniyyəti və tarixi haqqında qısa məlumat verməklə yanaşı, Xəzər Universitetini əhatəli şəkildə təqdim etmişdir.

Şagirdlər üçün keçirilən təqdimat zamanı universitetin yaranma tarixi, strukturu və təhsil imkanları barədə geniş məlumat verilmişdir. Qeyd olunmuşdur ki, Xəzər Universiteti Azərbaycanın müstəqillik qazandıqdan sonra yaradılan ilk özəl ali təhsil müəssisəsidir və bu baxımdan ölkənin ali təhsil tarixində mühüm yer tutur. Universitetdə tədris dili ingilis dilidir və bu, beynəlxalq tələbələr üçün əlverişli təhsil mühiti yaradır.

Təqdimatda universitetin bakalavriat, magistratura və doktorantura səviyyələrində təqdim etdiyi müxtəlif ixtisaslar barədə də məlumat verilmiş, təqaüd imkanları, tələbələr üçün kampus həyatı və beynəlxalq əməkdaşlıq proqramları vurğulanmışdır. Eyni zamanda, tələbələrə Xəzər Universitetinin məzunlarının uğurları və dünya universitetləri ilə əməkdaşlıq əlaqələri barədə də məlumatlar çatdırılmışdır. İştirakçılar bu təqdimatlara böyük maraq göstərmiş və Azərbaycan, xüsusilə də Xəzər Universiteti haqqında təqdim olunan məlumatları məmnuniyyətlə qarşılamışlar. Şagirdlər və məktəb rəhbərliyi universitetin təqdimatını yüksək qiymətləndirmiş, gələcəkdə əməkdaşlıq və tələbələrin Xəzər Universitetində təhsili imkanları ilə maraqlandıqlarını bildirmişlər.

Bu təşəbbüs Xəzər Universitetinin beynəlxalq səviyyədə tanınmasını artırmaq, ərəb ölkələri ilə akademik əməkdaşlığı genişləndirmək və beynəlxalq tələbələrin cəlb olunması istiqamətində atılan əhəmiyyətli addımlardan biridir.

## KHAZAR UNIVERSITY PRESENTED AT INTERNATION AL SCHOOLS IN SAUDI ARABIA

Khazar University has been presented at several international schools operating in Saudi Arabia. The university's international relations advisor, Prof. Ahmed Sami Elaydi, traveled to Saudi Arabia for this purpose and conducted presentations at various schools on April 13-16, 2025.

Among these schools were Rawad Al-Farabi International Schools and Al-Elm International School.

During the visit, Prof. Ahmed Sami held meetings with the management and teaching staff of the mentioned schools, as well as direct communication with students. During these meetings, he provided brief information about Azerbaijan's rich culture and history, along with a comprehensive presentation of Khazar University.

During the presentation for students, detailed information was provided about the university's history, structure, and educational opportunities. It was noted that Khazar University is the first private higher education institution established after Azerbaijan gained independence, thus holding an important place in the country's higher education history. The language of instruction at the university is English, which creates a favorable educational environment for international students.

The presentation also provided information about various specializations offered by the university at undergraduate, graduate, and doctoral levels, highlighting scholarship opportunities, campus life for students, and international cooperation programs. At the same time, students were informed about the achievements of Khazar University graduates and the university's collaborative relationships with universities worldwide.

Participants showed great interest in these presentations and warmly welcomed the information provided about Azerbaijan, especially Khazar University. Students and school management highly appreciated the university's presentation and expressed their interest in future collaboration and opportunities for students to study at Khazar University.

This initiative is one of the significant steps taken to increase Khazar University's international recognition, expand academic cooperation with Arab countries, and attract international students.



*Nazife Güngör*

## ÜSKÜDAR UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ

Aprelin 29-da Xəzər Universitetində Türkiyənin Üsküdar Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Üsküdar Universitetinin rektoru Prof. Dr. Nazife Güngör və universiteti Bakı nümayəndəsi Könül Vəlibəyli, Xəzər Universitetinin rektor vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev, dekanlar və Beynəlxalq əlaqələr şöbəsinin nümayəndələri iştirak ediblər.

Görüş zamanı tərəflər arasında təhsil və tədqiqat sahələrində əməkdaşlığın genişləndirilməsi, tələbə və müəllim mübadiləsi, birgə elmi layihələrin həyata keçirilməsi və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Müzakirələrin əsas mövzusu iki universitet arasında akademik əməkdaşlıq və əlaqələrin inkişaf etdirilməsi olub.

Görüş çərçivəsində Xəzər Universiteti və Üsküdar Universiteti arasında Anlaşma Memorandumu imzalanıb. Bu sənəd tərəflər arasında strateji tərəfdaşlığın qurulmasına və gələcəkdə birgə layihələrin həyata keçirilməsinə zəmin yaradır.

## DELEGATION FROM ÜSKÜDAR UNIVERSITY VISITS "KHAZAR"

On April 29, a meeting was held at Khazar University with a delegation from Türkiye's Üsküdar University. The meeting was attended by Prof. Dr. Nazife Güngör, Rector of Üsküdar University, Prof. Muhammad Nuriyev, Acting Rector of Khazar University, deans, and representatives from the International Relations Department.

During the meeting, the parties exchanged views on expanding cooperation in the fields of education and research, student and faculty exchange, implementation of joint scientific projects, and other matters of mutual interest. The main topic of discussions was the development of academic cooperation and relations between the two universities.

Within the framework of the meeting, a Memorandum of Understanding was signed between Khazar University and Üsküdar University. This document lays the foundation for establishing strategic partnership between the parties and implementing joint projects in the future.



## MİÇİQAN DÖVLƏT UNİVERSİTETİ VƏ BOĞAZİÇİ UNİVERSİTETİNİN PROFESSORLARI İLƏ GÖRÜŞ

Aprelin 30-da Xəzər Universitetinin fakültə dekanları, təhsil departamenti və Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşlarının iştirakı ilə Miçiqan Dövlət Universitetindən (ABŞ) Prof. Dr. Hartman Douglas Keith və Boğaziçi Universitetinin (Türkiyə) professoru Prof. Dr. Dilek Altun ilə görüş keçirilib.

Görüşdə Xəzər Universiteti nümayəndələri və qonaqlar təmsil etdikləri universitetlər barədə ətraflı məlumat veriblər. Mişiqan Dövlət Universitetinin Təhsil Departamentinin Müəllimlərin Hazırlığı üzrə professoru Dr. Hartman Douglas tərəfindən Miçiqan Dövlət Universiteti barədə təqdimat nümayiş etdirilib.



*Hartman Douglas Keith*

Xəzər Universiteti, Boğaziçi Universiteti və Miçiqan Dövlət Universiteti arasında tərəfdaşlığın və əlaqələrin gücləndirilməsi məsələləri müzakirə olunub, növbəti addımlarla bağlı fikir mübadiləsi aparılıb. Bundan əlavə, təhsil müəssisələri arasında əməkdaşlıq imkanları, birgə elmi tədqiqatlar, akademik proqramlar və tərəfdaşlıq imkanları görüşün əsas müzakirə mövzuları olub.



*Dilek Altun*

## MEETING WITH PROFESSORS FROM MICHIGAN STATE UNIVERSITY AND BOĞAZIÇI UNIVERSITY

On April 30, a meeting was held with Prof. Dr. Hartman Douglas Keith from Michigan State University (USA) and Prof. Dr. Dilek Altun from Boğaziçi University (Türkiye), with the participation of faculty deans, education department and International Relations department staff of Khazar University.

During the meeting, representatives of Khazar University and the guests provided detailed information about their respective universities. A presentation about Michigan State University was delivered by Dr. Hartman Douglas, Professor of Teacher Training at the Education Department of Michigan State University.

Issues regarding strengthening partnership and relations among Khazar University, Boğaziçi University, and Michigan State University were discussed, and an exchange of ideas regarding next steps took place. Additionally, collaboration opportunities between educational institutions, joint scientific research, academic programs, and partnership possibilities were the main discussion topics of the meeting.

## MİÇİQAN VƏ BOĞAZİÇİ UNİVERSİTETLƏRİNİN PROFESSORLARININ İŞTİRAKI İLƏ SEMİNAR






*Hartman Douglas Keith*

Aprelin 30-da Xəzər Universitetində Amerika Birləşmiş Ştatlarının Miçiqan Dövlət Universitetinin Təhsil Departamentinin Müəllimlərin Hazırlığı üzrə professoru Dr. Hartman Douglas Keith və Türkiyənin Boğaziçi Universitetindən Təhsil departamentinin dekanı Prof. Dr. Dilek Altun tərəfindən seminar keçirilib.

Seminarda iki əsas mövzu ətrafında iştirakçılarla ətraflı müzakirələr aparılıb. Prof. Hartman Douglas Tədris və təlimi gücləndirən süni intellektlə zənginləşdirilmiş peşəkar inkişafın dizayn edilməsi mövzusunda təqdimatla çıxış edib. Ardınca Prof. Dr. Dilek Altun "Hesablama təfəkkürü: Oyun, nümunələr və problem həlli - məktəbəqədər siniflərdə hesablama təfəkkürünün inkişaf etdirilməsi" adlı təqdimatını tələbələrlə bölüşüb.

Seminar iştirakçıları - professor-müəllim heyəti, tədqiqatçılar və tələbələr müasir təhsildə süni intellektin rolu və hesablama düşüncəsinin erkən uşaqlıq dövründə inkişafı kimi aktual mövzularda dəyərli bilik və təcrübə əldə ediblər.

Seminar fikir mübadiləsi ilə yekunlaşıb.

## SEMINAR HELD WITH PARTICIPATION OF PROFESSORS FROM MICHIGAN AND BOĞAZIÇI UNIVERSITIES

On April 30, a seminar was held at Khazar University featuring Dr. Hartman Douglas Keith, Professor of Teacher Preparation at the Education Department of Michigan State University, United States, and Prof. Dr. Dilek Altun, Dean of the Education Department from Boğaziçi University, Türkiye.

During the seminar, detailed discussions with participants were conducted around two main topics. Prof. Hartman Douglas delivered a presentation on "Designing AI-enhanced professional development that empowers teaching and learning."

Following this, Prof. Dr. Dilek Altun shared her presentation titled "Computational thinking: Play, patterns, and problem-solving: Developing computational thinking in preschool classrooms" with the students.

Seminar participants – including faculty members, researchers, and students – gained valuable knowledge and experience on current topics such as the role of artificial intelligence in modern education and the development of computational thinking in early childhood.

The seminar concluded with an exchange of ideas.

# İSLAMABAD VƏQF UNİVERSİTETİNİN (FUI) NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ

Mayın 8-də Xəzər Universitetində İslamabad Vəqf Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə universitetin rektoru Muhammad Kaleem Asif, Beynəlxalq ofisin meneceri Amir Sajjad Khan və FUI əməkdaşı Amir Gulzar, Xəzər Universitetinin rektor vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Dr. Günel Bahəddinova, Fizika və elektronika departamentinin müdiri Dr. Fəridə Tatardar, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, İqtisadiyyat və menecment departamentinin müəllimi Dr. Məhəmməd Çərkəsov, Kompüter elmləri departamentinin müəllimi Hafiz Muhammad Azeem Akram iştirak ediblər.

Görüşdə ikitərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində müzakirələr aparılıb və Anlaşma memorandumu imzalanıb.

# DELEGATION FROM FEDERAL UNIVERSITY OF ISLAMABAD (FUI), AT KHAZAR UNIVERSITY

On May 8, a meeting was held at Khazar University with a delegation from the Federal University of Islamabad. The meeting was attended by the delegation led by the Rector of the University, Muhammad Kaleem Asif and FUI staff member Amir Gulzar, Acting Rector of Khazar University Prof. Mohammad Nuriyev, Dean of the Graduate School of Science, Art and Technology Dr. Gunel Bahaddinova, Head of the Department of Physics and Electronics Dr. Farida Tatardar, Head of the International Relations Department Fatima Valiyeva, and Lecturer of the Department of Economics and Management Dr. Mohammad Charkazov, lecturer of the Department of Computer Science and Computer Engineering, Hafiz Muhammad Azeem Akram.

During the meeting, discussions were held on strengthening bilateral relations, and a Memorandum of Understanding was signed.



*Hafiz Muhammad Azeem Akram, Amir Gulzar, Amir Sajjad Khan, Muhammad Kaleem Asif, Məhəmməd Nuriyev, Günel Bahaddinova, Fəridə Tatardar, Məhəmməd Çərkəsov*



*Mənsurə Əhmədova* *Ülvi Babasoy*

# ÜLVİ BABASOY: HEÇ BİR BƏDİİ MƏTNİ İNSAN HƏYATINDAN ÜSTÜN GÖRMÜRƏM

**– Ülvi müəllim, istərdim ki, söhbətə simvolik bir sual ilə başlayım. Oxucuların Ülvi Babasoyu necə tanımalarını istərdiniz?**

– "Məni belə və ya elə tanısınlar" demək bir az ritorik, pafoslu səslənə bilər. Yazdıqlarımla tanınmaq istərdim. Mən necəyəmsə və yazdıqlarım necədirsə, elə tanısınlar. Bilirsiniz, biz bəzən elə başa düşürük ki, ədəbiyyatşünaslıq, ədəbi tənqid ədəbiyyat haqqında fikir bildirən, təhlil aparan bir sahədir. Belə deyil, yaradıcı fəaliyyətdir. Ümumiyyətlə, insanın gördüyü bütün işlər yaradıcıdır.

Ədəbiyyatşünaslıq Qərbdə ciddi yaradıcılıq sahəsidir. Tutaq ki, bu gün mənim dərs vəsaiti kimi çap olunan kitabımdan danışırıqsa, onun özü belə tədris zamanı yaradıcılıq tələb edəcək. Ona görə də, "məni necə tanısınlar" sualına birmənalı cavab verməkçətindir. Hər insan bir kitabdır və onu sadəcə oxumaq lazımdır. Derrida deyirdi ki, dünya da bir mətndir. Lakin mən daha dərinə getmək istərdim. Mənə görə, hər bir insan kəşf olunmağı gözləyən bir dəfinədir. Deyə bilərsiniz ki, niyə xəzinə yox, dəfinə. Çünki xəzinə görünən olduğu halda, dəfinə axtarılıb tapılan bir şeydir. Bu baxımdan, əgər bir insan yaradıcı bir şəxsin mətnini oxuyur, onu anlayır, empatiya qurur və onunla ünsiyyətə girə bilirsə, demək o, müəyyən mənada o şəxsi tanıya bilir. Yəni tanınmağı mən belə düşünürəm. Və yaxud da bizdən sonra nələr qalacaqsa, odur tanınmaq. Necə ki, Nazim Hikmət Mikayıl Rəfiliyə yazdığı ağıda deyir:

Sahi, Mikail, şair olabilirdin,
Profesör oldun.
Ama mesele bunda değil.
Yapılan işin ya çok iyisi yaşıyor bizden sonra,
Ya çok kötüsü.
Seninki orta halliydi sanırım,
Benimki de öyle.
Yani, sesimiz bu kubbede kalacak diye
Tesellimiz yok.

Ben kendi payıma üzülmüyorum buna,
Tesellisiz yaşamayı becerdim,
Beceririm tesellisiz ölmesini de,
Senin gibi Refili.

Qızıl ortanı tapıb yaşasaq və yazsaq, bəsimizdir. Lakin yazdıqlarımız nə qədər dəyərli olsa da, mən heç bir bədii mətni insan həyatından üstün görmürəm, o yazı insan həyatına nəsə qatdığı zaman dəyər qazanır. Ona görə də, bir yazı müəllifini hər oxucuya fərqli tanıda bilər və yalnız oxuduqdan sonra oxucu özü qərar verməlidir məni necə tanıdığına.

**– Yəni hər yazdığınızda bir qədər Ülvi Babasoy var?**

– Bəli, hər oxucu başqa cür görəcək. Çünki ədəbiyyatda mətn hər zaman müəllifdən öncə gəlir. Məsələn, biz bir şairin bioqrafiyasını oxumadan onun poeziyasına heyran qala bilərik, lakin bioqrafiyasını oxuduğumuz zaman təəccüb dolu hallarla da qarşılaşmaq mümkündür.

**– Bu zaman belə çıxır ki, yaradıcılıq yanıldıcı ola bilər?**

– Biz bu halda ikitipli insan görə bilirik. O şəxsin həyatında nələrin olduğunu, prosesin arxa planını bilmədiyimiz üçün tam mühakimə etmək də düzgün deyil. Yaradıcı şəxsləri tanımağın ən gözəl yolu onların mətnləri ilə tanış olmaqdır. Mətn daha vacibdir. Mən yaşayan yazıçılarla görüşməkdənsə, yazılarını oxumağı daha üstün tuturam. Çünki bəzən canlı ünsiyyətdə olduğum yazıçıların məndə xəyal qırıqlığı yaratdığı anlar olub. Elə şair və yazıçılar var ki, həyatlarının qaranlıq dövrü var. Misal üçün, Cemal Süreya`nın ömrünün sonlarında yazdığı şeirlərdəki neqativ ab-hava həyatından doğur. Şair, demək olar ki, hər gün rakı içirmiş. Oğlu isə şairi döyürmüş. Çünki oğlu radikal dini qruplardan birinə qoşulubmuş. Radikal və maksimalist dəyərsizliklərlə yaşayan oğul və fiziki, psixoloji şiddətlərə məruz qalan ata. Bu anın ekzistensiyası qarşısında ədəbiyyat belə susur.

**– O zaman yazıçı mövzuları məqsədlimi seçir, yəni istənilən mövzunu işləyə bilərmi, yoxsa hər seçdiyi mövzu onun daxili dünyasını, xatirələrini və ya psixoloji durumunu yansıdır?**

– Xeyr, bu heç də tam olaraq belə deyil ki, müəllif nədən yazırsa, onun daxili dünyası da elə odur. Ən böyük bədii yaradıcılıq həqiqi mənada empatiya ilə bağlıdır. Tutaq ki, Qarsia Markes və ya Günter Grass tamamilə irreal dünyalar yaradırlar. Biz deyə bilmərik axı, onlar, doğrudan da, belə bir həyat yaşayıblar. Markes "Yüz ilin tənhalığı"nda bir nəslin yaranması, inkişafı və süqutunu təqdim edir. Estetik təqdimatdır bu. Buendialar nəsli əxlaqi və humanist dəyərlərdən imtina edəndə qiyamət qopur. Cənnət kimi yaratdıqları Makondanı həşəratlar basır, insestdən doğulan uşağı – nəslin son nümayəndəsini yeyirlər. Qrassın "Tənəkə təbil"ində Oskar illər keçsə də, 3 yaşında qalır, böyümür. Böyüyüb müharibələr törədən, xəyanətlər edən insanlardan olmaq istəmir. Markes və Qrass bu sehrli reallıqları fiziki olaraq yaşaya bilməzlər. Yəni bioqrafik deyil. Yazıçı romantik, fantastik və ya realist bir mətn yarada bilər. Əgər oxucu ona inanır və o fikirlərin, cümlələrin arxasınca gedirsə, məhz həmin yanaşmanın və cərəyanın reallığından söhbət gedə bilər. Deməli, yazıçının oyun estetikası baş tutub. Məsələn: oxucu fantastik reallığın içinə daxil olubsa, o dünyaya inanıbdır, deməli.

Ədəbiyyatda belə bir ifadə var: "Madam Bovari mənəm". Bu ifadə Flober`ə aid deyil, lakin onun "Madam Bovari" əsərindən daha məşhurdur. Nəticədə, Flober kişidir və onun öz cinsi konsentrasiyasından kənara çıxması qeyri-mümkün ikən bunu bacarır və belə bir qadın obrazı yaradır. Bu, empatiya ilə mümkündür. Hətta mən bunu bir yazımda "tarixin axmaq və gülünc məzəsi" kimi qeyd etmişdim. Qarsia Markes "Anlatmaq üçün yaşamaq" kitabında əsərlərindəki magik realizm elementlərinin ağıllarda yaratdığı suallara qarşı: "bu mənim həyatımdır, sadəcə mən Kafka`dan fərqli yazmaq necə olar, onu öyrəndim" deyir. Necə ki, Kafka "Çevrilmə" əsərini insanın böcəyə çevrilməsi ilə başlayır və oxucu bunun mümkün olmadığını bildiyi halda, cümlənin sehrinə qapılıb əsəri sona kimi oxuyur və həqiqətən də, empatiya qura bilir. Yəni yazıçılar bəzən ixtiyari, bəzən də

ixtiyarsız olaraq enerji ötürürlər oxuculara. Artıq onun necə yazılması və elitar sənət səviyyəsində işlənilməsi yazıçıya qalan məsələdir.

**– Belə olan halda düşünürəm ki, əsərlər müəlliflərinin bəzədilmiş bioqrafiyaları ola bilər.**

– Elə düşünmürəm! Bədii mətnlər həyatla bağlı nəsə yeni bir söz deməlidir. Bədii əsərlərin yeniliyi onların kəşflərində üzə çıxır. Bu, əslində, zaman-kontekst əlaqəsində özünü göstərir. Bu baxımdan, müəlliflərin bioqrafiyalarını oxumaq maraqlı ola bilər. Lakin əsas olan mətnin kontekstini düzgün anlamaq, onun daxilinə enməkdir. Yəni müəllifin əsəri niyə və nə şəkildə yazması bu məsələni izah edir. Milan Kundera "Dünya ədəbiyyatı" essesində çox vacib bir məqama toxunur. Qeyd edir ki, "Bəzən xalqların öz nümayəndələrindən daha çox başqa millətlərin üzvləri onların ədəbiyyatını daha yaxşı duyur və təqdim edir". Məsələn, fransız ədəbiyyatından Fransua Rable`ni ən yaxşı tədqiq edən rus tədqiqatçısı Mixail Baxtin idi. Dostoyevskini isə ən yaxşı öyrənən və təqdim edənlərdən biri fransız yazıçı Andre Gide idi. Ədəbi tənqid, ədəbiyyatşünaslıq və ya ədəbiyyat nəzəriyyəsi ilə məşğul olmaq, yəni mətn haqqında mətn yaratmağın özü də ciddi yaradıcılıq tələb edir. Bir tənqidçi və tədqiqatçı müəllifin bioqrafiyasını da oxuya bilər, lakin mətnin zaman və dövrlə əlaqəsi geniş panoram əsasında gözdən keçirilməlidir. Məsələn, Mixail Baxtin memarlığa aid olan xüsusiyyətləri bədii mətnin təhlilinə tətbiq edib. Bu, sizcə də, maraqlı deyilmi? Və yaxud da mənim ən sevdiyim strukturalistlərdən olan Rene Jirar özünün "Üçbucaq arzu" tezisini irəli sürür. Eyni zamanda, məsələləri cümlə üzvlərinin strukturu ilə izah edir. Siz dilçisiz, bu baxımdan sizin üçün maraqlı ola bilər. Bu, insan münasibətləri üçün də keçərlidir. Bir münasibətdə subyektiv və obyektiv dəyərlər, yəni tərəflər və reallaşan proses baş üzvlərdirsə, artıq tərəflərin hiss və düşüncələrini, arzu və niyyətlərini tənzimləyən məsələlər ikinci dərəcəli üzvlərdir. Rene Jirar "Don Kixot"dan başlayaraq özünün müasiri olduğu yazıçılara qədər əsərləri məhz arzu üçbucağı prinsipi ilə təhlil edir.

**– Bəlkə, arzu üçbucağı tezisini bir az açaq?**

– Servante`sin "Don Kixot" romanında Alanso Kixano`nun bayağı əsərlərin təsiri ilə təhtəlşüurunda bir cəngavər obrazı – Don Kixotu yaratması və bu obrazın beynində uydurduğu qadına – Dulsineya`ya aşiq olması artıq arzu üçbucağını ortaya çıxarır. Real həyatda var olmayan qadına aşiq olmaq isə "var olmayan eşqin var olan gözəlliyi" idi. Don Kixot bütün bunlardan məhz ölüm yatağında olarkən oyanır və məhz o an inandığı və bildiyi hər şeyin cəfəngiyat olduğunu anlayır. Don Kixot`un ölümü ilə, əslində, Avropa ədəbiyyatında yeni bir sənət tezisi formalaşır və bütün dəyərlər sistemi sorğulanır. Yəni tarixin bütün mərhələlərində bütün cərəyan və epoxalar həmin dövrün sosial, iqtisadi, mədəni vəziyyətinə reaksiya kimi formalaşır. Sənətkarın bioqrafiyası və zamanın təhlili də bu baxımdan vacib ola bilər.

**– Biz bu əsəri modernizmin ilkin səviyyəsi kimi qəbul edə bilərikmi?**

– Modernliklə modernizm bəzən qarışdırılır. Yeni bədii mətnlər, manifestlər, estetik bəyanatlar və davalar öz dövründə modern ola bilər. Ancaq modernizm ədəbi cərəyandır. XIX əsrin sonlarında ədəbiyyat da, elm də inkişaf istiqamətini dəyişdirir. Modernizm böyük paradiqma dəyişikliyi idi. XX əsrin əvvəllərində isə ədəbiyyatşünaslıqda belə bir dəyişikliyin adına modernist deyirlər. "Modernus" latın dilində "indi", "yeni başlayan" deməkdir. Buna görə də, deyə bilərik ki, hər bir dövr özündən əvvəlki mərhələyə nisbətən moderndir. XVIII əsrdə başlayan ictimai-siyasi, sosial-mədəni inkişaf fərdi düşüncəni aparıcı edir. Rasionalist düşüncə hər bir sahədə qabarıqlaşır. Modernizmdə ağıl və elm öz xaricindəki hər şeyi itələyir, öz qayda və təlimlərini əsas sayır. İnkarçı bir mövqedə dayanır. Modernizm hər bir məlumat və biliyi sistemləşdirməyə can atır, öz doğrularının üstünlüyünü irəli sürür və buna uyğun ierarxiya yaradır. Bu baxımdan ağıl və zəkanı əsas götürən Qərb düşüncə sisteminin zirvəsidir modernizm.

"Don Kixot" romanı öz dövrü üçün olduqca moderndir, yenidir. Lakin modernizm daha geniş anlayışdır və ədəbiyyatda kifayət qədər elitar və radikal hesab olunan modernist epoxa XIX əsrin sonlarından etibarən başlayır. Yəni Anna Karenina`nın üzərindən qatarın keçməsi, Emma Bovari`nin

zəhər içib ölməsilə o dövrdə mövcud olan roman ənənələri və metatəhkiyələr də o dünyalıq olur. Kafka "Məhkəmə" əsərində əlində səhəng olan şərq gözəli modelində bir qız təsvir edir. Bu epizodik obrazla geniş təsvir və təhkiyə ilə yaza biləcəyini göstərir, lakin fərqli bir üslub seçir. Əsər bir də nə o qızı göstərir, nə də elə səhnə yaradır. Elə yaza bilərəm, ancaq o cür yazmaq ənənəsi başa çatıb deyir Frans Kafka. Bu səhnə ilə Kafkadan XIX əsrin yazı üslubuna pəncərə açılır və bir daha açılmamaq şərtilə bağlanır. Bəs bu səhnə nə üçün var? Çünki Kafka Tolstoydan bu günə qədər olan estetik dəyərlərin və çevrilmələrin mərkəzində dayanır. Kafka`nın qəhrəmanı olan K. Daha çox antiqəhrəman idi. Deyə bilərsiz ki, bəs nəyə görə Tolstoy kimi böyük təhkiyəçilər bu qədər uzun təsvirə ehtiyac duyurdu. Baxın, bu artıq kontekstin zamanla əlaqəsidir. Həmin dövrdə hadisələrin cərəyan sürəti necə idisə, bu, özünü ədəbiyyatda da məhz elə göstəririd. Kafka`nın dövründə isə vəziyyət bir qədər fərqli idi. Zaman sürətli və çaparaq olduğu üçün ədəbiyyat da elə idi. Modernist ədəbiyyat tədricən narsizmi, narsizm isə faşizmi və ultra səviyyədə sağçıları formalaşdırdı. Ədəbiyyat beləcə insan həyatı ilə iç-içədir. Məsələn, Kafka`nın yazdığı "Qəsr" romanında insan həyatının qəsrə məhkum olunduğu bədii formada ifadə olunur. Əsərin qəhrəmanı K. Sevgilisi ilə məhrəm münasibətdə olmaq istədiyi halda, iki gözətçi roman boyu onun başından çəkilmir. Bu, müasir dövrdə texnologiyanın insan həyatına mütəmadi nəzarətinin ilkin bənzətməsidir. Bununla Kafka "tənhalığın lənəti"ni göstərmiş olur. Eyni məsələni biz diqqətlə analiz etsək, Milan Kundera`nın "Kimlik" romanında da görə bilərik. Hamilə qadının doplerdə müayinəsi zamanı körpənin akrobatik hərəkətlər zamanı öz bədəni ilə təmasda olması ekranda müşahidə edilir. Bu səhnə artıq "tənhalığın lənəti"nin üst səviyyəsi idi. Şəxsi həyatın ümumiləşməsi insanı daha da yalqızlaşdırır. Yəni ana bətnində belə məhrəmlik və intimliyin yox olması faktıyla üzləşirik. İndi isə mobil telefonlarımızın kameraları o məhrəmliyi pozan başlıca amildir. Ədəbiyyatda cərəyanlar və yazıçılar hər nə qədər bir-birlərinin davamı və əks reaksiyaları kimi görünsələr də, onların yaratmış olduqları yenilik daha vacibdir. Çünki təkrarın gözəlliyindənsə, yeniliyin gözəlliyi hər zaman daha dəyərli olub. Bu, Azərbaycan ədəbiyyatı üçün də keçərlidir. Nizami nə qədər dəyərli şair olsa da, Nəsiminin anadilli ədəbiyyat yaratması yeni mərhələ idi. Və yaxud da XIX əsrə qədər davam edən Füzuli ənənələri nə qədər vacib olsa da, Axundovun Füzulini şair hesab etməməsi, əslində, mövcud ənənəni qırmaq istəyinin nəticəsi idi.

**– O zaman yaradıcılıq hər zaman dövrə uyğunlaşmalıdırmı?**

– Xeyr, yaradıcılığın belə bir dərdi və ya öhdəliyi yoxdur. Biz onun qarşısına belə bir bir şərt qoya bilmərik, onsuz da, hər sənət əsəri dövrə reaksiya kimi üzə çıxır. Bu, sonradan da özünü göstərə bilər. Necə ki, Tolstoy illər sonra Fransa və Rusiya müharibəsini "Hərb və sülh" romanında təsvir etdi. Onu da deyim ki, biz bir romanı oxuyarkən hər hansı tarixi mənbədəki məlumatlardan daha çox o dövrü hiss edə və reaksiya verə bilirik. Yəni romanların məlumat vermək, informasiya yükünə sahib olmaq kimi bir özəlliyi də var. Tarixdən fərqli olaraq, daha canlı və qanlı.

**– Bəs qeyd etdiyiniz informativlik bədii mətnlərdə özünü hansı səviyyədə göstərir və bu, bütün dövrlər üçün keçərlidirmi, yoxsa postmodernizmdə daha aktualdır?**

– Bilirsiniz, roman yazmaq dövlət qurmaq kimidir. Təməlində ciddi məlumat yükü yatır. Və bəli, bu informativlik bütün dövrlərin mətnləri üçün keçərlidir. Ədəbiyyatda ən sadə informativ bir ifadə ən bədii enerjiyə çevrilmə potensialındadır. Məsələn, dəyərli şair Şəhriyar Gerani: "Yerin dibinə aparır bu şaquli darıxmaq" ifadəsi ilə çox sadə bir elmi yükü olan – "şaquli" sözündən estetik və effektiv bədii üsluba keçid etmiş olur. Və ya başqa bir nümunə, Milorad Paviç`in "Xəzər sözlüyü" kitabı xəzərlər və Xəzər xaqanlığı haqqında kifayət qədər məlumat verdiyi halda, bir o qədər də emosional yükə malikdir. Biz bu kitabı həm qadın, həm də kişi cinsində oxuya bilirik. Hətta Devid Damroş bu kitabı "zəhərli kitab" adlandırır. Niyə zəhərli? Böyük eksperimentlər aparan yazıçılar dünya ədəbiyyatındakı tendensiyaları dəyişir. Yoluxdurucudur.

**– "Ədəbiyyatda postmodernizm: oyun estetikası" kitabınızda postmodernizmin informasiya bolluğundan, imkan və alternativlərin çeşidliliyindən və bütün bunların yaratdığı xaosdan**

**bəhs etmisiniz. Sualım isə belə olacaq: bu xaos yaradıcılıq üçün yeni cığırlar açır, yoxsa, əksinə, yaradıcılığı öldürür?**

– İstənilən halda bunu pozitiv qarşılamaq lazımdır. Çünki yaxşı mətnin hansı cərəyana və ya dövrə aid olub-olmamasının elə bir əhəmiyyəti yoxdur. Məsələn, qəzəl janrı hal-hazırda aktual olmaya bilər. Lakin İlqar Fəhminin kifayət qədər gözəl qəzəllər yazması artıq bir faktdır. Bilirsiniz, ümumiyyətlə, postmodernizm xaos və kosmosu birlikdə götürür. Xaos ədəbiyyatın entropiyası hesab oluna bilər. Onu hər zaman mənfi düşünmək düzgün deyil. O bəzən mətndə çoxsəslilik, rəngarənglik yaradır. Yəni biz kosmosu qəbul etdiyimiz kimi, xaosu da qəbul etməyi bacarmalıyıq. Hətta elitar mətnləri oxuduğumuz kimi, bayağı mətnlərə də münasibət bildirə bilərik. Və bəzən bayağı mətnlər yaradıcı mətnlərdən daha çox şey öyrədə bilir. Postmodernizm qədər kanonları dağıdan ikinci bir cərəyan olmayıb. Bu da dövrün ab-havasının təsiridir. Mövcud homogen düşüncənin qarşısına çoxsəsli və çoxqatlı yanaşmanı və yazmağı qoyur. Məsələn, İtalo Kalvino "Bir qış gecəsi, əgər bir səyyah" romanında bütün təhkiyə metodlarını tənqid edir və lağa qoyur. Bu yolla astarı üzünə çıxmış, tiftiklənmiş üslublardan imtina edir.

**– Kitabda postmodernizmin ən vacib komponentinin "sərhədsiz və müdaxiləsiz azadlığın aşılanması" olduğunu qeyd etmisiniz. Bu nə dərəcədə düzgündür və ya biz bunu necə anlaya bilərik?**

– Bilirsiniz, hər kəsin qarşısındakını təhqir etmədiyi müddətcə istədiyi fikri səsləndirmək haqqı olmalıdır. Zatən postmodernizm də təhqir etmir, sadəcə ironiya edir. Umberto Eko`nun "Qızılgülün adı" əsərində zəhərli kitab kimi təqdim etdiyi əsər Aristotel`in "Poetika"sının günümüzə gəlib çatmayan II cildidir. Hansı ki, müəllif bu kitabda komediyadan danışmağı planlamışdı. Əgər bir şəxs və ya xalq gülməyi və ironiya etməyi bacarırsa, onu idarə etmək çətinləşir. Bütün məsələ də bundadır. Ona görə də postmodernizmin hər məsələsinə radikal yanaşmaq lazım deyil. Əgər bayağı nümunələr varsa, ola bilər, qoy olsun. Nəticədə, yaradıcı ədəbiyyat da var. Sadəcə bunların sərhədlərini düzgün tənzimləmək lazımdır. Tutaq ki, bir mətn nə qədər ciddi yazılıbsa, bir qədər də əyləncəli olmalıdır. Umberto Eko`nun dediyi kimi: "Həyat "Üç Muşketyor"dan çox "Uliss"ə bənzəyir. Halbuki, biz həyatı Coysun bir təhkiyəni nəql etməsi kimi deyil, Dümanın təhkiyə forması, əhvalatı kimi qəbul edir və yaşayırıq".

**– Ülvi müəllim, istərdim ki, posthəqiqət haqqında danışasınız.**

– Əslində, posthəqiqət bütün dövrlərdə olub. Lakin indi bir az fərqlidir. 2015-ci ildə bu söz ilin sözü seçildi və 2016-cı ildə də "Oxford" lüğətinə daxil edildi. Lakin qədim dövrə nəzər salsaq, yəhudilərin özlərini "seçilmiş xalq" hesab etmələri posthəqiqətə bir nümunədir. Yaxud da II Dünya müharibəsi ərəfəsində almanların özlərini "seçilmiş, üstün xalq" hesab etmələri yenə posthəqiqətdir. Atatürkün, əslində, kifayət qədər yerində işlətdiyi "nə mutlu türküm diyene" ifadəsinin özü də posthəqiqət nümunəsidir. Postmodernizmdə isə bu, özünü medianın insanları idarə etməsi və manipulyasiyası ilə göstərir. Umberto Eko posthəqiqət mövzusunu "Sıfır sayı" əsərində çox gözəl işləyib. Romanda dəfələrlə sayının çıxmasına baxmayaraq bir qəzetin hələ də sıfır sayında olması onu göstərir ki, insanlar hansı məlumatı istəyirsə, media da ona məhz o məlumatı ötürür. İnformasiya dövründə yaşadığımız üçün posthəqiqət də özünü bir az bu baxımdan fərqli göstərir. Bir tərəf üçün həqiqət qəbul edilən, digər tərəf üçün tamamilə yalan ola bilər. Yəni bu anlayış həm də dəyişkəndir. Əslində, hər şey dəyişkəndir, bu, fikirlərə də şamil oluna bilər. Məsələn, mənim üçün 2021-ci ilə qədər ən ideal dünyagörüş forması sosial demokratlıq idi, ədəbiyyatdan isə həyatı və hər şeyi sorğuladığı üçün ekzistensializm. Lakin bir gün həyatım dəyişdi və mən onlardan yaxşı dəyərləri götürüb, onlardan imtina etdim. Bu baxımdan Höte`nin tələbəsi Ekkerman`la maraqlı bir dialoqu var. Höte tələbəsi ilə söhbəti zamanı özünü Şekspir ilə müqayisə edir və Şekspiri çox yüksək qiymətləndirir. Qeyd edir ki, "Şekspir bizə gümüş boşqablar içində qızıl almalar təqdim edir və biz onun əsərlərini oxuduğumuz zaman gümüş boşqabları əldə etmiş oluruq. Lakin bizim o boşqablara qoyacaq yalnız kartofumuz var". Ona görə də, hər şey dəyişir, proseslər çoxalır və zaman sürətlənir, bizim isə sadəcə seçim haqqımız var. Biz ayaqüstü kitablar oxuyur, ayaqüstü musiqilər dinləyir

və ayaqüstü yeməklər yeyirik. Yəni həyatımız da "fəstfudlaşıb". Ona görə də, ciddi ədəbiyyata bu gün dəyərindən çox-çox aşağı münasibət mümkündür. Bunun özü ciddi müzakirə mövzusudur. Biz artıq postnormal dövrdə yaşayırıq. Sosioloqların təbirilə desək, naməlumluq əsridir 21ci əsr. Bu dinamik zamanda bəzən həyatı yaşaya bilmək üçün sitatikliyə ehtiyac duyulur.

**–Kitabınızda "Newage" estetikasının Patrik Züskind`in "Parfümer" əsəri ilə izahı da diqqətçəkən məqamlardandır. Çünki əsər bu ideyanı həm təkzib, həm də təsdiq edir. Qrenuy`un qoxu ilə kollekiv şüuru manipulyasiya etməsi və kollektivdə bir xaos yaratması yeni era estetikasının prinsipləri ilə ziddiyyət təşkil edirmi? Eyni zamanda, Qrenuy`un "ilahilik" axtarışında olması və sahib olduğu psixoloji durum yeni era insanının obrazı hesab oluna bilərmi?**

– Bu, əslində, normal haldır. Biz postmodernist mətndə eyni anda bir neçə istiqamət görə bilərik. Əgər bu mövzuya ədəbiyyatşünaslıq baxımından yanaşsaq, yeni üslub, yeni çağ kimi anlamaq olar. Məsələn, Dostoyevski`nin yaratdığı Raskolnikov obrazı törətdiyi cinayətə görə vicdan əzabı çəkir və sosial fakt ortaya çıxır. Lakin "Parfümer"də qəhrəman cinayət törədib sənət əsəri – ətir yaradır və bir qisim oxucu qatilə hətta heyranlıq duyur. Bu kimi özünəheyranlıq, insanaheyranlıq məqamları nəticədə narsizm, faşizm kimi ideologiyaları və Hitler kimi, Stalin kimi ideya sahiblərini ortaya çıxarır. Paskal Kazanova`nın "Dünya ədəbiyyatı respublikası" kitabı dünya ədəbiyyatının nə qədər manipulyativ bir ifadə olduğunu izah edir. Kitabın orijinal adı isə "Dünya hərflər respublikası"dır. Lakin Devid Damroş bu əsərə istinadən qeyd edir ki, bu kitab "Paris hərflər respublikası" olsaydı, daha yaxşı olardı. Çünki kitab tamamilə fransız ədəbiyyatı təməlində yazılıb. Fikir verirsinizsə, burda da belə fərqli bir məqam ortaya çıxdı. Ona görə də, bu əsərin də o tərzdə yazılması təsadüfi deyil.

**– Qeyd etdiyiniz bütün bayağılıq və yaradıcılıqla birlikdə postmodernist mətnlər axı həm də açıq mətn üslubundadır və ehtimallarla dolu olur. Kitabınızda izah etdiyiniz kimi istərdim, mətnlərdə ehtimal konsepsiyasından da bir az danışaq. Bilirik ki, ehtimal konsepsiyası oxucu-müəllif münasibətini dəyişir. Müəllif-mətn-oxucu kontekstində müəllifin məqsədi ilə oxucuların şərhləri toqquşa bilərmi? Toqquşursa, müəllifin məqsədi harda dayanır? Yoxsa məqsədin özü fərqli şərhlərin ortaya çıxmasıdır?**

– Bəli, bu, mümkün haldır. Hər oxucu fərqli bir ehtimal yaradır. Bəzən tənqidçilər əsərlərə elə şərhlər verə bilərlər ki, bu, müəllifin özünü belə təəccübləndirə bilər. Bu nədən yaranır, bilirsinizmi? Bu, bədii enerjinin nə qədər çoxsəsli olduğunun nəticəsidir. Onlar bir-birini inkar etmir. Hər biri öz yerində gözəldir. Necə ki, bir şəxs hər yaş dövründə eyni mətndən fərqli impuls alır, bu hal hamı üçün keçərlidir. Bunların olması bir mətnin dəyərindən və gözəlliyindən heç nə əskiltmir. Sizə maraqlı bir nümunə deyə bilərəm. Yıldız Ecevit Orhan Pamuk`un "Yeni hayat" romanını bir-birindən əlaqəsiz yeddi fərqli üslubda təhlil edir. Bunun özü mətnlərin enerjisindən və çoxsəsliliyindən irəli gəlir.

**– Dəyərli söhbət üçün təşəkkür edirəm, Ülvi müəllim. Sağlıqla qalın.**

–Təşəkkür edirəm.

**Söhbətləşdi:**
*Mənsurə Əhmədova*




# II BEYNƏLXALQ OPERA FESTİVALININ NÖVBƏTİ KONSERTİ XƏZƏR UNİVERSİTETİNDƏ

Azərbaycanın xalq artisti Fidan Hacıyevanın II Beynəlxalq Opera Festivalının (23-29 aprel) növbəti konserti 2025-ci il aprelin 28-də Xəzər Universitetində keçirilib."Operanın gələcəyi, yeni nəfəs" adlı konsertdə gənc vokalçılar - Azərbaycan Milli Konservatoriyası və Azərbaycan Dövlət Tibb Universitetinin tələbələri Xəzər Universiteti Kamera orkestrinin (bədii rəhbər universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova) müşayiəti ilə Azərbaycan və dünya opera və operetta sənətindən nümunələr, mahnı və romanslar ifa etmişlər.

Beynəlxalq müsabiqələr laureatı Aydın Süleymanov və Nurlana Əsgərova Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından Telli və Vəli duetini oxumuşlar. Rəhim Xəlilov, Ayan Bayramova, Ruslan Persan, Şəms Cəfərova, Asim Muradov, Anar Həmidli, Regina Məcidova və digərləri də çıxış ediblər. Fidan Hacıyeva fransız bəstəkarı Jorj Bize`nin "Karmen" operasından "Habanera" ariyasını səsləndirib.

Konsertin sonunda Fidan Hacıyeva tələbələri ilə birgə Müslüm Maqomayevin "Azərbaycan" mahnısını ifa edib.

Fidan Hacıyevanın II Beynəlxalq Opera Festivalı aprelin 29-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında "Viva Opera" qala-konserti ilə başa çatıb.



# II INTERNATIONAL OPERA FESTIVAL'S NEXT CONCERT AT KHAZAR UNIVERSITY



*Ruslan Persan*

The next concert of the II International Opera Festival of Azerbaijan's People's Artist Fidan Hajiyeva (April 23-29) was held at Khazar University on April 28, 2025. At the concert titled "Future of Opera, New Breath," young vocalists - students from Azerbaijan National Conservatory and Azerbaijan State Medical University performed examples from Azerbaijani and world opera and operetta art, songs and romances accompanied by Khazar University Chamber Orchestra (artistic director is the head of the university's Music and Art Department, honored teacher, pianist Zulfiyya Sadiqova). International competition laureates Aydin Suleymanov and Nurlana Asgarova performed the duet of Telli and Vali from Uzeyir Hajibeyli's operetta "Arshin Mal Alan." Rahim Khalilov, Ayan Bayramova, Ruslan Persan, Shams Jafarova, Asim Muradov, Anar Hamidli, Regina Majidova and others also performed. Fidan Hajiyeva sang the aria "Habanera" from French composer Georges Bizet's opera "Carmen."



*Altun Süleymanov*

At the end of the concert, Fidan Hajiyeva performed the song "Azerbaijan" by Muslim Magomayev together with the students.

Fidan Hajiyeva's II International Opera Festival concluded with the "Viva Opera" gala concert at the Azerbaijan State Philharmonic named after Muslim Magomayev on April 29.



SABAH qrupları

## "MÜHİT VƏ ŞƏHƏR ƏRAZİSİNİN ABADLAŞDIRILMASI" MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON "ENVIRONMENT AND URBAN AREA IMPROVEMENT"

Memarlıq və dizayn departamentinin və Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin "Sabah Qrupları Layihəsi"-nin təşkilatçılığı ilə aprelin 30-da Dokuz Eylül Universitetinin (Türkiyə) Memarlıq fakültəsinin Şəhər və bölgə planlama bölümünün professoru Ebru Çubukçu`nun təqdimatında "Mühit və şəhər ərazisinin abadlaşdırılması" mövzusunda seminar keçirilib.

Seminarda Memarlıq və Dizayn ixtisaslarında təhsil alan tələbələr və həmin ixtisasların müəllim heyəti iştirak ediblər. Təqdimat əsnasında şəhər planlaması və mühitin abadlaşdırılması mövzusunda nəzəri və praktiki biliklər paylaşılıb. Ebru Çubukçu şəhər mühitlərinin davamlı inkişafı və abadlaşdırılmasının önəmi barədə ətraflı məlumat verərək, müasir şəhərin inkişafının təkmilləşdirilməsi ilə bağlı maraqlı müzakirələr aparıb.

Seminarda Sabah Mərkəzinin müdiri Pərvin Quli-



*Ebru Çubukçu*





*Şəhla Abbasova (Memarlıq və dizayn departamenti)*

*Pərvin Quliyeva*

yeva da iştirak edib. O, şəhər planlaması sahəsindəki təcrübələrini tədbir iştirakçıları ilə bölüşüb.

Seminar iştirakçılara mühitin və şəhər ərazilərinin inkişaf etdirilməsi mövzusunda əlavə bilik və təcrübə qazandırmaqla yanaşı, həmkarlar arasında fikir mübadiləsi və gələcək əməkdaşlıq üçün yeni imkanlar da yaratmışdır.

On April 30, a seminar titled "Environment and Urban Area Improvement" was held through the joint initiative of the Department of Architecture and Design and the State Agency for Science and Higher Education's "SABAH Groups Project." The event featured a presentation by Professor Ebru Çubukçu from the Department of Urban and Regional Planning at the Faculty of Architecture, Dokuz Eylul University (Türkiye).

Attendees included students and faculty members of Architecture and Design programs. The presentation provided both theoretical and practical insights into urban planning and environmental improvement. Professor Çubukçu delivered a detailed talk on the significance of sustainable development and the revitalization of urban spaces, sparking a dynamic discussion on the enhancement of modern urban environments. Pervin Guliyeva, Head of the SABAH Center, also took part in the seminar, sharing her professional experience in urban planning with participants.

The seminar not only enriched participants' understanding of environmental and urban development but also fostered professional exchange and opened doors to future collaboration among peers.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ BEYNƏLXALQ SİMPOZİUMDA

## LECTURER OF DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY AT AN INTERNATIONAL SYMPOSIUM

Tarix və arxeologiya departamentinin müəllimi Dr. Nurlan Nəsirov aprelin 30-da Türkiyənin Marmara Universitetində keçirilən "I. Uluslararası Türk-İslam araşdırmaları simpoziumun"a onlayn qatılaraq, "İlxanlı hökmdarlarının dini və məzhəb siyasətlərinin Azərbaycanda dövlət idarəçilik sistemi üzərindəki təsirləri" mövzusunda məruzə etmişdir

Dr. Nurlan Nasirov, lecturer at the Department of History and Archaeology, participated online in the 1st International Symposium on Turk-Islamic Studies held at Marmara University in Türkiye on April 30. He delivered a presentation on "The Influence of the Religious and Sectarian Policies of the Ilkhanid Rulers on the State Governance System in Azerbaijan."



# "TÖHMƏTDƏN-TÖHMƏTƏ" BİR NƏZƏR

*Nigar Ələsgərli, Aydan Əliyeva*

**Hörmətli Əlirza müəllim!**

"Xəzər Xəbər"in iki sayında dərc olunmuş "Töhmətdən töhmətə" adlı məqalənizi (*Əlirza Balayev. "Töhmətdən töhmətə". "Həyatın hər üzü" adlı sənədli romandan hissə, fevral-mart 2025-ci il* – **redaksiya**) diqqətlə oxuduq və böyük təsir altında qaldıq. Sözün həqiqi mənasında bu yazı bizim üçün – müstəqil Azərbaycanda dünyaya göz açmış və Sovet hakimiyyətini yalnız arxiv sənədlərindən, elmi ədəbiyyatlardan, müəllimlərimizin dərslərindən tanıyan gənclər üçün həm maarifləndirici, həm də sarsıdıcı məqamlarla zəngin idi. Yazını sadəcə bir jurnalist məqaləsi kimi deyil, keçmişi anlamağın, bu günümüzə təsirini dərk etməyin və gələcəyə daha sağlam baxmağın bir açarı kimi qəbul etdik.

Biz Xəzər Universitetinin tələbələri olaraq dərslərimiz zamanı Sovet dövründə baş vermiş ictimai-siyasi hadisələri daha dərindən öyrənməyə çalışırıq. Xüsusilə də folklor fənni çərçivəsində müəllimimiz, Dos. Aynur Qəzənfərqızının verdiyi tapşırıqlar sayəsində bu dövrə marağımız artdı. Folklor dərslərinin birində müəllimimiz bizə "qaçaqlar" mövzusu ilə bağlı araşdırma təqdim etməyi tapşırdı və xüsusi olaraq vurğuladı: "Çalışın, bu mövzuya müstəqillik dövründə aparılmış tədqiqatlar əsasında yanaşasınız. Sovet dövrü araşdırmalarına çox da etibar etməyin."

Etiraf etmək lazımdır ki, ilk başda bu göstərişə ciddi mənada yanaşmadıq və daha əlçatan olan sovet dövrü mənbələrinə üz tutduq. Lakin dərs zamanı müəllimimizin həmin mənbələrə əsaslandığımızı hiss etməsi və bununla bağlı üzülərək bildirdiyi tənqid bizi düşünməyə vadar etdi. Daha sonra Dos. Aynur Qəzənfərqızı bizə müstəqillik dövründə qaçaqlar haqqında yazılmış tədqiqatlardan nümunələr təqdim etdi və bu zaman aydın oldu ki, sovet folklorşünaslığında bu mövzu necə təhrif olunmuş şəkildə təqdim olunub.

Qaçaqlar – yəni xalqın azadlıq və ədalət uğrunda mübariz simaları sovet ideologiyası çərçivəsində "oğru", "qanun pozan" kimi təqdim edilirdi. Halbuki, Azərbaycanın bir çox bölgələri – xüsusən də bizlərin doğulub böyüdüyü məkanlar tarixən "qaçaqlar yurdu" kimi tanınıb və bu obrazlara xalq arasında xüsusi rəğbət bəslənilib. Ailəmizdən, nənə-babalarımızdan eşitdi-

yimiz qəhrəmanlıq hekayələri ilə sovet dövründəki tədqiqatlar arasında ciddi ziddiyyət olduğunu gördük.

Bu fərqlər bizdə yeni bir baxış formalaşdırdı və Sovet dövründə təkcə folklorun deyil, ümumilikdə ideoloji təsir altında olan elmin necə yönləndirildiyini anlamağıza səbəb oldu. Bu maraq və axtarış nəticəsində həm elmi, həm də vətəndaş mövqeyimiz formalaşmağa başladı. Müəllimimiz bizə tədqiqatla məşğul olub-olmadığımızı soruşduqda tərəddüdsüz şəkildə Sovet dövrü irsinin ideoloji cəhətləri ilə bağlı araşdırmalar aparmaq istədiyimizi bildirdik.

Bu maraq bizi tədqiqat fəaliyyətinə sövq etdi. Bu məqalənin müəllifləri olaraq, Aydan Əliyeva Qırğızıstanın Oş şəhərində keçirilmiş IX Gənc Türkoloqlar Simpoziumunda "Sovet dövrü ideoloji təsir və şifahi xalq ədəbiyyatı" adlı məqaləsi ilə çıxış etdi. Eləcə də Bakı Avrasiya Universitetində keçirilmiş tələbə elmi konfransına "Sovet dövrü folklorşünaslığında toplanmış materialların dili və üslubu" adlı məruzəsi ilə qatılmışdır. Nigar Ələsgərli isə həmin universitetdə təşkil olunmuş elmi tədbirdə "Toktoğul və S.Ə.Şirvani yaradıcılığında dil - üslub xüsusiyyətləri" adlı təqdimatıla çıxış etdi. Bu məruzələrdə məqsədimiz təkcə elmi nəticələr əldə etmək deyil, həm də Sovet dövründəki elmi fəaliyyətin mahiyyətini, tədqiqat obyektinə münasibətdə təhrif və manipulyasiyanı göstərmək, gənc tədqiqatçılar olaraq bu məsələləri ictimai müzakirəyə çıxarmaq idi.

Lakin sizin "Töhmətdən töhmətə" adlı məqalənizi oxuduqda anladıq ki, həmin dövrün hadisələri hələ də bizlər – sovet dövrünü yaşamamış gənclər üçün də dərin mənəvi iz buraxan bir reallıqdır. Bu təsirləri yalnız tarix kitablarından yox, sizin kimi sözün, düşüncənin, həqiqətin adamı olan ziyalılarımızın yazılarından hiss edirik. Çünki burada qələmə alınanlar təkcə bir insanın həyatı və təcrübəsi deyildi – bu, bütöv bir dövrün mənəvi-psixoloji atmosferi idi. Məlum oldu ki, sovet dövrünün zəncirləyici və məhdudlaşdırıcı mexanizmləri təkcə fiziki deyil, həm mənəvi, həm də bütöv bir nəsli psixoloji təzyiq altında formalaşdırmışdır.

Hörmətli Əlirza müəllim, bu yazınızla siz bizə bir daha göstərdiniz ki, keçmişi unutmamaq, onu düzgün dəyərləndirmək və ondan nəticə çıxarmaq bu günün maarifçi gəncliyinin əsas vəzifəsidir. Sizin kimi ziyalıların varlığı, Xəzər Universitetində belə milli ruhlu müəllimlərin mövcudluğu biz gənclər üçün həm ruhlandırıcı, həm də məsuliyyət yükü yaradan bir amildir. Xəzər Universitetində təhsil almağın verdiyi elmi perspektivlə yanaşı, sizin simanızda tanıdığımız ziyalı ruh bizi gələcəkdə ölkəmizin elmi və mənəvi yüksəlişinə töhfə vermək istəyimizdə daha da qətiyyətli edir. Sizə bu maarifləndirici və cəsarətli yazıya görə təşəkkür edirik! İnanırıq ki, belə yazılar və elmi mövqelər yeni nəslin formalaşmasında mühüm rol oynayacaq.

**Dərin hörmətlə,**

**Aydan Əliyeva**
*Filologiya (Azərbaycan dili və ədəbiyyatı), 1-ci kurs*

**Nigar Ələsgərli**
*Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası, 1-ci kurs*
*Humanitar, təhsil və sosial elmlər fakültəsi*

# BİZNES-SƏNAYE KLUBUNUN (KUBIC) NÜMAYƏNDƏLƏRİ İLƏ TƏLƏBƏLƏRİN GÖRÜŞÜ






*Ələvsət Əmirbəyli*

# MEETING BETWEEN BUSINESS-INDUSTRY CLUB (KUBIC) REPRESENTATIVES AND STUDENTS

Mayın 1-də Xəzər Universitetinin Mərmər salonunda "Biznes nümayəndələrinin tələbələrlə görüşü" adlı tədbir keçirildi. Görüş universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının təşəbbüsü ilə 27 fevral tarixində yaradılmış Biznes-Sənaye Klubunun (KUBIC) təşkilatçılığı ilə baş tutdu.



*Süleyman Məcidli*

Tədbiri Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Ələvsət Əmirbəyli açaraq, iştirakçıları salamladı və tədbirin məqsədi barədə ətraflı

On May 1, Khazar University hosted an event titled "Meeting Between Business Representatives and Students" in the university's Marble Hall. The gathering was organized by the Business-Industry Club (KUBIC), established on February 27, on the initiative of the university's founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli.

The event was opened by Director of Public Relations and Media at Khazar University, Alovsat Amirbeyli, who welcomed the participants and provided detailed information about the purpose of the meeting. The moderator of the event was Dr. Jamala Eldarova, Head of the Department of Life Sciences.

Members of KUBIC's Board of Directors—business representatives from various sectors—attended the event and shared their career journeys with students. Among them were Süleyman Majidli, CEO of ENERGAZER; Ruslan Humbatov, founder and director of HRC GROUP and Deputy Director of Bakuelectronics; Zaur Gadirov, Managing Partner of Financial Chain Corporation; and Arash Nosrati, CEO of Parla Pharmaceuticals. Each speaker delivered insightful remarks on the latest developments in the business world, current challenges, and key strategies for success.

Süleyman Majidli outlined the purpose behind the creation of KUBIC, its founding stages, logo, vision, and operational directions. He emphasized the club's role in offering students significant opportunities for professional development, networking, and participation in diverse projects.



*Ruslan Hümbətov*

məlumat verdi. Görüşün moderatoru universitetin Həyat elmləri departamentinin müdiri Dr. Cəmalə Eldarova oldu.

Tədbirdə KUBIC-in İdarə Heyətinin üzvləri – müxtəlif sahələri təmsil edən biznes nümayəndələri: ENERGAZER şirkətinin baş icraçı direktoru Süleyman Mecidli, HRC GROUP-un təsisçisi və direktoru, eyni zamanda Bakuelectronics şirkətinin direktor müavini Ruslan Hümbətov, Financial Chain



*Zaur Qədirov*

Corporation-un idarəedici tərəfdaşı Zaur Qədirov və Parla Pharmaceuticals şirkətinin baş icraçı direktoru Arash Nosrati iştirak edərək, tələbələrlə karyera təcrübələrini bölüşdülər. Onlar biznes mühitindəki son

*(Ardı səh.62-də)*

Ruslan Humbatov provided details on internship and recruitment opportunities offered through the club, stressing the importance of gaining real-world work experience.

Zaur Gadirov introduced upcoming seminars, workshops, scholarship programs, summer schools, and international exchange initiatives planned by the club. He underlined the significance of equipping students with global perspectives and competitive skills.

Arash Nosrati spoke about KUBIC's startup accelerator program, explaining how it supports students



*Arash Nosrati*

in refining innovative ideas, realizing their entrepreneurial potential, and pitching their ventures on an international scale through mentorship, funding, and networking resources.

During the interactive session, students actively engaged with the speakers, posing questions on topics such as internships, international collaborations, mentorship, academic support, startup development, and career building. The presenters responded comprehensively and enthusiastically, showing great attentiveness to the students' interests.

The event concluded with a note that this meeting marked the initial step in KUBIC's journey. Plans for larger-scale projects, new partnerships, and international collaborations are underway. The Business-Industry Club is steadily evolving into a pivotal platform for fostering students' knowledge, skills, and entrepreneurial thinking within the university.

yeniliklər, mövcud çağırışlar və uğur strategiyaları barədə dəyərli məlumatlar təqdim etdilər.

Süleyman Məcidli çıxışında KUBIC-in yaradılma məqsədi, təşəbbüsün yaranma mərhələləri, klubun loqosu, vizionu, fəaliyyət istiqamətləri barədə danışdı. O, klubun tələbələr üçün peşəkar inkişaf, şəbəkələşmə və layihələrdə iştirak imkanları baxımından geniş üstünlüklər yaratdığını qeyd etdi.

Ruslan Hümbətov klub çərçivəsində təqdim olunacaq təcrübə və işə qəbul imkanları haqqında məlumat



verərək, tələbələrin real iş mühitində təcrübə qazanmasının əhəmiyyətini nəzərə çatdırdı.

Zaur Qədirov isə klubun planlaşdırdığı seminar, vorkshoplar, təqaüd proqramları, yay məktəbləri və beynəlxalq tələbə mübadilə proqramları haqqında geniş məlumat verdi, tələbələrin qlobal düşüncə tərzi və rəqabətə davamlı bacarıqlar qazanmasının önəmini vurğuladı.

Arash Nosrati isə KUBIC-in startap akselerator proqramından danışdı. O, bu proqramın tələbələrin öz innovativ ideyalarını inkişaf etdirmələri, sahibkarlıq potensiallarını reallaşdırmaları və beynəlxalq səviyyədə təqdim etmələri üçün yaratdığı mentorluq, maliyyə və şəbəkələşmə imkanlarını açıqladı.

Tədbirin interaktiv hissəsində çoxsaylı tələbələr məruzəçilərə təcrübə proqramları, xarici əməkdaşlıqlar, mentorluq, akademik dəstək, startap inkişafı və karyera quruculuğu ilə bağlı suallar ünvanladılar. Spikerlər hər suala ətraflı və həvəsləndirici cavablar



verərək, tələbələrin maraqlarını yüksək dərəcədə nəzərə aldılar.

Tədbirin sonunda qeyd olundu ki, bu görüş KUBIC-in fəaliyyətinin ilk addımıdır və gələcəkdə daha genişmiqyaslı layihələr, yeni tərəfdaşlıqlar və beynəlxalq əməkdaşlıqlar planlaşdırılır. Biznes-Sənaye Klubu universitet daxilində tələbələrin bilik, bacarıq və təşəbbüskar düşüncələrinin inkişafı üçün əhəmiyyətli bir platformaya çevrilməkdədir.



## DEPARTMENT HEAD DISCUSSES PAKISTAN-INDIA RELATIONS ON "HADAF" PROGRAM

## DEPARTAMENT MÜDİRİ "HƏDƏF" PROQRAMINDA PAKİSTAN-HİNDİSTAN MÜNASİBƏTLƏRİNİ MÜZAKİRƏ ETDİ

Mayın 7-də AZTV-də yayımlanan "*Hədəf*" proqramının xüsusi buraxılışında Pakistan-Hindistan münasibətləri və bölgədəki geosiyasi proseslər müzakirə olunub. Verilişdə xüsusilə Hindistanda Modi hakimiyyətinin Hindu milliyyətçiliyinə yönəlməsi və bunun ölkədəki dini, məzhəb və etnik müxtəlifliyə təhlükə yaratdığı vurğulanıb.

Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu proqramda çıxışı zamanı Hindistanın tarixən müsəlman türklərlə bağlılığını qeyd edib. O bildirib ki, Qəznəvi Mahmuddan başlayaraq Dehli Sultanlığı və Babür dövrünə qədər Hindistanın təxminən 700 illik bir mərhələsi türk-müsəlman mədəniyyəti ilə səciyyələnib. Tac Mahal başda olmaqla, UNESCO-nun siyahısına daxil olan əsas abidələrin əksəriyyəti məhz bu dövrdə inşa olunub.

Proqramda həmçinin Əkbər Şah dövründəki tolerantlıq siyasətindən, Kəşmir məsələsinin tarixi və hüquqi əsaslarından, 1948-ci ildəki BMT qərarına əsasən keçirilməli olan referenduma toxunulub.

Verilişdə Pakistanın Azərbaycanın və Türkiyənin yaxın müttəfiqi olduğu və bölgədəki radikal qrupların əsasən xarici xüsusi xidmət orqanlarının təsiri altında fəaliyyət göstərdiyi də bildirilib. Çin-Pakistan əməkdaşlığı və ABŞ-Hindistan yaxınlaşmasının bölgədəki gərginlikləri daha da artırdığı qeyd olunub.

Telman Nüsrətoğlu çıxışında Kəşmirin Pakistan üçün "Misak-ı Milli" olduğunu vurğulayıb və bu bölgənin strateji mövqeyinə diqqət çəkərək, yaşanan gərginliyin təsadüfi olmadığını bildirib.

On May 7, Pakistan-India relations and ongoing geopolitical developments in the region were discussed during a special broadcast of the "*Hadaf*" program aired on AZTV. The program particularly highlighted how the Modi administration in India has leaned toward Hindu nationalism, posing threats to the country's religious, sectarian, and ethnic diversity.

Associate Professor Telman Nusratoghlu, Head of the Department of History and Archaeology at Khazar University, participated in the program and emphasized India's historical ties with Muslim Turks. He noted that from Mahmud of Ghazni to the Delhi Sultanate and the Mughal Empire, India experienced nearly 700 years characterized by Turkic-Muslim cultural influence. He also mentioned that most of the major monuments now included in UNESCO's World Heritage list, including the Taj Mahal, were built during this era.

The discussion further addressed Akbar Shah's policy of tolerance, the historical and legal basis of the Kashmir issue, and the referendum mandated by the United Nations in 1948.

The program also underlined Pakistan's strong alliance with Azerbaijan and Türkiye, and it was suggested that many radical groups in the region operate under the influence of foreign intelligence agencies. Additionally, the growing cooperation between China and Pakistan and the strategic alignment between the United States and India were noted as contributing factors to increased regional tensions.

During his remarks, Telman Nusratoghlu stated that Kashmir represents a "Misak-ı Milli" for Pakistan, highlighting the region's strategic importance and emphasizing that the ongoing tensions are far from coincidental.

## DİLLƏR BÖLMƏSİ KOORDİNATORUNUN MƏQALƏSİ *"TÜRK DİLLƏRİNİN MÜQAYİSƏLİ TƏDQİQİ"* KİTABINDA




Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin Dillər bölməsinin koordinatoru Dr. Sevinc Qəmbərlinin həmmüəlliflərindən biri olduğu "*Türk dillərinin müqayisəli tədqiqi*" kitabı işıq üzü görmüşdür.

Kitab AMEA Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin aparıcı elmi işçisi Dos. İnci Qasımlının təşkilatçılığı ilə ərsəyə gəlmişdir. Kitabda 10-dan çox türkoloq-alimin müxtəlif türk dillərinə aid olan araşdırmaları və bu dillərə məxsus lüğətlər yer almışdır.

## ARTICLE BY COORDINATOR OF LANGUAGE DIVISION IN BOOK TITLED *"TÜRK DİLLƏRİNİN MÜQAYİSƏLİ TƏDQİQİ"*

A new book titled "*Comparative Study of Turkic Languages*", co-authored by Dr. Sevinj Gambarli, Coordinator of the Language Division at the Department of Languages and Literatures of Khazar University, has been published.

The book was brought to life under the initiative of Assoc. Prof. Inji Qasimli, Senior Research Fellow at the Department of Source Studies and Publication of Written Monuments at the Institute of Oriental Studies named after Academician Ziya Bunyadov of ANAS. The volume features studies by more than ten Turkologist scholars, encompassing various Turkic languages and dictionaries specific to those languages.

YeniTV

## DEPARTAMENT MÜDİRİ *YENİ TV*-DƏ

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev 2025-ci il mayın 21-də Yeni TV-də "TDT (Türk Dövlətləri Təşkilatı) geostrateji çağırışlar qarşısında" mövzusunda çıxış etmişdir. Çıxışında, dosent Vəliyev təşkilatın yeni dünya düzənində yeri və rolu haqda öz fikirlərini paylaşmış, TDT-nin Azərbaycanın xarici siyasətindəki önəmini və Azərbaycanın münasibətlərin inkişafına olan töhfəsini vurğulamışdır.

## HEAD OF DEPARTMENT ON *YENI TV*

Assoc. Prof. Orkhan Valiyev, Head of the Department of Political Science and Philosophy at Khazar University, gave a speech on Yeni TV on May 21, 2025, on the topic of "OTS (Organization of Turkic States) Facing Geostrategic Challenges." In his speech, Assoc. Prof. Valiyev shared his views on the place and role of the organization in the new world order, and emphasized the importance of the OTS in Azerbaijan's foreign policy and our country's contribution to the development of relations.

*Link: https://www.youtube.com/watch?v=_bQazoRF37w&ab_channel=YeniTV*

## DİLLƏR BÖLMƏSİNİN KOORDİNATORUNUN HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ "*AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ*" JURNALINDA

## ARTICLE CO-AUTHORED BY COORDINATOR OF LANGUAGES DIVISION PUBLISHED IN TEACHING OF *AZERBAIJANI LANGUAGE AND LITERATURE* JOURNAL

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamenti Dillər bölməsinin koordinatoru Sevinc Qəmbərovanın BMU-nun dosenti Zabitə Teymurlu ilə həmmüəllifi olduğu "Akademik kommunikasiyada Azərbaycan dilinin yeri" adlı məqaləsi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "*Azərbaycan dili və ədəbiyyat tədrisi*" jurnalının "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş xüsusi buraxılışında dərc edilmişdir.

Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər sırasına daxildir.

Həmçinin ERIH PLUS, Index Copernicus və s. (20-dən çox) beynəlxalq elmi bazada indekslənir

An article titled "The Role of the Azerbaijani Language in Academic Communication," co-authored by Sevinj Gambarova, Coordinator of the Languages Division at the Department of Languages and Literature of Khazar University, and Zabita Teymurlu, Associate Professor at Baku Engineering University, has been published in a special issue of the Teaching of *Azerbaijani Language and Literature* journal dedicated to the "Year of the Constitution and Sovereignty."

The journal is included in the list of recommended academic publications by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan. It is also indexed in over 20 international academic databases, including ERIH PLUS and Index Copernicus.

***https://tall.edu.az/az/archive-articles/453/akademik-kommunikasiyada-azerbaycan-dilinin-yeri.html***

## DEPARTAMENT MÜDİRİ *AZTV*-NİN "*HƏDƏF*" PROQRAMINDA

Mayın 16-da *AZTV*-nin "*Hədəf*" analitik proqramında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirak etmək məqsədilə Albaniyanın paytaxtı Tiranaya etdiyi səfər ətraflı şəkildə təhlil olunub.

Verilişdə çıxış edən Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu bildirib ki, hazırda yeni dünya nizamı formalaşdığı bir dövrdə Avropa ən əlverişsiz geosiyasi şəraitlə üz-üzə qalıb. Bu kontekstdə Azərbaycanın və ümumilikdə Türk dünyasının yüksələn strateji əhəmiyyəti xüsusi diqqətə layiqdir.

Proqramda, həmçinin, regionda baş verən son proseslər fonunda Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsi və Prezident İlham Əliyevin diplomatik fəaliyyətinin əhəmiyyəti vurğulanıb.

## HEAD OF DEPARTMENT ON *AZTV*'S "*HADAF*" PROGRAM

On May 16, *AZTV*'s analytical program "*Hadaf*" provided a detailed analysis of the visit by President of the Republic of Azerbaijan Ilham Aliyev to Tirana, the capital of Albania, for participation in the 6th Summit of the "European Political Community."

Speaking on the program, Associate Professor Telman Nusratoglu, Director of the History and Archaeology Department at Khazar University, stated that Europe currently faces the most unfavorable geopolitical conditions during a period when a new world order is being formed. In this context, the rising strategic importance of Azerbaijan and the Turkic world in general deserves special attention. The program also emphasized the strengthening of Azerbaijan's international position against the backdrop of recent regional developments and the significance of President Ilham Aliyev's diplomatic activities.

***https://youtu.be/vkUXtcAr1fw?si=hx7baQr8Ut8Rqq56***

## TƏLƏBƏLƏR MÜTƏXƏSSİS DƏRSİNDƏ

Mayın 1-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin II kurs tarix-coğrafiya müəllimliyi ixtisasının tələbələri Tarix və arxeologiya departamentinin kordinatoru Dr. Söhrab Mustafayevin və həmin departamentin müəllimi, arxeoloq Orxan Zamanovun təşkilatçılığı ilə AMEA Arxeologiya və Antropologiya İnstitutunun mütəxəssisləri ilə tələbələrin qədim sivilizasiyalarla bağlı problemə həsr olunmuş görüşləri davam etdi.

Xəzər Universitetinin Nərimanov korpusunda təşkil olunan mütəxəssis dərsində AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Azərbaycanın ilk orta əsrlər dövrü arxeologiyası" şöbəsinin elmi işçisi Məcid Məcidzadənin "Qədim Roma cəmiyyətində və mədəniyyətində qullar və qladiatorların yeri" adlı mühazirəsi dinlənildi.

Mühazirəçi Qədim Roma cəmiyyətində quldarlıq münasibətlərinin kökləri, formalaşması, sosial-ictimai və mədəni təzahürləri, eləcə də, qul üsyanları və qladiatorlar haqqında bəhs etdi, çoxsaylı sualları cavablandırdı. Xüsusi maraqla qarşılanan mühazirənin sonunda geniş müzakirə aparıldı.

## STUDENTS ATTEND SPECIALIST LECTURE

On May 1, second-year students majoring in History and Geography Education at Khazar University's School of Humanities, Education and Social Sciences participated in another meeting devoted to the theme of ancient civilizations. The event was organized by Dr. Sohrab Mustafayev, coordinator of the Department of History and Archaeology, and archaeologist Orkhan Zamanov, a lecturer in the same department.

Held at Khazar University's Narimanov campus, the specialist lecture featured Majid Majidzadeh, a researcher from the "Early Medieval Archaeology of Azerbaijan" Department of the Institute of Archaeology and Anthropology of ANAS. He delivered a lecture titled "The Role of Slaves and Gladiators in Ancient Roman Society and Culture."

The lecturer addressed the origins and development of slavery in Ancient Rome, its social, public, and cultural manifestations, as well as slave uprisings and the role of gladiators. The session concluded with an engaging discussion and a Q&A segment that generated considerable interest among the students.

KASPİ LİSEYİ

## KASPİ LİSEYİ ŞAGİRDLƏRİ "XƏZƏR"DƏ

## KASPI LYCEUM STUDENTS AT "KHAZAR"

Mayın 1-də Kaspi liseyinin 10 və 11-ci sinif şagirdləri Xəzər Universitetinin Neftçilər kampusunda oldular. Səfərin məqsədi şagirdləri universitet həyatı, ixtisaslar və gələcək təhsil imkanları haqqında məlumatlandırmaq idi.

Mərmər salonda keçirilən tədbirdə universitetin İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Raziyə İsayeva və Tələbə cəlbi üzrə işçi qrupunun assistenti Nüşabə Alıyeva çıxış edərək, universitet haqqında geniş məlumat verdilər. Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva çıxışında düzgün karyera seçiminin vacibliyindən və Xəzər Universitetinin bu istiqamətdə verdiyi dəstəkdən danışdı.

On May 1, 10th and 11th grade students of Kaspi Lyceum visited the Neftchilar campus of Khazar University. The aim of the visit was to inform the students about university life, academic programs, and future educational opportunities.

At the event held in the Marble Hall, Dean of the School of Economics and Management Dr. Raziya Isayeva and Recruitment Team Assistant Nushaba Aliyeva delivered informative presentations about the university. Director of the Career and Alumni Center Zarifa Aliyeva emphasized the importance of making the right career choice and highlighted the support Khazar University provides in this regard.





*Raziyə İsayeva*



*Zərifə Əliyeva*



*Nüşabə Alıyeva*

Çıxış edənlər və Xəzər Universiteti Tələbə Məclisinin prezidenti Ənvər Bədəlov və sədri Hüseyn Dadaşov şagirdlərin suallarını cavablandırdılar. Sonra şagirdlər universitetin kitabxanası və bir sıra laboratoriyalarla tanış oldular.

The speakers, along with President of the Khazar University Student Assembly Anvar Badalov and Chair Huseyn Dadashev, answered the students' questions. The visit concluded with a tour of the university library and several laboratories.





*Hidayet Şimşek, Hamlet İsaxanlı*

## HASVET ANONİM ŞİRKƏTİ İLƏ ƏMƏKDAŞLIĞA DAİR MÜQAVİLƏ İMZALANIB

Mayın 1-də Xəzər Universitetində baş tutan tədbirdə Xəzər Universiteti ilə Hasvet Anonim Şirkəti arasında baytarlıq təbabəti üzrə təhsil, klinik fəaliyyət və elmi-tədqiqat sahəsində birgə əməkdaşlığa dair müqavilə imzalanmışdır. Müqavilənin məqsədi qarşılıqlı razılaşmalar əsasında birgə fəaliyyət nəticəsində Baytarlıq Təbabəti Fakültəsi və Klinikasının qurulması, eyni zamanda kadr potensialının gücləndirilməsi ilə tələbə hazırlıq səviyyəsinin yüksəldilməsidir.

Hasvet Anonim Şirkəti 1996-cı ildə Türkiyənin Antalya şəhərində yaradılmış və daha sonra fəaliyyət sahəsini genişləndirərək, heyvan sağlamlığı üzrə qabaqcıl şirkətlərdən birinə çevrilmişdir. Şirkət baytarlıq dərmanlarının istehsalı, tibbi avadanlıqların satışı, proqram təminatı, ev heyvanları üçün yem istehsalı və baytarlıq klinikalarının layihələndirilməsi kimi sahələr üzrə fəaliyyət göstərir. Eyni zamanda, şirkət təlim və seminarlar vasitəsilə baytarlıq sahəsində akademik və peşəkar dəstək xidmətləri də göstərməkdədir.

Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, Rektor vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev, dekan və mərkəz rəhbərləri, qarşı tərəfdən isə Hasvet Anonim Şirkətinin direktoru DVM/MBA Hidayet Şimşek başda olmaqla, şirkətin idarə heyəti iştirak etmişdir.

## COOPERATION CONTRACT SIGNED WITH HASVET ANONYMOUS COMPANY

On 01 May an agreement was signed between Khazar University and Hasvet Anonymous Company for joint cooperation in education, clinical activity and scientific research in veterinary medicine at an event held at Khazar University. The purpose of the agreement is to establish the Faculty and Clinic of Veterinary Medicine as a result of joint activities based on mutual agreements, as well as to enhance the level of student preparation by strengthening human resource potential.

Hasvet Anonymous Company was established in 1996 in Antalya, Türkiye, and later expanded its scope of activity to become one of the leading companies in animal health. The company operates in areas such as production of veterinary medicines, sales of medical equipment, software, pet food production and veterinary clinic design. At the same time, the company also provides academic and professional support services in the veterinary field through training and seminars.

The meeting was attended by Khazar University's Founder and Chairman of the Board of Directors and Trustees Prof. Hamlet Isakhanli, Vice-Rector for Academic Affairs Prof. Mohammed Nuriyev, as well as deans and center heads, while from the other side, Hasvet Anonymous Company's Director DVM/MBA Hidayet Şimşek and the company's management board participated.

# ENERJİ SİSTEMLƏRİ TƏDQİQAT MƏRKƏZİ "ENERJİ SEMİNARLARI" KEÇİRDİ

# ENERGY RESEARCH CENTER HOSTS "ENERGY SEMINARS" AT KHAZAR UNIVERSITY





*Fəridə Tatardar*
*(Xəzər Universiteti)*

29 Aprel - 1 May tarixlərində Xəzər Universitetində universitetin Enerji Sistemləri Tədqiqat Mərkəzinin təşkilatçılığı ilə "Enerji seminarları" adlı tədbirlər silsiləsi keçirilmişdir.

Seminarlar mərkəzin professorları tərəfindən həm onlayn platformalarda, həm də universitetin auditoriyalarında canlı şəkildə təşkil olunmuşdur. Tədbirlərdə Xəzər Universitetinin professor-müəllim heyəti, tədqiqatçılar və tələbələr fəal iştirak etmişlər.

Seminarların əsas mövzusu yenilənə bilən enerji sistemləri və onların müasir sənaye və cəmiyyət həyatında tətbiq imkanlarına həsr olunmuşdur. Təqdimatlar zamanı iştirakçılara bərpa olunan enerji mənbələrinin əhəmiyyəti, texnoloji yeniliklər və perspektiv tədqiqat istiqamətləri haqqında ətraflı məlumat verilmiş, interaktiv müzakirələr aparılmışdır.

Tədbirin məqsədi enerji sahəsində elmi biliklərin paylaşılması, müasir çağırışların araşdırılması və bu istiqamətdə tədqiqatçıların bir araya gətirilməsi olmuşdur. Seminarlar iştirakçılar tərəfindən yüksək maraqla qarşılanmış və faydalı elmi mübadilə platforması kimi qiymətləndirilmişdir.

From April 29 to May 1, a series of events titled "Energy Seminars" was held at Khazar University, organized by the university's Energy Systems Research Center.

The seminars were conducted both online and in person in the university classrooms by the Center's professors. Faculty members, researchers, and students of Khazar University actively participated in the events.

The main focus of the seminars was on renewable energy systems and their potential applications in modern industry and society. During the presentations, participants were provided with detailed information on the significance of renewable energy sources, recent technological advancements, and prospective research directions, followed by interactive discussions.

The goal of the event was to promote the exchange of scientific knowledge in the energy field, explore contemporary challenges, and bring together researchers working in this area. The seminars were met with great interest and were recognized as a valuable platform for academic exchange.



# "QARA" RƏNG FENOMENİNİN LEKSİK-ETİMOLOJİ DƏRKİ VƏ EL DEYİMLƏRİNİN FƏLSƏFƏSİ

**Xankişi Məmmədov**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bu yazıda qara rənglə bağlı el deyimlərinin leksik-semantik-etimoloji tədqiqindən və fəlsəfəsindən söhbət açılır. Öncə qeyd edək ki, hələ qədim zamanlarda müxtəlif rəng və rəng çalarlarının insan şüuruna və hisslərinə olan təsirinə, müxtəlif miflərdə, xalq nağıllarında və dastanlarda insanların "rəng dili"ni oxumağın vacibliyinin vurğulanmasına aid bilgilərə rast gəlmək olur. Lakin fiziki, fizioloji, psixoloji və bir çox başqa faktorlardan asılı olan rənglərin sayı haqqında dəqiq rəqəm demək çətindir. Öz dünyası və özünəməxsus gözəllikləri olan əsas rənglərə göy qurşağının 7 rəngi - qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy və bənövşəyi rənglər aiddir. Ağ rəng də işığın spektrısdəki yeddi rəngdən ibarət olduğuna görə biz onu ayrıca qeyd etmədik. Bəşir Əhmədov da yazır ki, 7 rəng var, birincisi ağ, sonuncusu qara. Əslində isə nə ağ rəng var, nə də qara. Cəmi yeddi rəng var ki, onları da sadaladıq. Qalanlar hamısı rəng çalarlarıdır. Amma ağ və həm də qara, rəng kimi qəbul olunduğuna görə, biz də hələlik onu qəbul edilən kimi qəbul edirik, lakin gələcəkdə müəyyən əlavələr edilməsi istisna edilmir. Qeyd edək ki, "rəng" fars sözü olub, boya mənasını verir. Rənglər piqmentlərin əks etdirdiyi işığın dalğa uzunluqlarından asılı olaraq əmələ gəlir. Əgər piqmentlər işığı əks etdirmək əvəzinə onu udarsa, onda işıq əks olunmadığı üçün qara rəng əmələ gəlir.

"Qara" lekseminin müxtəlif məna çalarları mövcuddur. Görkəmli dilçi alim və şair prof. Mahirə Hüseynova adı çəkilən leksemin müxtəlif məna çalarlarından bəhs edərkən bu sözün "böyük, iri, nəhəng, əzəmətli", "igid, cəsur, qüvvətli", "yığın", "kütlə", "xalq", "camaat", "qoşun", "dəstə", "ibtidai", "dağlıq", "sıx, keçilməz", "kədərli", "qəmli", "qaranlıq", "zülmət", "tutqun", "bədbəxt", "qatı", "rəng", "quru", "mal-qara", "pisruh", "sərt", "sadə", "sıravi", "təpə, "təpəlik", "torpaq", "yer", "vahimə", "kabus", "xuruş", "aşqara" (plov üçün qovrulmuş ət və ona qatılmış müxtəlif xuruşlar - göründüyü kimi bu sözün qara rəngə heç bir aidiyyəti yoxdur), "mürəkkəb" (yazı yazmaq üçün istifadə edilən rəngli maye), "on iki dərz", "su" və s. arxaik mənaları olduğunu vurğulayır. Amma güman edirik ki, bu sözün hələ yazılmamış çox mənaları vardır. Məsələn, el, insan qrupu (qaraçı), möhkəm, bərk, pis qayış və s. M.Adilov yazır ki, "vahimə", "kabus" mənasında

işlənən "qara" sozu tarixən qara-quru // qara-qura şəklində olmuşdur. Doğrudan da, Dədə Qorqud dastanlarında rast gəldiyimiz "Bəylər, qara-quru quş gordum" ifadəsi M.Adilovun verdiyi şərhlə üst-üstə düşür. Qara sözünün qədim türk dillərində daşıdıdğı mənalarla və məsəllərin görünməyən üzü ilə bağlı məqalələri maraq kəsb edir. Rənglərlə bağlı fizika-riyaziyyat elmləri doktoru, professor, şair Vaqif Nəsirin "Spektr" şeirinə diqqət edək:

Qırmızı bədəndən axan al qandır,
Narıncı Gün altda qalıb yanandır,
Sarı güc gətirir, inan, çoxuna
Yaşıl sığal verir insan ruhuna.
Mavidir sevdiyim dalğalı dəniz,
Göy rəngdə səma da görünür təmiz...
Bənövşəyi novruzgülü rəngidir,
Ağ işıqsa, yeddi rəng çələngidir!

Göründüyü kimi professor Vaqif Nəsir də yeddi rəngdən söhbət açır, əgər səkkizinci rəng olsaydı, təbii ki, o da şeirdə öz əksini tapardı. Bu isə fikirlərimizin üst-üstə düşməsi anlamına gəlir.

O da məlumdur ki, Azərbaycanda qırmızı rəng sevgini, cəsarəti, narıncı rəng sağlamlığı, mavi rəng ümidi, sarı rəng günəşi, yaşıl inamı, həyatı, mavi rəng yeri, göyü, dənizi, ağ xoşbəxtliyi, boz kədəri ifadə edir. Qara rəng isə daha çox mənfi emosiyaları, həsrəti, bədbəxliyi, ölümü ifadə edir, amma buna baxmayaraq "qara" rəng xalqın ən çox sevdiyi və üstün tutduğu rəng hesab olunur. El deyimimiz də var: "Qaradan artıq rəng yoxdur". Bəs niyə "qaradan artıq rəng yoxdur" ifadəsini işlədirik? Əslində bu o demək deyil li, qara rəng bütün rənglərdən yaxşıdır. Əgər elə düşünsək, onda səhv etmiş olarıq. "Qaradan artıq rəng yoxdur" ifadəsinin mənası odur ki, qara rəng bədbəxliyi, qara günü, ölümü, yəni həyatın sonunu xarakterizə etdiyi üçün belə halda "axırı ölümdür", "ölümdən o yana heç nə yoxdur" ifadələrinin sinonimi kimi "qaradan artıq rəng yoxdur" ifadəsi işlənmişdir.

Qara rənglə bağlı el deyimlərin sayı kifayət qədərdir: Qara qoç kəsmək, Qara qoyunun əti, yol qırağının otu, Qara qoyun ətli olur, qovurması dadlı olur, Qara kişmişi cibə tökərlər, ağ ayranı itə, Qara əncirin irisi, ağ əncirin xırdası, Qara torpaq üz ağardar, Qara qızın dərdi var, Qara bizi basınca, biz qaranı basaq; Qara səni basınca, sən qaranı bas; Qara qızın dərdi var; Qara lələmin canı haqqı; Üzün qara olsun, yanında üzüm qaradır; Gözünə qara su gəlsin; Qara gün üçün saxlamaq; Qara baxt ova çıxdı, dağları duman aldı; Qara bulud yağış yağdırar; Qara dolağa qırmızı papış tikməzlər; Qara gün adamı qaraldar; Qara gün qaralıb qalmaz; Qara günün ağ günü də olar; Qara günün ömrü az olar; Qara xəbər tez yayılar; Qara itin balası qara olar; Qara qatır, nə bilir xətir, qatırı ya döy, ya başına dön; Qara qız bəzənincə toy əldən gedər; Qara qoyunun südü şirin olar; Qara mal doyanda samanı başına sovurar; Qaradan artıq boya olmaz və s.

Bəs niyə "qara" rəng xalqın ən çox sevdiyi və üstün tutduğu rəng hesab olunur? Niyə görə qara qoyunun əti daha dadlı olur? Niyə görə avtomobilimizin və onun pərdəsinin qara olmasına üstünlük veririk? Niyə görə qara kürünü, qara kişmişi daha çox sevirik? Əlbəttə bu cür suallara ən doğru cavabı rənglər və onların xüsusiyyətlərini öyrənən koloristika elmi də verə bilməz. Çünki bütün bu sualların cavabları subyektiv amillərlə bağlıdır. Fikrimizcə mövcud rənglərdən ən üstün tutduğumuz "qara" rəngə olan belə

sevgimiz insanın həyatı, psixologiyası və fiziologiyasının fəlsəfəsi ilə əlaqədardır. Qeyd edək ki, qara rəngin və "qara" komponentli sözlərin daşıdığı məna bütün rənglərlə müqayisədə daha çoxluq təşkil edib, həm mənfi, həm də müsbət anlamda işlənir. Amma bir şey dəqiqdir ki, qara rəngə üstünlük verənlər həmişə mübarizəyə, zülmə hazır, alovlu, ehtiraslı olub və qaradan qorxmayıblar. Hətta deyiblər ki, qara məni basınca, mən qaranı basım. Zənnimizcə bu xüsusiyyətlər bizim xalqa daha çox aiddir. Və bəlkə də biz məhz bu xüsusiyyətlərə görə qaraya üstünlük veririk. İndi isə bəzi poetik-idraki modellərin məna qatlarına diqqət edək.

"Qara qoç kəsmək" ifadəsindən başlayaq. Doğrudan da el arasında filankəs filankəsə bir qara qoç kəsib deyirlər, ağ qoç kəsib demirlər? Niyə? Məsələ burasındadır ki, qara qoyunun dərisi işığı qaytarmır, əksinə udur. Udulan işıq qoyunun ətində, qanında bəzi fermentləri məsələn, D vitaminini və piqmentləşmə ilə əmələ gələn digər maddələri yaradır ki, bu da qoyunun ətinin daha dadlı və deməli daha xeyirli olması anlamına gəlir. Bu həm də qoyunu isti havaya və günəş şüalarına qarşı daha müqavimətli etməklə onu günəş radiasiyasına qarşı daha dözümlü edir. "Qara qoyun ətli olur, qovurması dadlı olur" atalar sözünün də fəlsəfəsi bu izahla eynidir. "Qara qoyunun südü şirin olar" atalar sözünün də fəlsəfəsi qara rəngin günəş şüalarını udması ilə bağlıdır.

"Qara torpaq üz ağardar" el deyiminin məna çaları da maraqlıdır. Burada söhbət qara rəngli torpaqdan gedir. Belə torpaq digər rəngdə olan torpaqlardan daha keyfiyyətli olduğuna görə bol, həm də keyfiyyətli məhsul verir. Qara torpağın keyfiyyətli olması isə işığı udması, tərkibində bol qida maddələri və çox çürüntü olması, başqa torpaqlara nisbətən yuyulmağa daha çox davamlı olması və bu səbəbdən rütubəti yaxşı saxlaması ilə bağlıdır. Əslində torpağa qara rəng verən amillərdən biri onda çürüntünün çox olmasıdır. Belə torpaqda yerə nə atsan, qulluq etməsən belə bol məhsul verib və nəticədə insanın üzünü ağ edir. Yeri gəlmişkən belə bir bilməcəmiz də var: Yer üzünün qarası, ağacların anası. Açması torpaqdır. Doğrudan da ağacların anası torpaqdır. Və təbii ki, torpaq olmasa ağaclar bitməz. Qara torpaq isə torpaqların başıdır.

"Qara qoyunun əti, yol qırağının otu" deyiminin kökü məntiqə əsaslanır. Doğrudan da yuxarıdakı misalda deyildiyi kimi, qara qoyunun dərisi işığı qaytarmır, əksinə udur. Udulan işıq isə qoyunun ətində, qanında bir çox faydalı vitaminlərin əmələ gəlməsinə səbəb olur ki, bu da qara qoyunun ətinin daha xeyirli, daha dadlı olmasına səbəb olur. Deyimin ikinci hissəsindəki yol, daha çox ayaqlanan, tapdalanan, araba, maşın keçən yerdir. Burada torpaq çox bərkidiyindən zəif, xəstə bitki torpağı deşib çıxa bilmir. Tərkibi vitaminlə, minerallarla zəngin, sağlam, güclü ot isə bərk torpağı da deşib çıxa bilir. Belə otlar ərzaq kimi də daha faydalıdır. Bir sıra dərdlərə dərman olan "yol otu" da adını buradan alıb, yəni yolun qırağında bitən ot. Qeyd edək ki, "yolotu" adlı bitki də var. Ona bəzən qırxbuğum və ya xırmanotu da deyilir. Amma unutmayaq ki, "yol otu" ayrıdır, "yolotu" ayrı. Yol otu yolun qırağında bitən bütün bitkilərə deyilir.

"Ağ ayranı itə tökərlər, qara kişmişi cibə" deyiminə baxaq. Məcazi mənada "insana xarici görünüşünə görə deyil, məna tutumuna görə qiymət verilməlidir", mənasına gələn bu deyimdə, qara, büzüşmüş, çirkin də olsa, qara kişmişdi, həm şirin, həm də cibdə gəzdirməyə münasib olduğu göstərilir. Həm də ta qədimdən babalarımız pulu kisədə və ya qurşaqda saxlardılar. Ciblərinə isə dəsmala bükülmüş qənd, kişmiş, fındıq qoyardılar. At belində səfərə gedəndə elə at üstündə atışdırardılar. Həm də qarşılarına çoluq-çocuq (yəni uşaq-muşaq) gələndə onlara da pay verər, ağızlarını şirin edərdilər. Kişmişi cibdə gəzdirmək bir növ dəbdəydi. Görünür, deyim də buradan yaranıb.

Maraqlı deyimlərdən biri də belədir: "Qara əncirin irisi, ağ əncirin xırdası". Məlumdur

ki, əsas vətəni Suriya və Kiçik Asiya ölkələri olan əncirin Azərbaycanda cəmi iki növü yayılıb. Onlardan biri "mədəni əncir" adlanır, rəngi sarı olur, hansı ki, respublikamızın demək olar bir çox bölgələrində yayılıb. Amma Abşeron ənciri dillər əzbəridir. İkinci növ əncir "Hirkan ənciri"dir. Meyvəsi armudvari şəkildə yumurta boyda olur. "Hirkan əncdri" 6–8 m hündürlükdə şaxəli ağac olub, yabanı halda Lənkəran zonasında daha çox yayılıb. Amma indi müxtəlif bölgələrdə becərilir. Hirkan ənciri adətən qara və ya tünd-göy rəngdə olur. Hirkan əncirinin irisi daha xoş dadlı, qidalı və şirin olur. Ona görə deyirlər ki, qara əncirin irisi. Yeri gəlmişkən, ilk adı Avrora olan Hirkan, Lənkəran rayonunun inzibati ərazi vahidində şəhər tipli qəsəbədir. Ağ ənsir (əslində sarı rəngli əncir) qara əncirə nisbətən xırda olar. Amma tez-tez su verəndə ağ ənsir də qara əncir kimi böyüyə bilir, amma bu zaman şirinliyi azalır. Ona görə də deyirlər ağ ənsirin xırdası.

"Qara qoç qaynamayınca yol açılmaz" – bu deyimdə "qara" böyük mənasında işlənmişdir. Bəzi məmura işi düşən adam yekə qoç verməsə, işi aşmaz. Həmişə belə olub, indi də belədir.

"Ağın adı var, qaranın dadı" – ağ düyüdür (aş), bunun adı çıxıb. Qara isə aşın əti, kişmişi, şabalıdı və başqa əlavəsidir. Aşı dadlı edən həmin əlavələrdir. Yarpaq dolması (qara dolma) ağ dolmadan (kələm dolması) daha çox dadlıdır. Ətin yağı ağ, əzələsi qaradır (qara tikə). Aşın düyüsü ağ, kişmişi, şabalıdı və s. əlavəsi qaradır.

"Üzdə xal qara, ağ olsa – yara" – realdır. Üzdə xal qara olur. Onun ağ olması kiçik dəri yarası (sızaq) olduğunu bildirir. Xal gözəlliyi artırar, sızağı isə müalicə etmək tələb olunur.

"Qara adama sabun, dəliyə öyüd hədərdir" Qara dərili adamı sabun ağ dərili edə bilməz. Təmizlik mənasında vacibdir. Dəliyə öyüd-nəsihətin hədər verilməsi realdır.

"Qaradan artıq boya olmaz" atalar sözünün fəlsəfəsi deyimin özündə var. Diqqət etsək, burada "artıq " sözü var. Harada artıq şey varsa, deməli, bu yaxşı hal sayılmır. Ulu Nizami hələ neçə əsrlər öncə yazdığı kimi "bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da". Beləliklə məlum olur ki, bir şeyin artıq olması, onun keyfiyyətinin, orijinal dəyərinin və gözəlliyinin itirilməsinə gətirib çıxarır. Bu deyimdə də əgər boyanın rəngini istəsək ki, bir az qaraldaq, onda işlər korlanar. Yəni qaranı qaraltmaq üçün bir az da artıq qaraltmaq olmaz.

Dilimizdə işləkliyi yüksək olan el deyimlərindən biri də "Qara basmaq" ifadəsidir. Xüsusən adam gecələr tək-tənha olanda, vahiməli meşələrdən keçəndə gözünə qorxunc şeylər görünür. Və bu qorxunc şeylər adamı məhv etməyə çalışır. Amma adam sanki yuxudan ayılanda heç nəyin olmadığı məlum olur. Bu ifadə o zaman işlənir. "Qara səni basınca, sən qaranı bas" deyiminin fəlsəfəsi də elə bununla bağlıdır. Yəni, qara qüvvə sən yatan halda qəfil düşmən kimi üstünə hücum edib səni məhv etmək istiyirsə, birinci sən həmin qara qüvvəyə qarşı hücum etsən daha yaxşı olar. Bu deyimin fəlsəfəsi "Ən yaxşı müdafiə hücumdur" taktikasına əsaslanır.

Beləliklə, xalqımızın zaman-zaman formalaşdırdığı, kodlaşdırdığı, yaşatmış olduğu və bu gün də yaşatdığı qara rənglə bağlı el deyimlərinin leksik-semantik-etimoloji tədqiqinin həm dil nöqteyi nəzərindən, həm də xalqın milli-mənəvi köklərinin qorunub saxlanması baxımından adət-ənənələrimizin, mədəniyyətimizin, milli psixologiyamızın və mentalitetimizin hərtərəfli və daha dərindən öyrənilməsinə xidmət edən əvəzsiz ekstralinqvistik mənbə olduğunun şahidi oluruq. Təbii ki, bu da problemin aktuallığından xəbər verir.

# TESIAD VƏ TESAM BAŞQANI "XƏZƏR"DƏ

Mayın 2-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı Türkiyədə fəaliyyət göstərən TESIAD (Turkiyə Avrasiya Strateji Araşdırmalar və İş Adamları Dərnəyi) və TESAM-ın (Türkiyə İqtisadi-Siyasi və Strateji Araşdırmalar Mərkəzi) qurucusu və Genəl Başqanı İlyas Bozkurtu və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi.

Görüşdə TESIAD Genəl başqanı Halil İbrahim Yılmaz, TESAM Genəl başqan yardımcısı Yıldırım Deniz, TESİAD-ın xarici ölkələrdəki şəbələrinin işinə məsul, Genəl başqan yardımcısı Talha Zeytinci, TESIAD və TESAM Türk Dünyası koordinatörü Muhammet Kıldıze, TESIAD və TESAM Azərbaycan təmsilcisi Elməddin Məmmədzadə və Xəzər Universitetinin İctimai Əlaqələr və Media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak edirdilər.

Görüşdə TESIAD və TESAM-ın fəaliyyəti haqqında geniş məlumat verildi və Xəzər Universiteti ilə işbirliyi məsələləri müzakirə olundu.

# TESIAD AND TESAM PRESIDENT AT KHAZAR

On May 2, Professor-Academician Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, welcomed Ilyas Bozkurt, Founder and President of TESIAD (Türkiye-Eurasia Strategic Research and Businessmen Association) and TESAM (Center for Turkish Economic-Political and Strategic Studies), along with the delegation he led.

The meeting was attended by Halil Ibrahim Yilmaz, President of TESIAD; Yıldırım Deniz, Vice President of TESAM; Talha Zeytinci, Vice President of TESIAD in charge of international branches; Muhammet Kıldıze, TESIAD and TESAM Coordinator for the Turkic World; Elməddin Məmmədzadə, Representative of TESIAD and TESAM in Azerbaijan; and Alovsat Amirbeyli, Director of Public Relations and Media at Khazar University.

During the meeting, comprehensive information was provided about the activities of TESIAD and TESAM, and potential areas of collaboration with Khazar University were discussed.



*Əlövsət Əmirbəyli, Hamlet İsaxanlı, İlyas Bozkurt, Yıldırım Deniz, Talha Zeytinci, Halil İbrahim Yılmaz, Muhammet Kıldıze, Elməddin Məmmədzadə*

## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI 28-Cİ AVRASİYA İQTİSADİ ZİRVƏ TOPLANTISINDA

Mayın 7-8-də Türkiyənin İstanbul şəhərində Marmara Grupu Vəqfi 28-ci Avrasiya İqtisadi Zirvə toplantısı keçirmişdir. Zirvə toplantısında dünyanın 30 ölkəsindən 11 sabiq prezident olmaqla 850-dən artıq nümayəndə iştirak edirdi. Zirvə toplantısına Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli də dəvət olunmuşdu.

Toplantını giriş sözü ilə Marmara Grupu Vəqfinin başqanı Akkan Suver açaraq, sabiq dövlət başçılarını və bütün qonaqları salamladı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin Zirvə toplantısının iştirakçılarına ünvanlanmış məktubları oxundu.

Zirvə toplantısının 1-ci günü Türkiyə xarici işlər nazirinin müavini Mehmet Kemal Bozay, Şimali Makedoniya maliyyə naziri Gordana Dimitrevska-Kosovska, İstanbul valisi Davud Gül, Nobel mükafatçısı (2015) Prof. Aziz Sancar və digərləri çıxış etdilər.

Zirvə toplanrısının ilk günü keçirilən iclasında dünyanın 7 ölkəsindən 35-dən artıq dövlət, bələdiyyə və qeyri-hökümət təşkilatlarının nümayəndələrinin müxtəlif mövzularda məruzələri təqdim olundu. Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Ə. Əmirbəyli həmin iclasın katibliyinə seçilmişdir.

Zirvə toplantısının sonuncu günü sabiq prezidentlər Abdullah Gül (Türkiyə), Emil Konstantinescu (Ruminiya), George İvanov (Şimali Makedoniya), İvo Josipovic və Stjepan Mesic (Xorvatiya), Vaclav Klaus (Çexiya), Petru Luçinski (Moldova), Moncef Marzouki (Tunis) və digərləri çıxış edərək, son dövrdə dünyada yaranmış vəziyyətlə bağlı ölkələrinin mövqelərini bildirdilər.

Sonda qonaqların şərəfinə ziyafət verildi.

## KHAZAR UNIVERSITY EMPLOYEE PARTICIPATES IN 28TH EURASIAN ECONOMIC SUMMIT

On May 7-8, the Marmara Group Foundation held the 28th Eurasian Economic Summit in Istanbul, Türkiye. The summit was attended by more than 850 delegates from 30 countries worldwide, including 11 former presidents. Alövsat Amirbayli, Director of Public Relations and Media at Khazar University, was also invited to the summit.

The meeting was opened by Akkan Suver, Chairman of the Marmara Group Foundation, who welcomed the former heads of state and all guests. Letters addressed to the Summit participants from Turkish President Recep Tayyip Erdogan and Azerbaijani President Ilham Aliyev were read.

On the first day of the Summit, Deputy Minister of Foreign Affairs of Türkiye Mehmet Kemal Bozay, Minister of Finance of North Macedonia Gordana Dimitrevska-Kosovska, Governor of Istanbul Davud Gul, Nobel Laureate (2015) Prof. Aziz Sancar and others delivered speeches.




During the first day's session of the Summit, presentations on various topics were delivered by representatives from more than 35 state, municipal, and non-governmental organizations from 7 countries worldwide. A. Amirbayli, Director of Public Relations and Media at Khazar University, was elected to the secretariat of that session.

On the final day of the Summit, former presidents Abdullah Gul (Türkiye), Emil Konstantinescu (Romania), George Ivanov (North Macedonia), Ivo Josipovic and Stjepan Mesic (Croatia), Vaclav Klaus (Czech Republic), Petru Lucinski (Moldova), Moncef Marzouki (Tunisia) and others spoke, expressing their countries' positions regarding the current global situation. Commemorative photos were taken at the end of the Summit. A reception was hosted by the Marmara Group Foundation in honor of foreign leaders and guests.

# ELMİ ŞURANIN NÖVBƏTİ İCLASI

Mayın 16-da Xəzər Universiteti Elmi Şurasının növbəti iclası keçirildi.

İclası Xəzər Universitetinin rektoru vəzifəsini icra edən Prof. Məhəmməd Nuriyev açaraq, gündəlikdəki məsələləri Elmi Şura üzvlərinin nəzərinə çatdırdı.

Gündəliyin birinci məsələsi olan məzunlar haqqında məlumatları Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, İqtisadiyyat və menecment fakültəsinin dekanı Raziyə İsayeva, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan vəzifəsini icra edən Aygün Verdiyeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Günel Bahəddinova və İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov təqdim etdilər. Universitetin məzun olan bakalavriatura və magistratura tələbələrinin GPA-ləri, ixtisasları və s. haqqında ətraflı məlumatlar dinlənildi və müzakirələr aparıldı.

Gündəliyin ikinci məsələsi 3347.01 "Nanotexnologiya və nanomateriallar" (fizika sahəsi üzrə) ixtisası üzrə təhsil alan doktorant Validə Rəfail qızı Əliyevaya ikinci elmi rəhbərin təyin edilməsi idi. Bu məsələ barədə elmi katib Günel Bahəddinova ətraflı məlumat verdi. Türkiyəninin Manisa Cəlal Bayar Universitetinin "Elektronika və avtomatika" kafedrasının müdiri Dos. Levent Mustafa oğlu Paralı Elmi Şuranın qərarına əsasən doktorantın ikinci elmi rəhbəri təyin edildi.

Professor Məhəmməd Nuriyev qeyd etdi ki, Xəzər Universitetinin səlahiyyətli şəxsləri tərəfindən doktorantura təhsil səviyyəsi üçün yeni əsasnamə tərtib olunub. Əsasnamədə doktorantura səviyyəsində təhsil ilə bağlı elmi nəşrlərlə, dərslərin tədris olunması və universitetdaxili müdafiə prosesi ilə bağlı yeni tələblər öz əksini tapıb. Əsasnamə müzakirə olundu və şura üzvləri tərəfindən qəbul edildi.

Elmi Şuranın növbəti məsələsi Dillər və ədəbiyyatlar departamentinin dosenti fil.ü.f.d. Ülvi Allahverdi oğlu Babasoya dosent adının verilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılması ilə bağlı universitetin Elmi Şurasına olunmuş müraciət müzakirə edildi. Elmi Şuranın katibi iddiaçı haqqında ətraflı məlumat verdi. Sonra hesablama komissiyası yaradılaraq, gizli səsvermə keçirildi. Hesablama komissiyasının sədri tərəfindən nəticə şura üzvlərinə açıqlandı və protokol tərtib edildi.

İclasın sonunda cari məsələlər müzakirə olundu.

Elmi şuranın gündəliyindəki bütün məsələlər müzakirə olunaraq, müvafiq qərarlar qəbul edildi.

# NEXT MEETING OF SCIENTIFIC COUNCIL

The next meeting of Khazar University's Scientific Council was held on May 16, 2025.

The meeting was opened by Professor Mehemmed Nuriyev, Acting Rector of Khazar University, who brought the agenda items to the attention of the Scientific Council members.

The first agenda item concerning information about graduates was presented by Fakhrende Afendiyeva, Dean of the School of Science and Engineering; Raziye Isayeva, Dean of the School of Economics and Management; Aygun Verdiyeva, Acting Dean of the School of Humanities, Education and Social Sciences; Gunel Baheddinova, Dean of the Graduate School of Science, Art and Technology; and Ingilab Ahmedov, Dean of the Graduate School of Economics and Business. Detailed information was heard and discussions were held regarding the GPAs, specializations, and other aspects of the university's graduating undergraduate and graduate students.

The second agenda item was the appointment of a second scientific supervisor for doctoral student Valide Rafail qizi Aliyeva, who is studying in the specialty 3347.01 "Nanotechnology and Nanomaterials" (in the field of physics). Scientific Secretary Gunel Baheddinova provided detailed information about this matter. Associate Professor Levent Mustafa oglu Parali, Head of the Department of Electronics and Automation at Türkiye's Manisa Celal Bayar University, was appointed as the doctoral student's second scientific supervisor based on the Scientific Council's decision. Professor Mehemmed Nuriyev noted that a new charter for the doctoral education level has been prepared by authorized personnel of Khazar University. The charter reflects new requirements related to scientific publications, course instruction, and the internal defense process at the doctoral level. The charter was discussed and adopted by the council members.

The next matter of the Scientific Council was the discussion of the university's appeal to the Scientific Council regarding the submission of a petition to the Higher Attestation Committee under the President of the Republic of Azerbaijan for granting the title of associate professor to Ulvi Allahverdi oglu Babasov, Ph.D. in Philology, Associate Professor of the Department of Languages and Literature. The Scientific Council's secretary provided detailed information about the candidate. Subsequently, a counting commission was established and a secret ballot was conducted. The results were announced to the council members by the chairman of the counting commission, and a protocol was prepared. At the end of the meeting, current issues were discussed.

All matters on the Scientific Council's agenda were discussed and appropriate decisions were adopted.

Annales Mathematicae Silesianae

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ *"ANNALES MATHEMATICAE SILESIANAE"* JURNALINDA

## JOINT ARTICLE BY PROFESSORS OF MATHEMATICS DEPARTMENT PUBLISHED IN "*ANNALES MATHEMATICAE SILESIANAE*" JOURNAL

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Riyaziyyat departamentinin professoru, akademik Hamlet İsaxanlının və eyni departamentin professoru Biləndər Allahverdiyevin "The resolvent of impulsive singular Hahn-Sturm-Liouville operators" ("İmpulsiv sinqulyar Han-Ştum-Liuvill operatorlarının rezolventi") adlı birgə məqaləsi "*Annales Mathematicae Silesianae*" jurnalında (2025, Cild 39, № 1) dərc edilmişdur. Qeyd edək ki, "Annales Mathematicae Silesianae" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indekslənib.

Məqalədə impulsiv sinqulyar Han-Şturm-Liuvill operatorunun rezolventi araşdırılır. Bu operatorun rezolventi üçün inteqral təmsil düsturu əldə edilir.

A joint article titled "The resolvent of impulsive singular Hahn-Sturm-Liouville operators" by academician Hamlet Isakhanli, founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Professor of the Mathematics Department, and Professor Bilander Allahverdiyev of the same department, has been published in the journal "*Annales Mathematicae Silesianae*" (2025, Volume 39, No. 1). It should be noted that the journal "Annales Mathematicae Silesianae" is indexed in "Web of Science" and "Scopus" databases.

In this study, the resolvent of the impulsive singular Hahn-Sturm-Liouville operator is considered. An integral representation for the resolvent of this operator is obtained.

*https://sciendo.com/article/10.2478/amsil-2024-0001*
*https://sciendo.com/journal/AMSIL*

FILOMAT

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ "*FILOMAT*" JURNALINDA

## AN ARTICLE BY PROFESSOR OF MATHEMATICS DEPARTMENT PUBLISHED IN "*FILOMAT*" JOURNAL

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "Non-self-adjoint singular matrix Sturm-Liouville operators with general boundary conditions" ("Ümumi sərhəd şərtləri olan öz-özünə qoşma olmayan sinqulyar matris Şturm-Liuvill operatorları") adlı məqaləsi "*Filomat*" jurnalında dərc olunmuşdur (2024, Cild 38, № 30). Qeyd edək ki, "Filomat" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indekslənib. Məqalədə Hilbert fəzasında maksimal indeks defektli minimal simmetrik operatorun genişlənmələri olan maksimal dissipativ matris qiymətli Şturm-Liuvill operatorları tədqiq edilir. Dissipativ operatorun öz-özünə qoşma dilatasiyası qurulur və dilatasiyanın gələn və çıxan spektral təsvirləri əldə edilərək dilatasiyanın səpilmə matrisi tapılır. Məqalədə həmçinin dissipativ operatorun funksional modeli qurulur və onun xarakteristik funksiyası dilatasiyanın səpilmə matrisi vasitəsi ilə ifadə edilir. Bundan əlavə, dissipativ operatorların məxsusi və qoşulmuş vektorlar sisteminin tamlığı haqqında teorem isbat olunur.

An article by Professor Bilender Allahverdiyev of the Mathematics Department of Khazar University, titled "Non-self-adjoint singular matrix Sturm-Liouville operators with general boundary conditions," has been published in Filomat (2024, Volume 38, No. 30). It should be noted that *Filomat* journal is indexed in the Web of Science and Scopus databases.

In the Hilbert space the maximal dissipative singular matrix-valued Sturm–Liouville operators that the extensions of a minimal symmetric operator with maximal deficiency indices are studied. The maximal dissipative operators with general boundary conditions are investigated. A self-adjoint dilation is constructed for dissipative operator and its incoming and outgoing spectral representations, which make it possible to determine the scattering matrix of the dilation. We also construct a functional model of the dissipative operator and determine its characteristic function in terms of the scattering matrix of the dilation. Moreover a theorem on completeness of the system of eigenvectors and associated vectors of the dissipative operators proved.

*Məqaləyə keçid: FİLOMAThttps://journal.pmf.ni.ac.rs/filomat/index.php/filomat*



# DÜNYANIN ƏN AZAD ÖLKƏSİ - CƏMİ 63 NƏFƏR ƏHALİSİ VAR

Avropada yerləşən və heç bir ölkə tərəfindən rəsmi olaraq tanınmayan, liberter idealları ilə dünyanın diqqətini çəkən mikrodövlətdən məlumatınız var? Xorvatiya ilə Serbiya arasında Dunay çayının sahilində yerləşən bu kiçik 7 kvadrat kilometrlik torpaq sahəsi cəmi 63 nəfər əhalisi ilə diqqət çəkir. Amma onu həqiqətən maraqlı edən onun azadlığı radikal anlaması və öz valyutası ilə işləyən sistemidir.

2015-ci ildə çex siyasətçisi Vit Jedlicka tərəfindən qurulan Liberland klassik liberal fəlsəfəyə əsaslanan Konstitusiya respublikası kimi qurulub. Məcburi vergilərin, dövlət müdaxiləsinin və ya silah qadağasının olmadığı bu sistemdə vətəndaşlara mümkün olan ən böyük şəxsi azadlıq verilir. Üstəlik, iqtisadiyyat tamamilə kriptovalyuta və libertar prinsiplərə əsaslanır. Rəsmi pul vahidi "Liberland Dolları", rəsmi dili isə ingilis dilidir.

Liberland təkcə siyasi quruluşu ilə deyil, təklif etdiyi həyat tərzi ilə də diqqət çəkir. Mikro millətin mərkəzində yerləşən ARK Village təbiətlə bir olmaq istəyənlər və fərqli icma təcrübəsi axtaranlar üçün dəvətli dayanacaqdır. Burada ziyarətçilər tədbirlərdən tutmuş təbiət gəzintilərinə, yaradıcı layihələrdən tutmuş ruhlandırıcı söhbətlərə qədər bir çox şeylər yaşaya bilərlər.

Liberland hökuməti ölkənin rəsmi saytında dünyanın hər yerindən gələn qonaqları bu unikal formasiyaya dəvət edir. Maraqlılar üçün bu kiçik torpaq sahəsi həm sosial təcrübə, həm də alternativ həyat tərzi təklif edir.

*https://moderator.az/az/dunya/873267/dunyanin-en-azad-lkesi-cemi-63-nefer-ehalisi-var/*

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

# Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq
- Biotexnologiya
- İnformasiya təhlükəsizliyi

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi